AZƏRBAYCAN UĞRUNDA!

# HƏRBİ BİLİK

№4 / oktyabr–dekabr 2022



**Azərbaycan Respublikası Müdafiə Nazirliyi**
**Milli Müdafiə Universiteti**

# HƏRBİ BİLİK

**Hərbi elmi-nəzəri jurnal**

**№4 (oktyabr – dekabr), 2022-ci il**

**Ministry of Defence of the Republic of Azerbaijan**
**National Defence University**

# MILITARY KNOWLEDGE

**Military scientific-theoretical journal**

**№4 (October – December), 2022**

**Bakı – 2022**

**Baş redaktor** – polkovnik Rəşad Tahirov
**Məsul katib** – polkovnik-leytenant Elnur Məmmədov
**Redaktor** – e.o. polkovnik-leytenant Mərhəmət Abiyev
**Korrektor** – Nigar Əbilova
**Tərtibatçı** – e.o. baş gizir İlqar Hüseyn

**Redaksiya heyətinin üzvləri**

- professor, general-leytenant Heydər Piriyev;
- general-leytenant Azər Əliyev;
- general-mayor Hilal Nəcəfov;
- general-mayor Məmməd Eminov;
- general-mayor Namiq İslamzadə;
- general-mayor Anar Kərimov;
- general-mayor Nicad Qarayev;
- general-mayor Eldəniz Yəhyayev;
- tibb xidməti general-mayoru Firuddin Nəbiyev;
- m.t.h.e.ü.f.d., dosent, polkovnik Arif Həsənov;
- m.t.h.e.d., professor, polkovnik Bəbir Quliyev;
- polkovnik Vüqar Əsgərov;
- polkovnik Mahir Mirzəyev;
- polkovnik Namiq Bayramov;
- tex.e.d., professor Əminağa Sadıqov;
- m.t.h.e.d., professor Elşən Həşimov;
- r.e.d., professor Etibar Pənahov;
- bio.e.d., professor Elimxan Cəfərov;
- tex.e.d., professor Bayram İbrahimov;
- tar.e.d., professor Nurulla Əliyev;
- m.t.h.e.d., professor Əziz Talıbov;
- tar.e.d., dosent Mehman Süleymanov;
- f.-r.ü.f.d., dosent Arzuman Həsənov;
- f.-r.ü.f.d., dosent Elxan Səbziyev;
- siy.e.ü.f.d., dosent Vüqar Məmmədzadə.

Redaksiyaya daxil olmuş əlyazmalar, fotolar, illüstrasiyalar geri qaytarılmır. Müəllif hərbi elmi-nəzəri fikirlərə və tarixi faktlara görə məsuliyyət daşıyır.

“Hərbi bilik” jurnalında verilmiş materiallardan istifadə zamanı jurnala mütləq istinad edilməlidir.

“Hərbi bilik” jurnalı elmi tədqiqatların əsas müddəalarının nəşr edilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan nəşrlər siyahısına daxil edilmişdir.

**Təsisçi:** Milli Müdafiə Universiteti.

**Ünvan:** AZ1065, Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, “Qırmızı Şərq” hərbi şəhərciyi, Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu.

**E-mail:** mmu-heti@mod.gov.az

Üz qabığındakı fotolar “apa.az” saytından götürülmüşdür.

**Editor-in-chief** – colonel Rashad Tahirov
**Executive secretary** – lieutenant-colonel Elnur Mammadov
**Editor** – reserved lieutenant-colonel Merhemet Abiyev
**Corrector** – Nigar Abilova
**Designer** – reserved senior warrant officer Ilgar Huseyn

## Editorial board members

– professor, lieutenant-general Heydar Piriyev;
– lieutenant-general Azer Aliyev;
– major-general Hilal Najafov;
– major-general Mammad Eminov;
– major-general Namig Islamzadeh;
– major-general Anar Karimov;
– major-general Nijad Garayev;
– major-general Eldeniz Yahyayev;
– major-general of medical service Firuddin Nabiyev;
– PhD in n.s.m.s., assoc. prof., colonel Arif Hasanov;
– DsC in n.s.m.s., professor, colonel Babir Guliyev;
– colonel Vügar Asgarov;
– colonel Mahir Mirzeyev;
– colonel Namig Bayramov;
– DsC in tec.sci., professor Aminagha Sadigov;
– DsC in n.s.m.s., professor Elshan Hashimov;
– DsC in math., professor Etibar Panahov;
– DsC in biol., professor Elimkhan Jafarov;
– DsC in tec.sci., professor Bayram Ibrahimov;
– DsC in his.sci., professor Nurulla Aliyev;
– DsC in n.s.m.s., professor Aziz Talibov;
– DsC in his.sci., assoc. prof. Mehman Suleymanov;
– PhD in phys.-math., assoc. prof. Arzuman Hasanov;
– PhD in phys.-math., assoc. prof. Elkhan Sabziyev;
– PhD in pol.sci., assoc. prof. Vugar Mammadzada.

Manuscripts, photos, illustrations received by the editorial section are not returned. An author is responsible for military scientific-theoretical views and historical facts.

While using any kind of material given in “Military knowledge” you should refer to the journal.

“Military knowledge” journal has been included in the list of recommended publications by Higher Attestation Commission under the President of the Republic of Azerbaijan for the publication of main theses of scientific researches.

**Founder:** National Defence University.

**Address:** AZ1065, Republic of Azerbaijan, Baku, Yasamal district, “Girmizi Sherg” military settlement, National Defence University, Military Scientific Research Institute.

**E-mail:** mmu-heti@mod.gov.az

# MÜNDƏRİCAT

**_HƏRBİ NƏZƏRİ ELMLƏR_**

**Vaxtdan düzgün istifadənin səmərəliliyi və riyazi modelləşdirmə**
*Heydər Piriyev, Arif Həsənov, Arzuman Həsənov* ........ 7

**Silahlı konfliktlərdə taktiki hava desantının tətbiqi xüsusiyyətləri**
*Fuad Ələkbərov* ........ 15

**Qoşunların topogeodeziya təminatında PUA-nın tətbiqi. İstifadə təcrübəsi və inkişaf perspektivləri**
*Cabir Sultanov, Çingiz Vəliyev* ........ 21

**İdarəolunan raketlərin inkişaf perspektivləri**
*Mürsəl Əliyev, Əflatun Məmmədov, Zülfiyyə Babayeva, Sevinc Məmmədova* ........ 28

**Komandirlik fəaliyyətinin bəzi psixoloji aspektləri**
*Əlisəfdər Hüseynov* ........ 34

**Yoluxucu xəstəliklər və hərbi qulluqçuların şəxsi gigiyenası**
*Elçin Salmanov* ........ 38

**_HƏRBİ XÜSUSİ ELMLƏR_**

**Dövrün erməni millətçiləri Qafqaz İslam Ordusu haqqında**
*Bahtiyar Ersay* ........ 44

**Sülh və hərbi xarakterli fövqəladə hallara psixoloji davamlılığın formalaşdırılmasının metodiki problemləri**
*Səyavuş Gözəlov, Sədaqət Musayeva* ........ 51

**_MİLLİ TƏHLÜKƏSİZLİK_**

**Cənubi Qafqazda hərbi-siyasi proseslər təhdid mənbəyi kimi**
*Cəfər Seyidov* ........ 57

**_HƏRBİ TƏBABƏT_**

**Yaralanmalar zamanı baş verən pnevmoniyalara müasir yanaşma**
*Rəna Şirvanova, Vəli Qazıyev, Bəxtiyar Əliyev* ........ 68

**Dəri örtüklərinin müxtəlif göbələk infeksiyaları və onların hərbi qulluqçular arasında yayılma xüsusiyyətləri**
*Ruqiyyə Güliyeva* ........ 74

## CONTENTS

*MILITARY THEORETICAL SCIENCES*

**Efficiency of the correct usage from the time and mathematical modeling**
*Heydar Piriyev, Arif Hasanov, Arzuman Hasanov* ........ 7

**Features of the application of tactical airborne troops in armed conflicts**
*Fuad Alakbarov* ........ 15

**The Application, experience in usage and development perspectives of UAV in the topogeodesis maintenance of the troops**
*Jabir Sultanov, Chingiz Valiyev* ........ 21

**Prospects for development of guided missiles**
*Mursal Aliev, Aflatun Mammadov, Zulfiya Babaeva, Sevinj Mammadova* ........ 28

**Some psychological aspects of team activity**
*Alisafdar Huseynov* ........ 34

**Analysis of the sources of infectious diseases, distribution routes and methods of protection**
*Elchin Salmanov* ........ 38

*MILITARY SPECIAL SCIENCES*

**Armenian contemporaries about the Caucasian Islamic Army**
*Bakhtiyar Ersai* ........ 44

**Methodological problems of forming psychological stability in peaceful and military emergencies**
*Sayavush Gezalov, Sadagat Musayeva* ........ 51

*NATIONAL SECURITY*

**Military-political processes in the South Caucasus as a source of threat**
*Jafar Seyidov* ........ 57

*MILITARY MEDICINE*

**Modern approach to pneumonia occurring during injuries**
*Rana Shirvanova, Veli Gaziyev, Bakhtiyar Aliyev* ........ 68

**Fungal infection of the skin and especially its prevalence among military personnel**
*Rugiyya Guliyeva* ........ 74

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№4/2022, səh. 7-14**
***HƏRBİ NƏZƏRİ ELMLƏR*** ***MILITARY THEORETICAL SCIENCES***

UOT 355/359

# VAXTDAN DÜZGÜN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ VƏ RİYAZİ MODELLƏŞDİRMƏ

**professor, general-leytenant Heydər Piriyev[1]**
**m.t.h.e.ü.f.d., dosent, polkovnik Arif Həsənov[2]**
**f-r.ü.f.d., dosent Arzuman Həsənov[2]**
*[1]Milli Müdafiə Universiteti*
*[2]Milli Müdafiə Universitetinin Elmi Tədqiqat İnstitutu*
E-mail: arifhasan2828@yandex.ru
gasqhapk@gmail.com

***Xülasə.*** Məqalədə vaxtın cəmiyyət və insan həyatı üçün əhəmiyyəti açıqlanır və eləcə də ondan səmərəli istifadə məsələlərinə toxunulur. Həmçinin vaxtın əhəmiyyəti barədə alimlərin fikirləri təhlil olunur, insan ömründə vaxtın faydalı işə sərf olunan hissəsinin müəyyən edilməsinin sadə riyazi modeli qurulur və həll edilir.

**Açar sözləri:** vaxt, təqvim, gün, ay, riyazi model

## Giriş

Zaman biristiqamətli dönməz proses olmaqla fəlsəfi kateqoriyadır və hadisələrin ardıcıllığını, onların əvəzlənməsini özündə əks etdirir. Cəmiyyətin inkişafı məkan və zamana bağlıdır. Məkanın itirilməsi cəmiyyətin inkişafını ləngidir və hətta qarşısını alır. Respublikamızın 20%-dən artıq ərazisinin vaxtilə işğal altında qalması Azərbaycan cəmiyyətinin və regionun inkişafına həm iqtisadi, həm də mənəvi zərər vurmuşdur.

Zaman keçdikcə cəmiyyət inkişaf edir. Səməd Vurğunun təbirincə desək, "*Zaman yaşa dolur, insan ağıla"*. İnsan cəmiyyətin məhsulu olmaqla zamanın çərçivəsindədir [1, s.21].

Əhəmiyyəti və səmərəli istifadəsi nəzərə alınaraq vaxtın ölçülməsi üçün daima müxtəlif üsul və vasitələrdən istifadə olunmuşdur. Vaxt ölçüsü olan ilk təqvim uzaq keçmişdə meydana gəlmişdir. O, yaddaş və müşahidələrə əsaslandığı və qeyri-dəqiq olduğu üçün fenoloji təqvim adlanırdı. Belə təqvim təbiət hadisələri əsasında qurulurdu. Onun vətəni Mesopotamiya hesab olunur. Məhəmməd Peyğəmbər də vaxtdan səmərəli istifadə etməyə yüksək dəyər verərək demişdir: *"Bir saat yaradıcı düşünmək, altmış il ibadətdən üstündür"* [1, s.479; 2, s.3].

Ulu öndər Heydər Əliyev, hətta asudə vaxtın səmərəli keçirilməsi ilə əlaqəli demişdir: *"Asudə vaxt məsuliyyətdən azad vaxt deyil. Asudə vaxt sosial sərvətdir və ondan ehtiyatla, qənaətcil istifadə etmək lazımdır"* [3].

Məqsədyönlü şəkildə məhsuldarlıq və effektivliyin artırılması ilə nəticələnən konkret fəaliyyətə sərf olunan vaxt üzərində nəzarətin saxlanması məqsədilə həyata keçirilən proses və ya fəaliyyət zamanın idarə olunması (time management) hesab olunur [4; 5].

Qədim Şumerdə kainatın astronomik müşahidələri əsasında ilk təqvim hesab olunan Ay təqvimi yaranmışdır. Bu təqvimdə ilin uzunluğu 354 gün idi. Qalan 11 gün isə ilin sonuna 13-cü ay kimi əlavə olunurdu. Həmin təqvim təkcə Günəş və Ayın hərəkətlərinə əsaslandığı üçün olduqca mürəkkəb idi. Həftə anlayışı yox idi. İlk Günəş təqvimini isə Misir kahinləri tərtib ediblər. Bu təqvimə əsasən il 365, hər dörd ildən bir isə 366 gün hesablanırdı. İl dörd fəsil olmaqla 12 aya bölünürdü. Bundan sonra Misir təqvimi əsasında Romada "Yuli təqvimi", 1582-ci ildə isə Roma papası XIII Qriqori tərəfindən "Qriqori təqvimi" tərtib edilmişdir [1, s.54].

Elm adamlarının fikrincə, xoşbəxtliyin açarlarından biri vaxtdadır. Vaxtını düzgün istifadə edən adam xoşbəxtdir. Azərbaycanın görkəmli yazıçısı Mir Cəlal dünyada ən qiymətli şeyin vaxt olduğunu demişdir. Tanınmış təhsil eksperti, əməkdar elm xadimi, professor Şahlar Əsgərovun fikrinə görə, cəmiyyətin inkişafı vaxtdan düzgün istifadə etməkdən asılıdır, zaman vəziyyətin dəyişmə nizamıdır və

bircinslilik, kəsilməzlik, biristiqamətlilik, dövrsüzlük zamanın xassələrindəndir. Mütəxəssislərin fikrincə, uşaqlara 3 yaşından etibarən vaxtın düzgün idarə edilməsinin öyrədilməsi məqsədəuyğundur [3].

Zamanı izləmək üçün tarixən bir çox üsul və vasitələrdən istifadə olunmuşdur. Bu gün istifadə etdiyimiz saat əsasən Qərbdə kəşf olunmuşdur. Vaxtdan daha effektli istifadə etmək üçün hesablama maşınları yaradılmışdır. İnkişaf etmiş ölkələrdə vaxt yüksək qiymətləndirilir və ondan qənaətlə istifadə edilir. Həyat tərzi belə, onun üzərində qurulur. Ziyafət və qonaqlıqlar elə təşkil olunur ki, vaxt hədər getməsin. Buna görə də sosial yerlərdə səhər yeməkləri qısamüddətli "İsveç masası", axşam ziyafətləri isə ayaqüstü qonaqlıqlar – "furşetlər" şəkilində təşkil edilir.

Ötən günlərin dönməyəcəyini unutmamalıyıq və vaxtın hər bir anından səmərəli istifadə etməliyik. Təxmini olaraq, əgər 100 il öncə bir nəfər həftədə bir vacib iş görürdüsə, indi hər iş günündə ən azı 5 – 6, bəzən daha çox vacib iş görmək məcburiyyətindədir. Bəşər övladı vaxtı idarə etmək üçün divar və stolüstü təqvimlər, qeyd kitabçası və cədvəllər hazırlayırlar. Zəngli saatlardan istifadə edilir. Müasir amerikalı filosof Brayan Treysinin fikrincə, vaxt – müasir biznesin valyutasıdır və bilik qədər dəyərli hesab edilir. Dahi mütəfəkkir Falesə görə, zaman hər şeydən müdrikdir, çünki o hər şeyi aşkarlayır [1, s.53].

Atom fizikasının banisi Rezerfordla bağlı belə bir əhvalat tarixə düşüb: alim səhər tezdən laboratoriyaya gəlir və əməkdaşlarından soruşur: Nə edirsiniz? Hamı bir səslə deyir ki, işləyirik. Həmin gün böyük alim günorta saatlarında da laboratoriyaya gəlir və səhərki sualını təkrar edir. Yenə hamıdan eyni cavabı eşidir. Axşamüstü Rezerford təkrarən laboratoriyaya baş çəkir və eyni suala eyni cavabı alır. Belə olduqda Rezerford əməkdaşlarından soruşur: "Bəs onda siz nə vaxt fikirləşirsiniz?"

Vaxtın əhəmiyyəti hərbi sahədə özünü daha da qabarıq büruzə verir. Çünki əməliyyatların planlaşdırılması zamanı vaxt bölgüsü aparılır və onların icrasında bölmələrin nə vaxt tətbiq edilməsi komandirlərin peşəkarlığının əsas göstəricilərindən biridir.

Hərb sənətində qərarın xətası məlumat qıtlığı ilə düz mütənasibdir. Deməli, hadisə ilə bağlı düşünmə vaxtı nə qədər çox olarsa, toplanan məlumat çox, qərarın xətası isə az olar. Məlum bir el misalında deyilir: *"Bir ağıl yaxşıdır, ikisi ondan da yaxşıdır"*. Çünki iki nəfərin əldə etdiyi informasiya və ya problemlə bağlı düşünmə vaxtı iki dəfə çoxdur. Ona görə də səhv az olacaq. Professor Şahlar Əsgərovun qeyd etdiyi kimi, bu səbəbdən də idarəetmə sistemində, adətən, nazir, müdir, rektor və s. vəzifəli adamlar üçün müavin və ya buna oxşar digər vəzifələr nəzərdə tutulur ki, qəbul olunan qərarın xətası az olsun. Hərbi strukturlarda komandirə, rəisə müavinlə yanaşı, bütün xidmətlər üzrə mütəxəssislər təyin edilir. Onların vəziyyət qiymətləndirmələrindən əldə edilən təklifləri hərbi qərar qəbuletmə prosesində nəzərə almaqla xətası minimum olan nəticənin əldə edilməsinə çalışılır. Belə vəzifələrin boş qalması qəbul edilən qərarlara öz mənfi təsirini göstərir. Hər kəs həmişə qalib ola bilmədiyini dərk etməli, eləcə də həyatda özünəməxsus olmaqla öz yerini tapmalı və vaxtını ona uyğun idarə etməyi bacarmalıdır.

S.Kovi, Q.Arxanqelsк, D.Allen və başqa mütəxəssislərin fikrincə, vaxtın idarə edilməsində aşağıdakı şərtləri nəzərə almaq vacibdir [4]:

– əgər siz vaxtın idarə edilməsi ilə məşğul olmaq istəyirsinizsə, onda onunla məşğul olun, onu oxumayın;
– əgər sizi praktika, metod və fəndlər maraqlandırırsa, onda ilkin mənbələrə müraciət edin;
– nəyi və nə vaxt istədiyinizi bilirsinizsə, onu eləməyə başlayın;
– tapşırıqları hədəfə yox, fəaliyyətə istiqamətləndirin (fiziki formanı saxlayın);
– nəyə və hara vaxtınızı sərf etdiyinizi bilin;
– vaxtın effektiv idarə edilməsini görülmüş işlərin miqdarı ilə deyil, onların keyfiyyəti ilə ölçün;
– işə tam qoşulun;
– vaxtaşırı yoxlamalar həyata keçirin;
– həmişə əlinizin altında görüləcək işlərin siyahısını saxlayın;
– axında olun (dayanmadan fəaliyyət göstərin).

Siyahı üzrə planlaşdırılmış işin məhsuldarlığı elə birinci gün 20% artmış olur. Əgər siz görəcəyiniz işin siyahısını bir gün əvvəldən hazırlamış olsanız, işə başlayan anda həmişə nədən başlamalı olduğunuzu biləcəksiniz [5]. Hər hansı işə başlamazdan əvvəl, bir qayda olaraq, 10/90 vaxt nisbəti unudulmamalıdır: 10% işə başlamazdan əvvəl planlamaya, 90% isə işin icrasına sərf olunmalıdır.

## Şəxsi heyətin vaxtının planlaşdırılması və səmərəli istifadəsi

Məlumdur ki, hərbi hissənin döyüş hazırlığı şəxsi heyətin vaxtının səmərəli istifadə edilməsindən asılıdır. Bu məsələ aktual problem olaraq qalmaqdadır [6]. Şəxsi heyətlə birlikdə vaxtın səmərəliliyinin təhlil edilməsi zəruridir. Müxtəlif fəaliyyət növləri vardır: görüşlər, təkliflərin hazırlanması, danışıqlar, hesabat sənədləri ilə işləmək, idarəetmə, yeni məsələlərin həll edilməsi. Vaxtı planlaşdırmaq üçün iş gününü düzgün planlaşdırmaq lazımdır. İş gününün sonunda, növbəti gün üçün bir iş planı tərtib edilir: sabah edilməsi planlaşdırılan bütün işləri dörd qrupa bölmək olar:

– təcili və mühüm (A);
– təcili olmayan və mühüm (B);
– təcili və mühüm olmayan, lakin əhəmiyyətli (C);
– nə təcili, nə də mühüm (D).

Gün ərzində, gözlənilməz hallar zamanı maksimum nəticə əldə etmək üçün vaxtı tənzimləmək lazımdır. Ayrıca hər bir tapşırığın yanında, gözlənilən nəticə yazılmalıdır ki, prosesin səmərəli başa çatmasını qiymətləndirmək mümkün olsun.

İş gününə (A) kateqoriyalı vəzifələrdən başlamaq lazımdır. Təcrübə və elmi araşdırmalar göstərir ki, insanda ən böyük aktivlik səhər saat 9-dan 2-yə qədərdir. Əvvəlcə vacib məsələlərlə bağlı qərar verilməlidir. Hər hansı bir iş plana uyğun gəlmirsə, ona düzəlişlər etmək mümkündür. Əsas məsələlərə daha çox vaxt ayırmaq lazımdır. Planlaşdırma zamanı iş vaxtının 60%-ni əsas işə, 20%-ni gözlənilməz hallara, digər 20%-ni isə planın hazırlanması üçün ayrılması münasibdir. Bu vaxt müddətləri, ümumiyyətlə, fasilələr və başa çatdırılmış tapşırıqların nəticələrinin təhlili üçün ayrılır. Əgər əsas işləri həll etmək mümkün deyilsə və ya gözlənilməz çətinliklər yaranarsa, vaxt əlavə oluna bilər. Hər iş gününün sonunda gözlənilən nəticəyə çatmağa nə isə mane olmadıqda, qarşıya qoyulmuş hədəflərə necə çatmaq üçün təhlil aparılmalı, maneələrin haradan gəldiyi müəyyənləşdirilməli və vəziyyəti daha tez və effektiv şəkildə həll etməyə cəhd göstərilməlidir. Bu təhlillər gələcəkdə səhvlərin təkrarlanmamasına kömək edəcək və planlaşdırmaya sərf olunan vaxt ümumi işlərin icrasını asanlaşdıracaq.

Vaxtın planlaşdırılması hər hansı bir rəhbər və ya komandir üçün kəskin və zəruri bir məsələdir. Xüsusilə yeni bir işə başladıqda təcili olaraq həll edilməsi lazım olan bütün iş, vəzifə və problemlər onun üzərinə düşür: öyrənməli, əlaqə qurmalı, planlaşdırmalı, hərəkət etməlidir. Bu zaman vaxt çatışmazlığı ola bilər. Paralel olaraq yeni bir iş olarsa və ya bir “əsas” iş varsa, onu icra etmək zəruridir. İş üçün əlavə vaxtı haradan əldə etmək olar?

Bir gündə 24 saat var. Bu 24 saat şərti olaraq iş və qeyri-iş saatlarına bölünə bilər. Yatmağa, yeməyə, yuyunmağa ayrılan vaxt, ictimai nəqliyyatda səyahət, yemək hazırlamaq, radio, televizor və internetdən istifadə etmək, yaxınlar-dostlarla görüşmək, telefonda söhbət etmək və s. qeyri-iş saatlarıdır. Günü təhlil edərək, gün ərzində nə qədər qeyri-iş vaxtının olduğunu hesablamaq olar. Bir məqalə yazmaq, tərəfdaşlarla yazışmaq, qabaqcıl təcrübəni öyrənmək, təəssüratları bölüşmək, vebinarları dinləmək, texniki məsələlərə baxmaq, yeni imkanlar axtarmaq, yeni layihələr üzərində işləmək və onlardan səmərəli istifadə etmək və s. iş vaxtıdır. Bəzən yeni layihə üzərində işləyərkən kifayət qədər əlavə vaxt lazım olur. Belə hallar iş vaxtının daha yaxşı təşkil edilməsini şərtləndirir.

İşə başlamaq üçün iş cədvəli tərtib olunmalıdır. Yeni iş arzuolunan tempdə getməyə bilər və köhnə iş əziyyətlə yerinə yetirilə bilər və ya ailəyə ayrılan vaxtla əlaqədar yaranan çətinliklər ola bilər. Həmçinin internetdəki məşğuliyyətləri işlə əlaqələndirəndə də bir çətinlik hiss olunur. Ona görə də günü təhlil edərək, vaxtı səmərəli istifadə etmək lazım gəlir. Bu zaman ailəyə və istirahətə ayrılan vaxtı azaltmaq məsləhət deyil. Əlavə vaxtın – radio-televizor, internet və sosial şəbəkələrə ayrılan vaxtın səmərəli istifadə olunmasına və digər işlərə ayrılan vaxtın minimuma endirilməsinə çalışmaq lazımdır. Nəticə etibarilə, səmərəli işlərə vaxt ehtiyatı əldə etmək lazımdır. Belə şəxsi vaxtı necə tapmaq olar?

Günü təhlil edəndə gündə təxminən bir və ya bir neçə saat vaxtın səmərəsiz keçdiyini müəyyən etmək mümkündür. Dostlarla ünsiyyətə sərf olunan vaxt iş saatı olmasa da, bu vaxtdan səmərəli istifadə etmək olar. Bunun üçün onlarla ünsiyyət zamanı maraqlı mövzulara diqqət yetirmək lazımdır. Həmin vaxtın iş vaxtı kimi istifadəsinə nail olmaq mümkündür. Bu əlavə iş vaxtının əldə edilməsi deməkdir.

Bəzən isə uşaqların məktəbə aparılması və gətirilməsi zamanı iş vaxtının məcburi olaraq itirilməsi problemi meydana çıxır. Ancaq bu hallarda da iş vaxtı itməsin deyə, müəyyən çıxış imkanları düşünmək olar. Həmin "itirilmiş" vaxt səmərəli vaxt kimi istifadə oluna bilər: müasir telefonların diktofonlarından istifadə etməklə plan, sual, məqalə və çıxışları hazırlamaq olar. Bu isə iş vaxtının itirilməsi deyil, səmərəli istifadə olunması deməkdir. Nəqliyyatda gedərkən qeyri-iş vaxtının iş vaxtı kimi istifadəsinə nail olmaq olar. Daha çox özünüzü hər şey etməyə, daha erkən durmağa məcbur etməyiniz vacibdir, ancaq daxili ritmlərinizi hiss etməyi və vaxtınızı səmərəli istifadə etməyi öyrənməyiniz vacibdir. Adətən, hər bir insanda gündə bir dəfə – səhərin sonunda bir emosional yüksəliş olur. Həmin vaxt o, daha çox iş görməyi, daha yaxşısını etməyi və fikrini seçilmiş fəaliyyətə cəmləşdirməyi bacarır. Əvvəla, belə bir emosional yüksəlişin nə vaxt olduğunu öyrənmək və ən vacib işlər üçün tam şəkildə istifadə etmək olar. Yuxu mövzusunda mütəxəssislər düzgün yatmağı məsləhət bilirlər. Nə vaxt yatmağınızın fərqi yoxdur, ancaq hər gün müəyyən bir vaxtda durmalısınız. Bir-iki aydan sonra bədən yeni ritmə uyğunlaşacaq və vacib işlər üçün vaxt ayırmaq mümkün olacaqdır.

Vaxtın necə keçdiyini anlamaq üçün vaxt izləyicisindən istifadə olunur. Sadəcə, hər tapşırığı qeyd edərək, axşam bütün gün edilmiş işləri qiymətləndirmək mümkündür. İki növ izləyici var: analoq və proqram.

Analoq – (kağız və qələm) bir çox problemləri həll edənlər üçün uyğundur. Proqram kompüterdə sərf olunan vaxtı qeyd edir, günün sonunda isə hesabatını hazırlayır.

## Şəxsi heyətin vaxtının planlaşdırılması üçün tapşırıqlar

İşləri hissələrə ayırmaqla, hər birinə görə bu gün və sabah üçün kiçik detallar qeyd etmək mümkündür. Gün üçün tapşırıqların yazılması çox vaxt almamalıdır.

Müasir dünyada getdikcə daha çox insan günün onlar üçün kifayət etmədiyini və bütün işlərini görməyə vaxt olmadığını başa düşür. 24 saat kifayət deyilsə, bəs nə etməli? Bunun bir yolu var: vaxtın planlaşdırılması və ya vaxtın idarə olunması.

Sosial şəbəkələrə sərf etmək əvəzinə vaxtdan istifadəni səmərəli şəkildə həll etmək olar, məs.: nəqliyyatda təcili olmayan və şəxsi mesajlara cavab verilə bilər, Facebook-a keçməkdən imtina etmək olar və s. Beləliklə, sosial mediaya sərf edilən vaxtı planlaşdırmaqla gündə 3 saata qənaət etmək olar. Günü təxminən planlaşdırmalı, məs.: sabah hansı tədbirlərdə iştirak etməli və ya hansı hesabatları təqdim etməli və kimə zəng etməli? Onlar planda yazılmalıdır. Vaxtında görülən bir iş 2–3 saat vaxta qənaət etməyə imkan verir. Sağlamlıq və qidalanmaq probleminə diqqət yetirmək lazımdır. Buna həmişə əlavə vaxt tapılmalıdır. Ailə üçün vaxt ayrılmalıdır. Ailə cəmiyyətin ən vacib tərkib hissəsidir və ona hər zaman diqqət olmalıdır. Ailə məsələlərinə diqqətsizlik insan üçün gələcəkdə təkqalma riski yaradar.

Kompüter vaxtı planlaşdırmaq və işlərin məhsuldarlığını artırmaq üçün sadə addımlardan biridir. İş vaxtı kompüterdə filmlərə baxmaq, sosial şəbəkələrə vaxt itirmək, başqalarının bloglarını oxumaq, motivasiya videoları və s. izləmək lazım deyil. Ancaq belə olsa da, evdə işlədiyin vaxtı planlaşdırmaq lazım olduğunu başa düşmək lazımdır. Niyə evdə işi planlaşdırmaq lazımdır? İş vaxtından səmərəli necə istifadə etmək olar?

Kompüterdəki işləri təhlil etdikdən sonra iş saatlarının səmərəli istifadə olunması üçün aşağıda sadalananlara qərar verməli:

1. Minimum sosial şəbəkələr. Sosial şəbəkələrin faydalı və zərərli cəhətlərini fərqləndirməyi bacarmaq.

2. Təxirəsalınmaz işlərə təcili başlamaq. Bütün vacib və təxirəsalınmaz işlərin edildiyini, qalan hissənin ya axşam, ya da sabah edilə biləcəyini nəzərə almaq.

3. Günü ən uyğun şəkildə qurmaq. Gün üçün ediləcək işlərin siyahısını tərtib etmək və eyni işləri həftə ərzində davam etdirmək. Həftənin əvvəlində işlərin vəziyyətinə baxmaq. Hər ay üçün planlaşdırılan təxirəsalınmaz tapşırıqları yazmaq.
4. İşin optimallaşdırılması üçün yeni nəzəriyyələri oxumaq üçün vaxt ayırmaq.
5. Sağlamlığı qorumaq üçün idmana vaxt ayırmaq.

Hər insanın bir gündə, bir həftədə, bir ayda eyni miqdarda vaxta sahib olduğu dəyişməzdir. Bir dəqiqə belə əlavə etmək mümkün deyil. Ancaq idarəetmə qabiliyyəti hər kəs üçün fərqlidir. Müəyyən müddət ərzində nə qədər iş görmək isə onun bacarığından, nə qədər vəsait qazanmasından, nə qədər qənaət etməsindən və s. asılıdır. Kiminsə oyanmaq, televizora baxmaq və yuxuya getməyə, kiminsə yemək bişirmək, yuyunmaq, mağazaya getmək, işləmək, xəbərləri izləməyə və s. vaxtı ola bilər. Bu da hədəflərdən, fəaliyyəti və vaxtı idarə etmək bacarığından asılıdır.

Əlbəttə, bizdən asılı olmayaraq vaxt faydasız sərf oluna bilər: qohumların zəngləri, dostların gözlənilməz istəkləri, azsürətli internet və daha çox həcmdə planlaşdırılması mümkün olmayan işlər. Bunun nəticəsində iş vaxtının xeyli hissəsi arzu olunmayan, gözlənilməyən işlərə sərf olunur və əsas işlərə az vaxt qalır. Bu problemi həll etmək üçün gözlənilmədən ortaya çıxan işlərin hansı qrupa aid olduğunu müəyyənləşdirmək lazımdır. Məs.: iş zamanı dostunuz sizi söhbətə çağırır və bu anda bir iş prosesinin ortasındasınız. Belə bir məsələ nə təcili, nə də vacibdir. Birinci seçim telefonu götürə, danışa və sonra işə davam edə bilərsiniz. Nəticədə ən az 20 dəqiqə itirəcəksiniz. İkinci seçim evə gedərkən dostunuzla danışa bilərsiniz. Bu yolla iş vaxtınızın səmərəliliyini artırmaqla yanaşı, bir dəqiqədə əlavə vaxt itirməyəcəksiniz. Təcili və vacib olan bu anda edilməli olan işlərdir, çünki bunlara məhəl qoymamaq mənfi nəticələrə gətirər. Bunlar müəyyən bir problemin dərhal həllini tələb edən iş zəngləri ola bilər. Vaxtın planlaşdırılması işlərin prioritetləşdirilməsi kimi müəyyən edilə bilər.

Birincisi aydın planlaşdırmadır. Bunu etmək üçün gündəliyə gün ərzində etməyi planlaşdırılan işləri yazmalı. Bu vəziyyətdə işin başlanğıc və son vaxtları qeyd edilməlidir. Ən azı bir həftə ərzində vaxtı nəzarətdə saxlamalı: müəyyən bir fəaliyyətə nə qədər vaxt ayrılmasını yazmalı. Nəticələri təhlil etdikdən sonra maraqlı və faydalı məlumat əldə etmək olar: kiçik işlərə nə qədər vaxt sərf olunması, televiziyada və ya sosial şəbəkədəki məlumatlara baxmaq, telefonda danışmaq və s. Daha vacib vəzifələr üçün əlavə saat ayrıla bilər. İkinci dəfə planlaşdırma vaxtın dəyərini müəyyənləşdirməkdir. Əmək haqqının miqdarına görə vaxtın dəyərini müəyyən etməli. Bunu etmək üçün aylıq maaşı iş vaxtının sayına bölmək lazımdır. Əldə edilmiş nəticələrə əsasən, bu işi görməyin nə dərəcədə məqsədəuyğun olduğunu təhlil etmək olar.

## Şəxsi heyətin gündəlik vaxtının istifadəsi və sadə riyazi modeli

Yuxarıda ümumi şəkildə verilmiş mülahizələrin hamısının riyazi modeldə nəzərə alınması mümkün deyildir. Fərz edək ki, şəxsi heyətin gündəlik istifadə etdiyi yuxu vaxtı $x_1$, sağlamlıq və idman vaxtı $x_2$, iş vaxtı $x_3$, işə gəlməyə sərf olunan vaxt $x_4$, işdə fasilə vaxtı $x_5$, kütləvi informasiya, internet və sosial şəbəkələrə ayrılan vaxtı $x_6$, qalan digər işlərə ayrılan vaxtı $x_7$ saatdır.

Daxil edilmiş bu dəyişənlər real olaraq iş və ev şəraitində müəyyən şərtləri ödəməlidir:

- yuxu vaxtı $7 < x_1 \le 8$,
- sağlamlıq və idman vaxtı $1/3 < x_2 \le 1$,
- iş vaxtı $7 < x_3 \le 8$,
- işə gəlməyə sərf olunan vaxt $0.5 < x_4 \le 1.5$,
- işdə fasilə vaxtı $0.5 < x_5 \le 2$,
- kütləvi informasiya, internet və sosial şəbəkələrə ayrılan vaxt $1/3 < x_6 \le 3$,
- qalan digər işlərə ayrılan vaxt $1/12 < x_7 \le 2$ olsun.

Onda məsələnin məqsəd funksiyası

$$F(x) = x_1 + x_2 + x_3 + x_4 + x_5 + x_6 + x_7$$

olar. $F(x)$ ümumilikdə şəxsi heyətin fəaliyyət vaxtını xarakterizə edir. Beləliklə, aşağıdakı xətti proqramlaşdırma məsələsinin həllinə gəlirik [7]:

Məqsəd funksiyası

$$F(x) = x_1 + x_2 + x_3 + x_4 + x_5 + x_6 + x_7 \to min$$

Məhdudiyyət şərtləri

$$7 < x_1 \le 8,$$
$$1/3 < x_2 \le 1,$$
$$7 < x_3 \le 8,$$
$$0.5 < x_4 \le 1.5,$$
$$0.5 < x_5 \le 2,$$
$$1/3 < x_6 \le 3,$$
$$1/12 < x_7 \le 2$$
$$x_1 + x_2 + x_3 + x_4 + x_5 + x_6 + x_7 < 24$$
$$x \ge 0$$

Alınmış məsələni həll etmək üçün Mathcad riyazi proqramının Minimize (F, x) funksiyasından istifadə etmək olar [8].

$$F(x) := x_1 + x_2 + x_3 + x_4 + x_5 + x_6 + x_7$$

$$x_7 := 0.$$

Given

$$7 < x_1 \le 8$$
$$\frac{1}{3} < x_2 < 1$$
$$7 < x_3 \le 8$$
$$0.5 < x_4 < 1.5$$
$$0.5 < x_5 < 2$$
$$\frac{1}{3} < x_6 < 3$$
$$\frac{1}{12} < x_7 < 2$$
$$x_1 + x_2 + x_3 + x_4 + x_5 + x_6 + x_7 < 24$$

$$x > 0$$

$$x := \text{Minimize}(F, x) \qquad x^T = (7 \ \ 0.333 \ \ 7 \ \ 0.5 \ \ 0.5 \ \ 0.333 \ \ 0.083)$$

$$F(x) = 15.75$$

Nəticədə şəxsi heyətin gündəlik asudə vaxtı $24 - 15.75 = 8.25$ saat olar.

## İl ərzində asudə vaxtın hesablanması

İl ərzində rəsmi iş olmayan 16 günü, hər ayda 4 istirahət gününü və orta məzuniyyət müddətini (42 gün) toplamaqla il ərzindəki asudə vaxtı hesablamaq olar. Bunun üçün il ərzində iş günlərinin sayını tapaq. Məlumdur ki, bir il 365(366) gündən ibarətdir. Onda iş günlərinin sayı

$$365 - (42 + 16 + 12 * 4) = 259$$

gün, il ərzində asudə vaxt

$$259 \cdot 8.25 = 2136.75$$

saat olar. Məlumdur ki, şəxsi heyətin gündəlik iş vaxtı: iş fəaliyyəti (8 saat) və nahar fasiləsi – istirahət vaxtının (2 saat) cəmindən ibarətdir. Yəni

$$8 + 2 = 10$$

saatdır. İl ərzində asudə vaxtı gündəlik iş vaxtına bölsək nəticədə

$$2136.75 /10 \approx 214$$

alınar. Bu isə o deməkdir ki, şəxsi heyətin ilin 214 günündə hər gün 8 saat asudə vaxtı vardır və bunu faydalı istifadə etmək onun özündən asılıdır.

## Nəticə

Vaxt cəmiyyət və insan həyatı üçün olduqca əhəmiyyətlidir və ondan səmərəli istifadə olunması məqsədəuyğundur. Onun əhəmiyyəti barədə alimlərin fikirləri təhlil edilmiş, həmçinin insan ömründə vaxtın faydalı işə sərf olunan hissəsinin müəyyən edilməsinin sadə riyazi modeli qurulmuş və həll edilmişdir. Nəticədə il ərzində şəxsi heyətin hər gün kifayət qədər asudə vaxtı vardır və bu təqribən 214 iş günü vaxtına bərabərdir. Bu vaxtın səmərəli istifadə olunması hər bir şəxsin özündən asılıdır. Alınmış nəticədən bu qənaətə gəlmək olar ki, hazırkı dövrdə vaxtla bağlı müxtəlif bəhanəli fikirlərin heç bir elmi əsası yoxdur.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əmirov, M. İnsan və cəmiyyət / M. Əmirov. – Bakı: – 2010. – 578 s.
2. Панова, В.Ф. Пророк Мухаммед / В.Ф.Панова, В.Вахмин – Москва: изд. «Фенткс», – 1999. – 3 с.
3. Bayram, K. Zaman keçmədən zamanı idarə edin: [Elektron resurs] / URL: https://www.cazibe.info
4. Управление временем на личном примере: [Электронный ресурс] / URL: https://www.akabobik.org
5. Тайм-менеджмент: простые способы управления временем: [Электронный ресурс] / URL: https://psyfactor.org/lib/time-management-2.htm
6. Оптимизация рабочего времени: [Электронный ресурс] / URL: http://www.prostoy.ru
7. Həşimov, E.Q. Hərbi sistemlərin riyazi modelləşdirilməsi. Dərslik. / E.Q.Həşimov, Ə.M.Talıbov, A.Q.Həsənov – Bakı: Hərbi nəşriyyat, – 2018. – 257 s.
8. Həsənov, A.Q. Hərbi sistemlərin riyazi modelləşdirilməsi məsələlərinin həlli. Dərslik. / A.Q.Həsənov – Bakı: Hərbi nəşriyyat, – 2017. – 114 s.

## Аннотация
## Эффективность правильного использования со времени и математического моделирования

**Гейдар Пириев, Ариф Гасанов, Арзуман Гасанов**

В статьи рассматривается важность времени для общества и жизни человека, и затронуты вопросы его эффективного использования. Также проанализированы мысли ученых о важности времени, решена и построена простая математическая модель определения использования полезной части времени в жизни человека.

**Ключевые слова:** время, календарь, день, месяц, математический модель

**Abstract**

**Efficiency of the correct usage from the time and mathematical modeling**

**Heydar Piriyev, Arif Hasanov, Arzuman Hasanov**

In the article importance for life of society and man of the time explained and have been touched to problem of efficient usage from time. Thoughts of the scientists about importance of the time analyzed and man simple mathematical model of the determining of the expenditure part been built and have been solved.

**Keywords:** time, calendar, day, month, mathematical modeling

*Məqalə redaksiyaya daxil olmuşdur: 26.12.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 06.01.2023*
*Çapa qəbul edilmişdir: 09.01.2023*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№4/2022, səh. 15-20**
***HƏRBİ NƏZƏRİ ELMLƏR*** ***MILITARY THEORETICAL SCIENCES***

UOT 355/359

# SİLAHLI KONFLİKTLƏRDƏ TAKTİKİ HAVA DESANTININ TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

**polkovnik Fuad Ələkbərov**
*Hərbi İdarəetmə İnstitutu*
E-mail: fuadalakbarof@gmail.com

***Xülasə.*** Məqalədə müasir müharibə və silahlı konfliktlərdə, xüsusən mənbə xarakteri daşıyan müdafiəyə qarşı hücumda taktiki hava desantının tətbiqi məsələləri araşdırılır. Nüfuzedici hücum əməliyyatlarında taktiki hava desantının tətbiqi nəticəsində əldə edilmiş müsbət və mənfi təcrübə ümumiləşdirilərək onun döyüş düzülüşü elementlərinin istifadə qaydaları müəyyənləşdirilir.

**Açar sözlər:** nüfuzedici hücum, taktiki hava desantı, dağlıq ərazi, qanunsuz silahlı birləşmələr, bloklama

## Giriş

Dünyada və regionda hərbi-siyasi vəziyyət, Ermənistanın son zamanda uğradığı məğlubiyyət və işğal etdiyi ərazilərin itirilməsi ilə barışmayaraq, imzalanmış razılaşma tələblərinə qeyri-konstruktiv mövqedən yanaşması və müxtəlif yollarla bəyanatın tələblərinin yerinə yetirilməsi prosesinin uzadılması cəhdlərindən əl çəkməməsi bir daha sübut edir ki, yalnız müasir tələblərə cavab verən Silahlı Qüvvələr dövlətin təhlükəsizliyi, suverenliyi və ərazi bütövlüyünün qarantı qismində çıxış edə bilər.

Eyni zamanda qeyd etmək lazımdır ki, müasir müharibədə qələbənin qazanılmasının yeganə yolu – təcavüzkara qarşı irimiqyaslı hücum əməliyyatını aparmaq və ona sarsıdıcı zərbələr endirməkdir.

Napoleon Bonapart demişdir: *"Ancaq hücum qələbəni təmin edir. Mən yalnız düşmən qoşunlarının kütləsini görürəm, onları darmadağın etməyə çalışıram, əminəm ki, bununla da hər şey dağılacaqdır"*.

Bu gün Azərbaycan Ordusunun qarşısında duran əsas vəzifə istənilən an aqressiyanın qarşısını almağa və düşməni darmadağın etmək üçün onun üzərinə qətiyyətli hücuma keçməyə daim hazır olmaqdır.

## Hücumda taktiki hava desantlarının tətbiqi

Bir sıra rəhbəredici sənədlərdə "hücum" sözünün mənası ümumi olaraq belə açıqlanır: "Hücum – birləşmə, hissə və bölmələrin taktiki fəaliyyətlərinin əsas növlərindən biridir.

Hücum düşməni darmadağın etmək və əhəmiyyətli rayonları (hədləri, obyektləri) ələ keçirmək məqsədilə keçirilir" [1, s.117].

Ordu və korpusların hücumu düşmənə yenidən qruplaşmağa və müdafiəni davam etdirməsinə imkan vermədən, gözlənilməyən bir istiqamətdən və fərqli (qeyri-ənənəvi) tərzdə keçirilən hücumla onun döyüş düzülüşünü pozmaq və qruplaşmasına fürsət vermədən əldə edilən üstünlükdən sürətlə faydalanmaqla icra edilir [2, s.91].

Məlum olduğu kimi, düşmən müdafiəsinin hazırlıq dərəcəsindən, onun döyüş tərkibi və fəaliyyət xarakterindən, ərazinin xüsusiyyətlərindən və alınmış döyüş tapşırığından asılı olaraq hücum döyüşündə iki əsas fəaliyyət üsulu tətbiq oluna bilər: ardıcıl hücum və nüfuzedici hücum.

"Nüfuzedici hücum" termini XX əsrin sonu – XXI əsrin əvvəllərində aparılan lokal konflikt və regional müharibələrin gedişində yaranmışdır. Bu qarşıdurmaların ən xarakterik xüsusiyyətlərindən biri odur ki, qoşunlar tərəfindən səylərin cəmləşdirmə, əsas zərbələrin endirmə istiqamətləri tez-tez dəyişilir. Təcrübə göstərir ki, xüsusən dağlıq şəraitdə yüksək effektli silah və vasitələrlə silahlanmış qoşun bölmələri əksər hallarda müdafiəni klassik üsulla yarmayacaq. Daha çox müdafiənin zəif yerləri axtarılacaq və ya möhkəmləndirilmiş rayonları yandan keçəcək, təhlükəli və ehtimal olunan istiqamətlərdə vaxtında qüvvələri artırmaq məqsədilə cəbhə üzrə manevr edəcəklər.

Müdafiənin klassik mənada yarılması, gələcək müharibələrdə, çox böyük ehtimalla keçirilməyəcək. Bu prinsip hətta "Dəmir Yumruq" əməliyyatında tam olaraq öz təsdiqini tapmışdır. Bunun səbəbi yarma qüvvələrinin əsasını təşkil edən tanklar müasir tank əleyhinə vasitələrlə qarşılaşmalı olacaq ki, belə qarşılaşmanın böyük əksəriyyətində ikinci tərəf üstün gələcək. Tank və digər zirehli vasitələrdən əsasən uğurun inkişaf etdirilməsi, çevik manevrin keçirilməsi və döyüşün gedişində şəxsi heyətin qorunmasını təmin etmək üçün istifadə ediləcək. Eyni zamanda, dağlarda döyüş toqquşmaları çox vaxt əsas qüvvələrdən uzaqlıqda və çətin keçilən ərazilərdə baş verir. Bu baxımdan bölmələrin taktiki və atəş müstəqilliyini yaratmağa zərurət yaranır. Şimali Qafqazda baş vermiş silahlı münaqişələrin təcrübəsini nəzərə alsaq, deyə bilərik ki, bu tapşırıqlar funksional təyinatına görə (reyd, kəşfiyyat, həmlə, axtarış və s.) birgə taktiki qrupların yaradılması üsulu ilə həll olunurdu.

Beləliklə, dağlıq ərazilərdə müasir döyüşün göstərilən tələb və prinsiplərinə ən çox cavab verən hücum üsulu – nüfuzedici hücumdur. Ümumiyyətlə, bir neçə rəhbəredici sənəddə "nüfuzedici hücum" anlayışı belə açıqlanır: "**Nüfuzedici hücum üsulu** – tələsik müdafiəyə keçən düşmənin hazırlıqsız müdafiəsinə qarşı və kəskin relyefli, dağlıq ərazilərdə müdafiənin mənbə xarakteri daşıdığı hallarda (müdafiədə ara boşluqları olduqda) tətbiq olunur. Bu üsulda briqadanın bölmələri təyin edilmiş ayrı-ayrı cavabdehlik rayonlarında yandankeçmə, reyd və təcridetmə fəaliyyətlərindən geniş istifadə etməklə müstəqil şəkildə hücuma keçir və düşmən müdafiəsinin bütün dərinliyi boyu onun bölmələrinə cinahlardan və arxadan həmlələr edərək onları darmadağın edirlər" [1, s.117].

Bir qayda olaraq, dağlıq ərazidə hücum fəaliyyətləri müxtəlif istiqamətlər üzrə, vadilər, yollar və silsilələr boyu aparılır. Fəaliyyətin təşkili düşmənin atəş nöqtələrinin, atəş sektorları və onlar arasında ölü zonaların müəyyənləşdirilməsi ilə başlanır. Əlavə olaraq, örtüklərin, sığınacaqların vəziyyəti, düşmənin dayaq məntəqələri arasında qarşılıqlı atəş şəraiti, müdafiənin qarşısında maneələr sisteminin mövcudluğu və onun dəfetmə dərəcəsi dəqiqləşdirilir. Hücum edən birliklərin döyüş düzülüşünün quruluşu bəzi bölmələrin döyüşərək əsas qüvvələrdən uzaqlaşmasını nəzərə alınmaqla təşkil olunmalıdır.

Dağlıq ərazidə döyüş kontaktının dinamikasını proqnozlaşdırmaq çox çətindir. Bu səbəbdən güclü ehtiyatların mövcudluğu olduqca vacibdir. Amerikalı mütəxəssislər hücum fəaliyyətlərinin keçirilməsində arxaya və ya cinahlara zərbələrin endirilməsi üçün üstünlüyü düşməni yandankeçmə üsuluna verirlər. Bununla belə, hərbi mütəxəssislər qeyd edirlər ki, dağlıq ərazidə aeromobil və desant bölmələrinin rolu əvəzolunmazdır. Bu bölmələr əməliyyat dərinliyinə endirilərək asanlıqla döyüş fəaliyyət rayonunu təcrid edə və düşmən ehtiyatlarının yaxınlaşmasının qarşısını ala bilirlər [1, s.141-142].

Yuxarıda göstərilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, nüfuzedici hücumda müvəffəqiyyət qazanılmasının əsas yollarından biri taktiki hava desantlarının, reyd, yandan keçən və ön dəstələrinin geniş tətbiq edilməsidir. Göstərilən döyüş düzülüşü elementlərinin son müharibələrdə yaradılması, hazırlanması, təchiz edilməsi və nəhayət, istifadəsi barədə təlimat, nizamnamə, periodik nəşrlər və internet resurslarında olduqca çox material mövcuddur.

**Nüfuzedici hücumda taktiki hava desantının yerinə yetirdiyi tapşırıqlar, ehtimal olunan tərkibi və fəaliyyət xarakteri.**

Dağlarda fəaliyyət zamanı taktiki hava desantı böyük rol oynayır. Ona aşırımlar, dağ keçidləri, yol qovşaqları və düşmənin əhəmiyyət daşıyan obyektlərinin ələ keçirilməsi və saxlanması üzrə tapşırıqlar həvalə olunur. Düşmənə eyni zamanda təsirgöstərmə dərinliyinin artırılma vasitəsi olaraq, taktiki hava desantı müəyyən rayonların təcrid edilməsini təmin edir, həmçinin düşmən ehtiyatlarının irəliləməsinin qarşısını alır. Bundan əlavə, taktiki hava desantı düşmənin qoşunları və silahları idarəetmə sisteminin və təminatının pozulması üzrə tapşırıqları yerinə yetirir.

Desantın tərkibi müxtəlif olur. Əhəmiyyətli obyektin ələ keçirilməsi üçün paraşüt-desant və motoatıcı tabor ayrıla bilər.

Taktiki hava desantı tətbiq olunduqda motoatıcı birliklərin desantendirmə rayonuna çatdırılması üçün birliyə vertolyot bölməsi ayrılır. Desantın döyüş tapşırığını və onu uçuşunun təmin edilməsi qaydalarını birlik komandiri təyin edir. Bu zaman desantın döyüş fəaliyyətləri rayonunda düşmənə atəşlə

zərərvurma, uçuş zolağında və ona bitişik rayonlarda düşmənin HHM vasitələrinin susdurulması, desant üçün başlanğıc rayonda, uçuş zamanı və döyüş tapşırığını yerinə yetirərkən desantın havadan qorunması və desantın fəaliyyətinin təmin edilməsi üzrə digər tapşırıqlar müəyyən edilir.

**Taktiki hava desantının** döyüş tapşırığı desantendirmə rayonunda düşməni, göstərilmiş obyekti məhv etməkdən (sıradan çıxarmaqdan) və ya rayonu (həddi) tutub saxlamaqdan, növbəti rayona keçərək orada döyüş tapşırıqlarını yerinə yetirməkdən ibarətdir. Ehtiyac olduqda, desant bölmələrinə döyüş tapşırığını yerinə yetirdikdən sonra toplanma rayonu göstərilir [1, s.170].

**Taktiki hava desantı** birliklərinin əməliyyatı döyüşən birlikləri lazımi təchizatı ilə birlikdə Quru Qoşunları komandirinin rəhbərliyi altında quruda həyata keçiriləcək döyüşə başlamaq üçün döyüş meydanı sahəsinin hər hansı bir yerinə vertolyot vasitəsilə çatdırılmasıdır [2, s.177].

**Desantendirmənin dərinliyi** (desantendirmənin əvvəlindən təmas xəttində qədər) və **döyüş fəaliyyətinin aparması müddəti** ola bilər: tabor üçün – 30 km dərinliyədək və 5 saatdan bir günə qədər müddətdə; bölük üçün – 10 km dərinliyədək və 3 saata qədər müddətdə [1, s.171].

Taktiki hava desantı birbaşa obyektin üzərinə və ya ondan bir qədər aralıda, düşmənin atıcı silahlarının, döyüş maşınları və tank əleyhinə vasitələrinin təsir zonasından kənarda endirilir (bir qayda olaraq, vertolyotdan enmə üsulu ilə). Döyüş və nəqliyyat-döyüş vertolyotları desantendirmənin atəşlə dəstəklənməsindən sonra ya cəbhə xəttinin arxasına qayıda bilər, ya da desantın sonrakı döyüş fəaliyyətlərini atəşlə dəstəkləmək məqsədilə desantendirmə rayonunda qala bilər. Nəqliyyat vertolyotları da himayə qrupu vertolyotlarının müşayiəti ilə cəbhə xəttinin arxasına qayıda bilər və ya desantendirmə rayonunda qalıb desantın qaytarılması, güc və vasitələrlə manevrin keçirilməsi, yaralıların təxliyə edilməsi, döyüş sursatı, yanacaq və digər maddi vəsaitlərin çatdırılmasında istifadə oluna bilər [1, s.172].

Qovuşuqları və açıq cinahları təmin etmək üçün nəzərdə tutulur: ümumqoşun ehtiyatı, tank əleyhinə ehtiyat və səyyar maneəqurma dəstəsinin manevrləri; aviasiya zərbələri və artilleriya atəşləri; döyüş mühafizəsi bölmələrinin ardıcıl surətdə təhlükəli istiqamətlərə çıxarılması və irəli hərəkət etdikcə onların götürülməsi. Aşırımda düşmənin müdafiə mövqelərinə həmlə zamanı əsas hakim yüksəkliyin ələ keçirilməsi, sonradan isə cinahlardan həmlə ilə yəhərdə qalan mövqelərin ələ keçirilməsi tövsiyə olunur [1, s.173].

Desanta verilmiş tapşırığın icrası düşmən ehtiyatlarının darmadağın edilməsi, təyin edilmiş rayonun (obyektin, həddin) ələ keçirilməsi və təcrid olunmuş rayonlarda düşmənin məhv edilməsi ilə başa çatır. Zəruri olduqda, verilmiş tapşırığın icrasının başa çatdırılması marağında yuxarı komandanlığın güc və vasitələri ilə tək atəş zərbəsi vurula bilər [1, s.174].

Taktiki hava desantı birliklərinin əməliyyatı diqqətli şəkildə planlama, cəsarətlilik və qısa müddət ərzində icraedilmə ilə xarakterizə edilir. Bu birliklərin əməliyyatının əsas xüsusiyyəti, düşmənə nisbətən taktiki fəaliyyət qabiliyyətinin üstünlüyünü təmin etmək üçün vertolyotlardan istifadə edilməsidir [2, s.177].

Taktiki hava desantının tətbiqinin nəticələrini Rusiya Federasiya Silahlı Qüvvələrinin Çeçenistan Respublikasının ərazisində fəaliyyət göstərən qanunsuz silahlı birləşmələrə (QSB) qarşı apardığı döyüşlərdəki nümunələrlə nəzərdən keçirək. 1995-ci ilin may-iyun aylarında Rusiya Federasiya Silahlı Qüvvələrinin Birləşmiş qoşun kontingentinin (BQK) Çeçenistanın dağlıq rayonlarında keçirilmiş hücum əməliyyatında taktiki hava desantının uğurla tətbiqini nümunə kimi göstərmək olar. Belə ki, 1995-ci il mayın əvvəlindən BQK hissə və bölmələri Qudermes, Şali, Novıye Ataqi, Germençuk yaşayış məntəqələrində bloklamanı davam edərək Böyük Qafqaz silsiləsinin yamaclarında qanunsuz silahlı birləşmələrin darmadağın edilməsi üzrə tapşırıqlarını yerinə yetirməyə başlayırlar (Şəkil).

Yaranmış əməliyyat şəraiti ilə əlaqədar BQK-nın komandanı qərar qəbul edir: 3 iyun səhərindən müxtəlif növ zirehli texnika, piyada və taktiki hava desantı ilə tutulmuş rayonlardan MAXKETI, ELISTANJI, VEDENO, XARAÇOY istiqamətində hücum fəaliyyətlərinə başlayaraq, taktiki hava desantının tətbiqi ilə düşməni maksimum itkiyə məruz qoyaraq VEDENO yaşayış məntəqəsini bloklasın. Sonradan hakim yüksəklikləri və fəaliyyət zolağında mühüm obyektləri ələ keçirməklə qanunsuz silahlı birləşmələrin Çeçenistan Respublikasının düzənlik rayonlarına çıxmasının və cənuba çəkilməsinin qarşısını alsın [3, s.7].




**Rusiya Federal Qüvvələrinin Birləşmiş Qruplaşmasının 1995-ci ildə Çeçenistan Respublikasının dağ rayonlarında qanunsuz silahlı birləşmələrə qarşı apardığı xüsusi əməliyyatın gedişi (4-cü mərhələ: fevralın ortaları – iyunun ortaları)**

**Şəkil. Əməliyyatın sxemi**

3 iyuna keçən gecə paraşüt-desant bölmələri atəşlə zərərvurma nəticələrindən faydalanaraq düşmən üzərinə həmləyə keçir və səhərə yaxın ELİSTANJİ yaşayış məntəqəsinin şimal və cənub ətraflarını ələ keçirərək hakim yüksəkliklərə səkkiz blok-post çıxarırlar. 3 iyun səhərindən 7-ci hava-desant diviziyasının paraşüt-desant taborunun bir hissəsi taktiki hava desantının tərkibində (TakHD № 1 altı ədəd Mi-24 vasitəsilə 178 nəfər şəxsi heyət endirilmişdir) saat 15:00-dək səkkiz blok-post şəklində müdafiə mövqeyi tutaraq VEDENO yaşayış məntəqəsinin 5 km cənubunda hakim yüksəklikləri ələ keçirir. Bununla da düşmənin cənub və cənub-qərb istiqamətlərində ehtimal olunan geriyəçəkilmə yolları bağlanır. Qeyd etmək lazımdır ki, düşmən desantın endirilməsindən yalnız 1,5 saatdan sonra təsir göstərə bilmişdir. 245 maa TakHD-nın uğurlu fəaliyyətindən faydalanaraq ELİSTANJİ, OKTYABRSKİY istiqamətində hücuma keçir, döyüşün gedişində düşmənin ELİSTANJİ yaşayış məntəqəsinin şimal kənarından əks-həmlənin qarşısını alır və günün sonuna səkkiz dayaq məntəqəsini tutaraq şimal-şərq istiqamətində VEDENO, DIŞNE-VEDENO rayonlarını bloklamaya nail olur.

10 iyun saat 09:00-dan etibarən 7 hdd paraşüt-desant taborunun iki qrupu (TakHD № 2 və TakHD № 3) ŞATOY yaşayış məntəqəsinin müvafiq olaraq 6 və 12 km uzaqlığında olan rayonlarında endirildikdən sonra həmin rayonların istehkam hazırlığı işlərinə başlamışdır. TakHD № 2 (tərkibi 49 nəfər) düşmənin manevr yollarının bağlanması və əsas qüvvələr qruplaşmasının ŞATOY yaşayış məntəqəsinə çıxmasını təmin etmək tapşırığı ilə beş ədəd Mi-8 vertolyotla çıxarılmışdır. TakHD № 3 (tərkibi 33 nəfər) düşmənin ŞATOY və MALIYE VERANDI yaşayış məntəqələri arasında manevr yollarının bağlanması, bununla da onun şimal-qərb istiqamətində geri çəkilməsinin və ehtiyatların ŞATOY yaşayış məntəqəsinə yaxınlaşmasının qarşısının alınması tapşırığı ilə üç ədəd Mi-8 vertolyotla çıxarılmışdır. Qeyd etmək lazımdır ki, TakHD № 3 döyüş tapşırığını müstəqil olaraq 3 – 5 sutka yerinə yetirmişdir. 245 maa və 7 hdd paraşüt-desant taboru günün sonuna tutduqları rayonlarda qarşıdakı döyüş fəaliyyətlərinə hazırlıqlarını başa çatdırmışdır [3, s.11].

Bu şəraitdə BQK-nın komandanı əvvəlcədən qəbul olunmuş qərarını dəqiqləşdirir və qərara alır:

11 iyun səhərindən atəşlə zərərvurma nəticələrindən faydalanaraq qruplaşmanın hissə və bölmələri ilə, TakHD tətbiq etməklə ŞATOY istiqamətində hücumu davam etdirmək və günün sonuna ŞATOY yaşayış məntəqəsini qərb və cənub-qərb istiqamətlərindən bloklamaq. Lakin döyüş fəaliyyətlərinin gedişində ŞATOY yalnız 13 iyun gününün sonuna bloklanmışdır.

11 iyun saat 20:00-dan saat 20:30-dək paraşüt-desant taboru tərkibindən ŞATOY yaşayış məntəqəsindən 4,5 km şimal-şərqə on bir ədəd Mi-8 vertolyotu ilə bir uçuşa TakHD № 4 (tərkib 96 nəfər) endirilmişdir. Həmin desant saat 23:00-dan etibarən QSB-nin həmlələrini dəf edərək ŞATOYun şimal-şərq kənarlarında cəbhəboyu eni 3 km-dək olan üç dayaq məntəqəsini (blok-postunu) müdafiə etmişdir [3, s.17].

12 iyun gün ərzində 324 maa qüvvələrin bir qismi ilə ZONİnin qərb kənarını əldə saxlamaqla ŞATOY istiqamətində 245 maa-nın döyüşə yeridilməsini təmin etmişdir.

245 maa-nın ön dəstəsi BOLŞİYE VERANDI istiqamətində fəaliyyət göstərərək 12 iyun gününün sonuna BOLŞİYE VERANDI yaşayış məntəqəsini bloklayaraq, alay tapşırığın (ŞATOY yaşayış məntəqəsinin şimala 2–2,5 km uzaqlıqda olan rayonunun ələ keçirilməsi) yerinə yetirilməsini təmin etmişdir.

TakHD № 4 gücləndirilməsi məqsədilə 12 iyun tarixdə saat 17:20-dən saat 19:20-dək həmin rayona günün sonuna şimaldan, şimal-şərqdən və şərqdən ŞATOY yaşayış məntəqəsini bloklayaraq, 245 maa və 104 hdd-nın paraşüt-desant alayı ilə qarşılıqlı fəaliyyətdə onu ələ keçirmək tapşırığı ilə doqquz ədəd Mi-8 vertolyotu ilə TakHD № 5 (tərkib 115 nəfər) çıxarılmışdır.

324 maa altı sutka ərzində (13 – 18 iyun) istehkam cəhətdən hazırlanmış dayaq məntəqələrində, uzunmüddətli atəş nöqtələrində müdafiə olunan, həmçinin pusquları geniş tətbiq edən düşmənin şiddətli müqavimətini dəf edərək, ZONİ yaşayış məntəqəsinin qərb kənarında silahlı qrupları bloklamağı və məhv edilməsini davam edirdi. Yalnız 19 iyun səhərinə alayın bölmələri paraşüt-desant taborunun bir qismi ilə bloklama əməliyyatını, saat 17:00-da isə yaşayış məntəqəsinin düşməndən azad edilməsini başa çatdırdı.

ZONİ yaşayış məntəqəsinin nəzarətə keçirilməsi ilə federal qüvvələr ŞATOY istiqamətində döyüş fəaliyyətlərinin məqsədinə nail oldular. Çeçenistan Respublikasının dağ rayonlarında qanunsuz silahlı birləşmələrin manevr imkanları məhdudlaşmış, onların canlı qüvvə və texnikasına ciddi zərər vurulmuşdur.

Beləliklə, 1995-ci ilin may–iyun aylarında aparılmış döyüş fəaliyyətləri nəticəsində qanunsuz silahlı birləşmələr böyük itkilərə məruz qalaraq tamamilə darmadağın olunmaq təhlükəsi ilə üzləşirlər. Döyüş qabiliyyətini itirməyən azsaylı qruplar respublikanın şərq və qərb rayonlarına çəkilməyə məcbur olurlar. Birləşmələrin vahid və davamlı idarəedilməsi pozulur. Silahlılar müqavimətin mənasızlığını başa düşərək qanunsuz silahlı birləşmələrin dəstələrini tərk etməyə başlayırlar.

Çeçenistan Respublikasının dağ rayonlarında qanunsuz silahlı birləşmələrin tərk-silah edilməsi üzrə keçirilən əməliyyatın niyyəti bütövlükdə məqsədəuyğun və yaranmış şəraitə görə düzgün olmuşdur. Lakin qeyd etmək lazımdır ki, komandanın niyyətində güclü ehtiyatın yaradılması nəzərə alınmamışdı. Bu nöqsan döyüşlərin gedişinə öz mənfi təsirini göstərmişdir.

Eyni zamanda, Çeçenistan Respublikasının dağ rayonlarında Rusiya Federal Qoşunları tərəfindən 1995-ci ilin may–iyun aylarında keçirilən əməliyyatda taktiki hava desantlarının geniş tətbiqi əməliyyatın uğurla başa çatdırılmasının əsas amili olmuşdur.

## Nəticə

Müasir dövrdə aparılan silahlı münaqişə, konflikt və lokal müharibələrdə taktiki hava desantının rolu döyüş düzülüşünün əvəzolunmaz elementi kimi daim artmaqdadır. Burada qeyd etmək lazımdır ki, döyüş tapşırıqlarının yerinə yetirilməsinin gedişində birlikdən ardıcıl olaraq müxtəlif və əhəmiyyətli istiqamətlərə bir neçə taktiki hava desantının çıxarılması ilə müdafiənin istər taktiki, istərsə də əməliyyat davamlılığını təmin etmək düşmən üçün böyük çətinlik yaradır.

Taktiki hava desantı tapşırıqlarının uğurla yerinə yetirilməsi bir çox amillərdən asılıdır. Burada bütün səviyyələrdən olan komandirlərin üzərinə desant əməliyyatlarının planlaşdırılması, hazırlanması və icrası mərhələlərində böyük məsuliyyət düşür. Taktiki hava desantının gələcək fəaliyyətlərinin təmin edilməsi üçün komandirlərin (rəislərin) qarşısında bir sıra ciddi tələblər durur. Komandir düşmənin vaxtlı-vaxtında və dəqiq kəşfini, desant əməliyyatında iştirak edən bütün bölmələrin gizli hazırlığını, aralarında mükəmməl qarşılıqlı fəaliyyəti, desantçıxarma üçün çıxış rayonunun düşmən kəşfiyyatından etibarlı mühafizəsini təmin etməlidir. Yalnız bu şərtlərə ciddi riayət olunmaqla taktiki hava desantının müxtəlif taktiki fəaliyyətlərdə, xüsusən nüfuzedici hücumun aparılması zamanı müsbət nəticələrə nail olmaq mümkündür.

### İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Quru Qoşunlarının taktiki fəaliyyətləri üzrə döyüş təlimatı I hissə; 5-ci fəsil / – Bakı: Hərbi nəşriyyat, – 2015.
2. "Ordu və korpus əməliyyatı (böyük hərbi birləşmələr)" / QQT 100 – 15 / – Bakı: Hərbi nəşriyyat, – 2021.
3. "Блокнот Снайпера" ©2000, 2001 HPBT Inc. «Особенности подготовки и ведения боевых действий в горных районах Чеченской Республики».

**Аннотация**
**Применение тактических воздушных десантов в наступлении**
**Фуад Алекберов**

В статье рассматривается применение тактических воздушных десантов в современных войнах и вооружённых конфликтах, в особенности при ведении наступления на оборону, имеющую очаговый характер. Также на основе положительного и отрицательного опытов применения тактических воздушных десантов при проникающем (вклинивающем) характере наступления определяются основные правила использования данного элемента боевого порядка.
**Ключевые слова:** проникающее (вклинивающееся) наступление, тактический воздушный десант, горная местность, незаконные вооружённые формирования, блокирование

**Abstract**
**Features of the application of tactical airborne troops in armed conflicts**
**Fuad Alakbarov**

The article deals with the use of tactical airborne assault forces in modern wars and armed conflicts, especially when introducing an offensive on a defense, that has a focal character. And also defines the basic rules for the use of this element of the battle order on the basis of positive and negative experience in the use of tactical airborne assault forces with a penetrating nature of the offensive.
**Keywords:** penetration attack, tactical air landing, mountainous area, illegal armed formations, blocking

*Məqalə redaksiyaya daxil olmuşdur: 10.01.23*
*Təkrar işlənməyə göndərilmişdir: 16.01.2023*
*Çapa qəbul edilmişdir: 18.01.2023*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№4/2022, səh. 21-27**
***HƏRBİ NƏZƏRİ ELMLƏR*** ***MILITARY THEORETICAL SCIENCES***

UOT 355/359

# QOŞUNLARIN TOPOGEODEZİYA TƏMİNATINDA PUA-NIN TƏTBİQİ. İSTİFADƏ TƏCRÜBƏSİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**e.o. polkovnik Cabir Sultanov,**
**i.o. polkovnik-leytenant Çingiz Vəliyev**
*Hərbi İdarəetmə İnstitutu*
E-mail: cabir.sultan@mail.ru

***Xülasə.*** Məqalədə pilotsuz uçuş aparatlarının (PUA-nın) Azərbaycan Ordusunda qoşunların idarə olunmasında rolundan bəhs edilir. PUA-lar 2020-ci il Vətən müharibəsində Azərbaycanın Ermənistan üzərində qələbə qazanmasında mühüm rol oynamışdır. İkinci Qarabağ müharibəsi zamanı döyüşçülərimiz PUA-dan kəşfiyyat aparmaq, raket və artilleriya bölmələrini hədəfə yönəltmək, əməliyyat şəraiti haqqında dolğun məlumat əldə etmək üçün istifadə edirdilər. Bunun ən bariz nümunəsi olaraq, döyüşlərin ilk günlərində dronlardan alınan məlumatların əla koordinasiyası sayəsində erməni silahlı qüvvələrinin Xocavənddəki HHM sistemlərinin dəqiq atəşlə məhv edilməsini misal göstərmək olar.

**Açar sözlər:** peyk naviqasiya sistemi (GPS), pilotsuz uçuş aparatı, girotənzimləyici qurğu (giroplatforma), aerofotoçəkiliş, soyuq müharibə

Məsafədən idarəolunan aviasiyanın yaradılması üzrə aktiv tədqiqat işləri Birinci Dünya müharibəsinin iştirakçı dövlətləri tərəfindən aparılmağa başlanmış, lakin ilk təcrübələr müvəffəqiyyətsizliklə bitmişdir. Buna baxmayaraq 1920-ci ildə Almaniyada məsafədən naqillə idarəolunan və 1000 kq yükqaldırma qabiliyyətinə malik ilk planer yaradılmışdır.

Təcrübələrin davam etdirilərək İkinci Dünya müharibəsinin gedişində də aparılmasına baxmayaraq, texnologiyada əhəmiyyətli irəliləyiş əldə edilməmişdir. 1945-ci ildən sonra ABŞ hərbi sənayesi bütün diqqətini məsafədən idarəolunan raket və aviabombaların yaradılmasına yönəltmiş, dron ideyasına isə yalnız 60-cı illərdə qayıtmışdır.

Soyuq müharibə ABŞ-da kəşfiyyatçı PUA-nın yaradılması üzrə aparılan işlərə güclü təkan vermiş və 1962-ci ildə onların kütləvi istehsalına başlanılmışdır. 60-cı illərin sonunda ilk pilotsuz vertolyot (helikopter) yaradılmışdır. Dronlar Vyetnam müharibəsi zamanı aktiv istifadə olunmuş və çox effektiv olduğunu sübut etmişdir.

Peyk Naviqasiya sisteminin (GPS) inkişafı PUA-nın istehsalı və istifadəsində başlıca rol oynadı. Doxsanıncı illərdən başlayaraq PUA-dan kəşfiyyat, müşahidə və hədəfgöstərmə üçün aktiv şəkildə istifadə olunur. Bu gün dünyanın 52 ölkəsində PUA-lar istehsal olunur. Onlarla böyük müəssisə və kiçik firmalar bu bazarda rəqabət aparır.

ABŞ və İsrailin apardığı döyüş əməliyyatları (Fars körfəzi, Yuqoslaviya, Yaxın Şərq, Ərəb-İsrail müharibəsi) gedişində PUA-lardan geniş və müvəffəqiyyətlə istifadə etməsi bütün dünyada pilotsuz aviasiyanın inkişafına böyük stimul verdi.

Azərbaycan İkinci Qarabağ müharibəsində taktiki silah olan pilotsuz uçuş aparatlarını əməliyyat və strateji səviyyədə çox effektiv şəkildə istifadə etmişdir.

Bugünkü mərhələdə Azərbaycan Ordusunda topoqrafiya xidmətinin əsas tapşırıqlarını şərti olaraq dörd qrupa bölmək mümkündür:

– Azərbaycan Ordusunun və təyin olunmuş qaydada digər qoşunların, hərbi birləşmələrin və təşkilatların topogeodeziya təminatı tapşırıqlarını həyata keçirmək;

– respublikada xüsusi təyinatlı geodeziya, topoqrafiya və xəritəçəkmə işlərini yerinə yetirmək;

– qoşunların daimi döyüş və səfərbərlik hazırlığının, onların gündəlik fəaliyyətinin topogeodeziya təminatını yerinə yetirmək;

– zəruri ehtiyatların yaradılması, qoşunların rəqəmsal və ənənəvi formada olan topogeodeziya məlumatları vasitələri ilə, ilkin astronomik məlumatlarla təmin edilməsi, onların qeydiyyatı, eləcə də istifadə olunmasına nəzarəti həyata keçirmək.

Sülh dövründə təlim və xüsusi əməliyyatların keçirilməsi, həmçinin artan hərbi təhlükə zamanı qoşunları təmin etmək üçün əvvəlcədən topoqrafik xəritələr və şəhər planlarının yaradılması, yenilənməsi topogeodeziya təminatının əsas tapşırıqlarından biridir. Hərbi fəaliyyətlərin gedişi zamanı xüsusi xəritələrin, fotosənədlərin və ərazi modellərinin yaradılması, hədəflərin koordinatlarının təyin edilməsi, raket və artilleriya qoşunlarının döyüş düzülüşü elementlərinin bənd edilməsi və s. kimi tapşırıqlar da buraya əlavə olunur [1].

Göstərilən tapşırıqları həll etmək üçün ilkin məlumatlar qismində, effektiv görünüşlü məkan (fəza) imkanlarına malik, həndəsi cəhətdən dəqiq çəkilmiş materiallar lazımdır. Bu cür materialları pilotsuz uçuş aparatlarına (PUA) quraşdırılmış hava fotoqrafiya kompleksləri ilə daha çevik əldə etmək mümkündür.

Kosmik gəmilərdən və idarəolunan hava vasitələrindən istifadə edərək məlumat əldə etmək kimi iki ənənəvi üsulun çatışmazlıqları PUA-ların aerofotoçəkilişlər üçün yeni bir vasitə kimi istifadə edilməsini ön plana çıxarır.

Yerin şəklinin kosmik vasitələrlə məsafədən çəkilməsi, ilkin materialların alınması və işlənməsi prosesinə çox vaxt sərf edildiyinə görə çeviklik tələblərinə cavab vermir. Havadan şəkilçəkmə komplekslərinin istifadəsi, bütün lazımi infrastrukturla təchiz olunmuş aerodromlardan istifadə edilməsinin zəruriliyini, habelə təyyarənin bir aerodromdan digərinə köçürülməsini və tapşırığın yerinə yetirilməsi üçün onun hazırlanmasını tələb edir. Bundan əlavə, kiçik obyektlərin və balaca sahələri olan ərazilərin çəkilməsi zamanı aviasiya komplekslərinin istifadəsi səmərəli olmaya bilər. Bu halda işin təşkilinə sərf olunan iqtisadi və vaxt göstəriciləri böyük ərazilərin çəkilişinə lazım olan analoji göstəriciləri (xüsusilə, aerodromdan xeyli uzaqda yerləşən obyektlər üçün) xeyli üstələyir.

Beləliklə, PUA-ların aerofotoçəkiliş vasitəsi kimi istifadə edilməsinin üstünlükləri aşağıdakılardır:
– iqtisadi cəhətdən səmərəli olması (gəlirlilik);
– aşağı hündürlükdən çəkiliş və nəticədə yüksək məkan dəqiqliyi olan şəkillər əldə etmək imkanı;
– hava çəkilişlərinin hazırlanması və aparılmasının çevikliyi (Şəkil 1);
– pilotların həyat və sağlamlığını riskə atmadan təyinatı üzrə istifadə etmək imkanı;
– kiçikhəcmli yüklərin daşınması (Şəkil 2).




**Şəkil 1. Pilotsuz uçuş aparatı**

PUA-ların vahid hava məkanına inteqrasiya edilməsi üçün normativ-hüquqi bazanın olmaması aerofotoçəkiliş ehtiyacları üçün PUA bazarının inkişafını əngəlləyir. Bu səbəbdən də tənzimləyici normativ-hüquqi bazanın yaradılmasını gözləmədən xüsusi səlahiyyətlərə malik strukturlar tərəfindən

pilotsuz sistemlər alınır (Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti).

PUA-ların istifadəsinə maneə törədən başqa bir amil də PUA-nın qəza nisbətinin yüksək olmasıdır. Hal-hazırda PUA-larda maneələrin tanınması və toqquşmanın qarşısını almaq sistemi yoxdur, əlavə olaraq, bəzi modellər bir o qədər də mükəmməl olmayan avtopilotlarla təchiz olunmuşdur.

PUA-lar vasitəsilə aerofotoçəkiliş aparma texnologiyası əsasən inkişaf etmişdir. Hazırda hava kəşfiyyatı və müşahidə üçün nəzərdə tutulmuş və istifadə olunan PUA-ların əksəriyyəti foto və video avadanlıqlarla təchiz edilmişdir.

Hər şeydən əvvəl, xəritəçəkmə məqsədləri üçün aerofotoçəkilişlərin həyata keçirilməsi zamanı istifadə olunan PUA mükəmməl bir avtopilota malik olmalıdır. Bu avtopilot aparatın kütləsinin az olmasına baxmayaraq, çəkiliş parametrlərini (marşrut, kameranın əyilmə bucaqları, uzununa və eninə örtmə faizi, hündürlük və s.) saxlamağı bacarmalıdır [2].



**Şəkil 2. PUA ilə yüklərin daşınması**

Aerofotoçəkiliş məlumatlarının ciddi fotoqrammetrik emalı və maksimum dəqiq nəticələrin əldə edilməsi üçün eyni marşrutdakı şəkillərin üçqat örtməyə malik olması, həmçinin sahə çəkilişləri zamanı qonşu marşrutların şəkilləri arasındakı örtmənin ən azı 20% olması zəruridir. Təcrübə göstərir ki, PUA ilə çəkiliş apardıqda bu parametrlər heç də həmişə qorunmur. PUA-nın uçuşu qeyri-sabitdir, ona külək, hava boşluğu və burulğan (turbolentik) və digər amillər təsir edir. Adi təyyarələrdən çəkiliş zamanı üst-üstə düşmənin (örtmənin) marşrut boyunca 60% və marşrutlar arasında 20–30% olması planlaşdırılırsa, PUA çəkilişləri zamanı fototriangulyasiya blokunda boşluqları aradan qaldırmaq üçün üst-üstə düşməni (örtməni) marşrutlar üzrə 80%, marşrutlar arasında isə 40% planlaşdırmaq lazımdır.

PUA bazasında yerləşdirilən xəritəçəkmə kompleksi təyinatına uyğun olaraq, 1:2000 və daha kiçikmiqyaslı kartoqrafik məhsulların alınması üçün ilkin çəkiliş materiallarının və xidməti məlumatların əldə edilməsi tapşırığını yerinə yetirməlidir.

Bu tapşırığın həlli üçün xəritəçəkmə kompleksi faydalı yük qismində aşağıdakı avadanlıqlara malik olmalıdır:

– rəqəmsal hava fotoqrafiya kamerası;
– kameranı sabitləşdirmə avadanlığı;
– birbaşa geolokasiya sistemi.

PUA bazasında yerləşdirilən xəritəçəkmə kompleksi üçün rəqəmsal hava fotoqrafiya kamerası qismində kiçik (kadr həcmi 20 Mp-dən az) və ya orta (kadr həcmi 20-dən 64 Mp-yə qədər) formatlı bir kamera seçmək məqsədəuyğundur.

Kiçikformatlı hava kameraları, nadir hallar istisna olmaqla, geniş istifadəçi dairəsi üçün nəzərdə tutulmuş ənənəvi, nisbətən ucuz məişət və ya peşəkar rəqəmsal kameralardır. Bu cür kameralarda praktiki olaraq girotənzimləyici platformasına quraşdırmaq üçün qurğular, naviqasiya sistemlərinə qoşulmaq üçün interfeys yoxdur və metrik olaraq dəqiq bir şəklin alınmasını həmişə təmin edə bilmir. Buna görə də onların istifadəsi zamanı düzəlişlərin verilməsi tələb olunur. Bundan əlavə, kameraların kiçikformatlı olması, şəkillərin örtmə sahələri sayının artması və fotoqrammetrik işlərin böyük həcmi səbəbindən bu cür kameraların istifadəsində məhdudiyyətlər mövcuddur.

Ortaformatlı kameralar aerofotoçəkiliş işlərinin xüsusiyyətlərinə tam uyğunlaşdırılıb, müasir uçuşu idarəetmə sistemlərinə, birbaşa geolokasiya sistemlərinə inteqrasiya oluna bilir və təsvirlərin sürüşməsini (yerdəyişmə) tənzimləmə vasitələri ilə təchiz edilib.

PUA-dan çəkiliş aparılması üçün təyin olunan rəqəmsal aerokamera aşağıdakı tələblərə cavab verməlidir:

– fərqli hündürlük və sürətlərdə müxtəlif növ aerofotoşəkilləri çəkmək tapşırığını yerinə yetirmək üçün fokus məsafələri diapazonuna və ya dəyişilə bilən obyektivlərə malik olmalıdır;

– marşrut üzrə 60–80% örtməni təmin edən verilmiş vaxt aralığında çəkiliş imkanını təmin etmək;

– ərazinin ən azı 500×500 m ölçülü ilkin rəngli şəkillərinin alınmasını təmin etmək (Şəkil 3);

– 1000 m yüksəklikdən çəkilmiş materialların məkan imkanları 0,5 kontrastla 0,2 m-dən daha pis olmamalıdır.



**Şəkil 3. PUA ilə ərazinin fotoçəkilişi**

Girotənzimləyici qurğu (giroplatforma) aerokameranı verilmiş vəziyyətdə saxlamaq, PUA-nın titrəmələrinin aeroçəkilişlərin keyfiyyətinə göstərdiyi təsiri azaltmaq, uçuş və eniş zamanı zərbələri zəiflətmək və s. üçündür.

Giroplatforma aşağıdakı tələblərə cavab verməlidir:

– PUA-nın əyilmə bucaqlarının (yuvarlanma, tanqaj (uçuş istiqamətində əyilmə) və kren (sağa və ya sola əyilmə) bucaqları və ya marşrutdan sapma) təsirini aradan qaldırmaqla üzərinə quraşdırılmış aerofotoçəkiliş avadanlıqlarının dinamik sabitləşməsini təmin etmək;

– istifadə olunan aerokamera modelinə qoşmaq üçün müvafiq keçid lövhəsinə (adapterə) sahib olmaq;

– kren və tanqaj üzrə ən az 5 – 6° diapazonunda sabitləşdirmə bucaqlarını təmin etmək.

Naviqasiya vasitələrinin müasir inkişaf səviyyəsi xarici səmtləşmə elementlərinin bilavasitə çəkiliş prosesində ölçülməsinə imkan verir [3].

Bu cür ölçmələrin səciyyəvi dəqiqliyi X, Y, Z fəza koordinatları üzrə metr vahidlərinə, yuvarlanma, kren və tanqaj əyilmə bucaqları üzrə isə dərəcənin bir hissəsinə qədər çatır.

Əksər hallarda bu dayaq nöqtələrini istifadə etmədən şəkillərin emalını həyata keçirmək üçün kifayətdir. Hər halda, bu cür məlumatların olması şəkillərin emalını xeyli asanlaşdırır və emalın bəzi mərhələlərinin avtomatik rejimdə yerinə yetirilməsinə imkan verir.

GPS naviqasiya kompleksi bilavasitə yertəyinetmə sistemi olaraq, daşıyıcının məkan mövqeyini, hərəkət istiqamətini və sürətini təyin etmək üçün hazırlanmışdır.

PUA bazasında yerləşdirilən xəritəçəkmə kompleksinin bilavasitə yertəyinetmə sisteminin tərkibinə aşağıdakılar daxil olmalıdır:

– həssaslıq oxlarının ilkin vəziyyətdən sapma bucaqlarını təyin etmək üçün üç giroskopu özündə birləşdirən ətalətölçmə bloku;

– geodeziya sinfinin ikitezlikli peyk qəbuledicisini özündə birləşdirən GPS/GLONASS peyk ölçü bloku;

– inersiyal və peyk ölçmələrini real vaxt rejimində əlaqələndirən göyərtə hesablayıcısı (kompüter).

Bilavasitə yer təyinetmə sistemini istifadə etməzdən əvvəl ona düzəlişlərin edilməsi vacibdir. Bu düzəlişlər xüsusi poliqonun çəkilişi zamanı əldə edilən materialların emalı nəticələrinə əsaslanan fotoqrammetrik, ətalət və peyk ölçmələri nəticələrinin birgə işlənməsindən ibarətdir [1].

Kartoqrafik çəkiliş rejimində, PUA-nın mövqeyinin xətti və bucaq parametrlərini təyin edərkən ortakvadratik səhv çəkiliş aparatının xüsusiyyətlərindən və uçuş yüksəkliyindən asılı olacaqdır. Bu halda, ərazidəki obyektlərin planda (müstəvidə) koordinatlarının təyin edilməsinə qoyulan şərtlər yerüstü hazırlıq həyata keçirilmədən belə yerinə yetirilməlidir (ən azı 5 m).

Əgər çəkiliş zamanı GPS/GLONASS qəbuledicisi diferensial (və ya GPS/GLONASS məlumatlarının sonrakı işlənməsi) rejimdə istifadə olunubsa, bu halda emal nəticələrinin daha dəqiq alınması üçün minimum istinad nöqtələri tələb olunur (adətən, 100 şəkildən ibarət blok üçün bir neçə nöqtə kifayətdir), bəzi hallarda isə emal istinad nöqtəsi olmadan da həyata keçirilə bilər.

Azərbaycan Ordusunda hərbi fəaliyyətlərin gedişində xüsusi xəritə, fotosənəd və ərazi modellərinin yaradılması, hədəf koordinatlarının təyin edilməsi və digər topogeodeziya təminatı tapşırıqlarını çevik və dəqiqliklə yerinə yetirmək üçün PUA-dan istifadə məqsədəuyğundur.

Vətən müharibəsi dövründə zərbə PUA-larından geniş istifadə olunmuşdur. Buna baxmayaraq, hal-hazırda aeroşəkillərin alınması, fotoplanların, fotoxəritələrin, topoqrafik xəritələrin və xüsusi xəritələrin hazırlanması məqsədilə onlardan istifadə olunmur. Bununla yanaşı, bir sıra aparıcı dövlətlərdə bu sahədə artıq işlər görülməkdədir.

2014-cü ilin sentyabrında "Şərq-2014" təlimi çərçivəsində PLAZ şirkəti (Sankt-Peterburq) tərəfindən hazırlanan "Geoscan101" PUA-ya quraşdırılan aerofotoçəkiliş kompleksinin funksional imkanları sınaqdan keçirildi. "Geoscan101" və "Geoscan 200" PUA bazasında reallaşan (hazırlanan) ixtisaslaşdırılmış kartoqrafik aviasiya kompleksləri sinfinin nümayəndələridir. İnternet resursları [3].

Yoxlamanın nəticələri göstərdi ki, bu cür komplekslər Azərbaycan Ordusunun topoqrafiya xidmətinin maraqları çərçivəsində aşağıdakı tapşırıqları həll etmək üçün istifadə edilə bilər:

– topogeodeziya baxımından hərbi əməliyyatlar teatrının əvvəlcədən hazırlanması zamanı topoqrafik xəritələrə düzəlişlərin çevik həyata keçirilməsi və kiçik ərazilər üçün (bir uçuş üçün 10 km$^2$-ə qədər olan ərazi) fotosənədlərin yaradılması;

– poliqon və təlim sahələri ərazisinin üçölçülü (3D) xəritələrinin yaradılması.

Yaradılmış üçölçülü modellər, qoşun bölmələrinin fəaliyyətini planlaşdırmaq, maskalanmanı təşkil etmək, habelə aviasiya zərbə komplekslərinin və artilleriyanın tətbiqi məqsədilə uğurla istifadə edilə bilər.

PUA aerofotoçəkiliş komplekslərinin digər aerofoto kompleksləri ilə müqayisədə üstünlükləri aşağıdakılardır:

– kiçik ölçüdə olması;
– çəkilişin aparılması ilə kartoqrafik məhsulların alınması arasında qısa bir müddətin olması;
– istehsal və istismarın xeyli aşağı maya dəyərində olması;
– açılması və işə hazırlanmasına sərf olunan vaxtın əhəmiyyətli dərəcədə az olması;
– alınan məlumatların emalı və istismarının sadə olması;
– hazırlıq, istismar və məlumat emalının bütün mərhələlərində avtomatlaşdırmanın yüksək dərəcədə olması;

– istismar edən heyətin hazırlıq səviyyəsinə tələblərin nisbətən aşağı olması.

PUA komplekslərinin Müdafiə Nazirliyinin maraqlarına uyğun istifadəsini məhdudlaşdıran amillər bunlardır:

– PUA-nın göyərtə yükünün tərkibində yalnız GPS sistemi siqnalları ilə işləyən naviqasiya qəbuledicisinin olması;

– yerüstü idarəetmə stansiyası ilə PUA arasında sabit rabitənin maksimum məsafəsinin kifayət qədər olmaması;

– komplekslərin istifadəsinin temperatur aralığının kifayət qədər olmaması.

PUA bazasında hazırlanan xəritəçəkmə kompleksinin tərkibinə, hava seqmentindən əlavə olaraq, yer seqmenti də daxil etməlidir. Onun varlığı, PUA-dan alınmış çəkiliş materiallarının naviqasiya və istinad məlumatlarının istifadəsi ilə fotoqrammetrik emalının həyata keçirilməsi üçün zəruridir. Bu, yerli obyektlərin verilmiş koordinat sistemində yüksək dəqiqliklə bəndedilməsini həyata keçirmək məqsədi daşıyır.

## Nəticə

Nəticə etibarilə, xəritəçəkmədə istifadə olunan və PUA-ya quraşdırılan aerofotoçəkiliş kompleksinin təyinatı çəkiliş və xüsusi avadanlıqların tərkibinə və onların xüsusiyyətlərinə (göstəricilərinə) müəyyən tələblər irəli sürür. Bu tələblər həndəsi və radiometrik cəhətdən dəqiq ilkin çəkiliş materiallarının və onları müşayiət edən xidməti məlumatların əldə edilməsi zərurətindən qaynaqlanır. Belə məlumatların texnoloji emalı nəticəsində müəyyən olunmuş dəqiqlik, dolğunluq və etibarlılıq xüsusiyyətlərinə malik kartoqrafik məhsullar əldə edilir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Набиев, Р.Н. Обзор этапов развития, конструкций и проблем проектирования БПЛА типа мултикоптер Современная наука: актуальные проблемы теории и практики / Р.Н. Набиев, А.А. Абдуллаев // Серия Естественные и технические науки, – Москва: – 2017. №3-4, – с. 16-21.

2. Методические рекомендации по производству аэрофототопографических работ с использованием беспилотных летательных аппаратов при изысканиях в целях строительства и реконструкции автомобильных дорог // Управлением научно-технических исследований и информационного обеспечения, Управлением строительства и эксплуатации автомобильных дорог Федерального дорожного агентства (на основании распоряжения Федерального дорожного агентства от 29.07.2019 №1982-р). – Москва: ОДМ 218.9.017, – 2019. – 73 с.

3. БПЛА в боевых действиях в Нагорном Карабахе (ДОКЛАД): [Электронный ресурс] / BSBLOG (Belarus Securıty Blog). – Минск, 2021. URL: https://bsblog.info/bpla-v-boevyx-dejstviyax-v-nagornom-karabaxe-doklad

## Аннотация

**Применение БПЛА в топогеодезическом обеспечении войск.**
**Опыт использования и перспективы развития**
**Джабир Султанов, Чингиз Велиев**

В статье рассматривается роль беспилотных летательных аппаратов (БПЛА) в управлении войсками в Азербайджанской Армии. БПЛА сыграли важную роль в победе Азербайджана над Арменией в Отечественной войне 2020 года. Во время Второй Карабахской войны Азербайджан использовал БПЛА для ведения разведки, наведения на ракетные и артиллерийские установки и получения подробной информации об оперативной обстановке. Примером является уничтожение систем ПВО вооруженных сил Армении в Ходжавенде, при отличном согласовании информации, полученной с беспилотников.

**Ключевые слова:** спутниковая навигационная система (GPS), беспилотный летательный аппарат (БПЛА), гирорегулирующее устройство (гироплатформа), аэрофотосъемка, холодная война

**Abstract**

**The Application, experience in usage and development perspectives of UAV in the topogeodesis maintenance of the troops**

**Jabir Sultanov, Chingiz Valiyev**

The article discusses the role of unmanned aerial vehicles (UAVs) in the management of troops in the army. UAVs played an important role in Azerbaijan's victory over Armenia in the 2020 Patriotic War. During the Second Karabakh War, Azerbaijan used UAVs to conduct reconnaissance, target missile and artillery units, and obtain detailed information on operational conditions. An excellent example of the coordination of information received from drones is the destruction of the Air Defense Systems used by the Armenian armed forces in Khojavend during the war.

**Keywords:** satellite navigation system (GPS), unmanned aerial vehicle (UAV), giroregulating device (gyroplatform), aerial photography, cold war

*Məqalə redaksiyaya daxil olmuşdur: 26.12.22*
*Təkrar işlənməyə göndərilmişdir: 06.01.2023*
*Çapa qəbul edilmişdir: 16.01.2023*

HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE
№4/2022, səh. 28-33
HƏRBİ NƏZƏRİ ELMLƏR MILITARY THEORETICAL SCIENCES

UOT 355/359

# İDARƏOLUNAN RAKETLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**t.e.d., professor Mürsəl Əliyev,**
**Əflatun Məmmədov, Zülfiyyə Babayeva, Sevinc Məmmədova**
*Müdafiə Sənayesi Nazirliyinin Elmi-Tədqiqat İnstitutu*
E-mail: eti@mdi.gov.az

***Xülasə.*** Yüksək dəqiqliyə malik silahlar effektivliyi hədəfvurmanın yüksək dəqiqliyinə əsaslanan idarəolunan məhvetmə vasitələridir. Bu silahlar koordinatları nəinki əvvəlcədən məlum olan, eyni zamanda sursatın bütün uçuş müddəti ərzində hədəfi nəzarətdə saxlamaqla səmərəli tətbiq edilə bilir.

**Açar sözlər:** yüksək dəqiqliyə malik silahlar, idarəolunan məhvetmə vasitələri, idarəolunan raket, idarəolunan aviasiya bombası, döyüş hissəsi

Yeni nəsil pilotsuz uçuş aparatlarının (PUA) əsas təyinatı dəqiq tuşlama ilə hədəfin etibarlı məhvini təmin etməkdir. Yüksək dəqiqliklə məhvetmə ilk növbədə hədəfin aşkarlanmasına və koordinatının dəqiq müəyyən edilməsinə əsaslanır. Yüksək dəqiqliyə malik silahların digər üstünlüyü süni intellektual səviyyəli bort aparatının olmasıdır. Bu aparat ehtiyac duyulduğu halda insanın iştirakı olmadan daha təhlükəli hədəfə doğru tuşlanmaqla uçuş trayektoriyası haqqında qərar qəbul edə bilir. Belə silah nümunələri geniş hədəf spektrinə qarşı müxtəlif təyyarə və pilotsuz uçuş aparatlarının tətbiqi imkanlarından asılı olaraq hazırlanır [1].

“Yüksək dəqiqliyə malik silah” termini 70-ci illərdə tank əleyhinə silahların yaradılması ilə formalaşıb. Həmin silahlarda istifadə edilən sursatların vasitəsilə zirehli obyektləri təkcə döyüş meydanında deyil, eyni zamanda toplandıqları yerdə uzaq məsafədən məhv etmək mümkündür.

Müasir dövrdə yüksək dəqiqliyə malik silah sistemlərinin yaradılması sahəsində aparıcı yeri ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Rusiya və İsrail tutur. Bu sahədə Norveç, ÇXR, Türkiyə və bir sıra digər dövlətlər əhəmiyyətli dərəcədə irəliləmişdir.

Yüksək dəqiqliyə malik silah və onların çatdırılma vasitələrinə aşağıdakılar aiddir:
– idarəolunan zenit raketləri;
– “hava-hava” və “hava-yer” aviasiya raketləri;
– idarəolunan aviasiya bombaları;
– qanadlı raketlər;
– tank əleyhinə idarəolunan raketlər;
– antiraketlər;
– taktiki və operativ-taktiki ballistik raketlər (yaylım atəş komplekslərindən başqa).

Bu məqalədə “hava-yer“ sinfinə aid yüksək dəqiqliyə malik idarəolunan raketlərin inkişaf perspektivlərinin təhlili aparılacaq. Xarici ölkələrdə qəbul olunan təsnifata görə, yüksək dəqiqliyə malik “hava-yer” sinif idarəolunan məhvetmə vasitələrinə idarəolunan raketlər, idarəolunan aviasiya bombaları, pilotlu və pilotsuz aviasiyanın tətbiq etdiyi kasetlər, özütuşlanan döyüş sursatları, aviasiya torpedaları daxildir.

Yüksək dəqiqliyə malik “hava-yer” idarəolunan döyüş raketləri reaktiv mühərriklə uçaraq məhvetmə vasitələrini hədəfə çatdıran pilotsuz uçuş aparatıdır. Müasir müharibə və münaqişələrdə aviasiyada tətbiq edilən belə silahlardan istifadənin intensivliyi, bu məhvetmə vasitələrinin effektivliyinə artan tələblərə görə onların təkmilləşdirilməsinə ehtiyac yaradır. Mikroelektronika, optoelektronika, sensor texnologiyası bu cür silahların yaradılmasında mühüm rol oynayır.

Bütövlükdə, idarəolunan aviasiya bombaları bəzi xüsusiyyətlərinə görə idarəolunan raketlərdən geri qalır. Belə ki, onun hədəfə doğru orta uçuş sürəti və uçuş məsafəsi aşağıdır, atılma vaxtı ilkin xətalar yaranır. Bundan başqa, idarəolunan aviasiya bombası daşıyıcı-təyyarədən atıldıqdan sonra bomba və təyyarənin bir-birinə nisbətən hərəkətləri onların alçaq hündürlükdən tətbiqini məhdudlaşdırır.

İdarəolunan raketlərin digər üstünlükləri də var. Lazım gəldikdə 100 km və daha artıq məsafədən daşıyıcı-təyyarə (vertolyot, pilotsuz uçuş aparatı və s.) rəqibin hava hücumundan müdafiə zonasına daxil olmadan hədəfi vurmaq imkanına malikdir. Sadalananları nəzərə alaraq deyə bilərik ki, idarəolunan aviasiya bombası və idarəolunan raket “hava-yer” sinfinə aid yüksək dəqiqliyə malik taktiki silahın iki növüdür. Bunların arasında rəqabət olsa da, hər birinin öz tətbiq sahələri var və qarşılıqlı olaraq bir-birini tamamlayır.

Müəyyən tip hədəfləri sıradan çıxarmaq üçün nəzərdə tutulan “hava-yer” sinfinə aid ixtisaslaşdırılmış döyüş sursatlarına radiolokasiya əleyhinə, tank əleyhinə, gəmi əleyhinə, sualtı qayıq əleyhinə və s. idarəolunan raketlər daxildir [2].

Tank əleyhinə idarəolunan raketlər inkişaf mərhələsinə görə 4 nəslə bölünür:

– birinci nəsil (həm hədəfi, həm də raketi izləyir) – tam əl ilə idarə olunur (MCLOS – Manual-Command-to-Line-of-Sight). İdarəolunan raket hədəfə çatana qədər operator naqillər vasitəsilə tuşlama komanda sisteminə əmrlər göndərərək raketin uçuşunu idarə edir. Burada yüksəkixtisaslı operatorlar tələb olunur;

– ikinci nəsil (hədəfizləmə) – operatordan yalnız hədəfi nişangahda saxlamaq, raketi müşayiət qurğusu (qoniometr) vasitəsilə hədəfin vizirləmə xəttindən bucaq sapmalarını ölçərək idarəetmə əmrlərini formalaşdırmaq tələb edilir (SACLOS – Semi-Active Command-to-Line-of-Sight). Raketin uçuşu isə avtomatik idarə olunur, ona idarəetmə əmrləri naqillər, radiokanal və ya lazer şüası vasitəsilə göndərilir;

– üçüncü nəsil (homing) – “at və unut” prinsipi ilə işləyir. Atışdan sonra idarəetmə lazer, infraqırmızı şüalarla həyata keçirilir, uçuş zamanı operatorun müşayiəti tələb olunmur. Kənar müdaxilələrə az_dayanıqlıdır;

– dördüncü nəsil – operatorun olmadığı tam avtonom robot döyüş sistemləridir. Proqram və aparat sistemləri onlara müstəqil şəkildə hədəfi aşkar etməyə, tanımağa, müşayiət etməyə və hədəfə atəş açmaq barədə qərar qəbul etməyə imkan verir. Hazırda bu nəsil tank əleyhinə idarəolunan raketlər bir sıra ölkələrdə müvəffəqiyyətlə inkişaf etdirilir və sınaqdan keçirilir.

Tank əleyhinə idarəolunan raketlərin gələcək inkişaf perspektivlərinə gəldikdə, əsas tələblərdən biri raketin uçuş vaxtının, yəni daşıyıcının (vertolyotun və s.) qorunan yerdən kənarda qalma müddətinin azaldılmasıdır. Bu o deməkdir ki, daha sürətli tank əleyhinə idarəolunan raket yaradılmalıdır. Naqillər vasitəsilə əmrlər göndərilən tuşlama sisteminin tətbiqindən imtina edilməlidir. Özütuşlama sistemi ilə təchiz edilən üçüncü və dördüncü nəsil tank əleyhinə idarəolunan raketlər atışdan sonra avtonom tuşlama ilə uzaq məsafədən tətbiq edilə bilər [3].

Yalnız bir hədəfi vura bilən “hava-yer” sinfinə aid idarəolunan silahların yaradılmasından sonra xarici hərbi mütəxəssislərin fikrincə, eyni anda bir neçə hədəfi məhv edə bilən sistemlərin yaradılmasına ehtiyac duyuldu. Mövcud idarəolunan məhvetmə vasitələrinin istehsalı və təkmilləşdirilməsi ilə yanaşı, zirehli tank texnikası ilə mübarizənin effektivliyinin artırılması məqsədilə HVM (Hyper-Velocity Missile) perspektivli raketlərin yaradılması üzrə elmi tədqiqat və təcrübi-konstruktor işləri aparılır (Şəkil 1).

Bu raket böyük kinematik enerji hesabına hədəfi məhv edən döyüş hissəsi ilə təchiz edilir, həmin enerji də yüksək uçuş sürətindən yaranır. Bunun nəticəsində istənilən hava şəraitində bir neçə stasionar və hərəkətdə olan hədəfə idarəolunan raketlərin yaylım atəşlə tətbiqi mümkündür. Belə raketlərin fəzadakı vəziyyətinin idarə edilməsi raketin ağırlıq mərkəzinin qarşısında radial yerləşdirilmiş mikromühərriklərin növbəli işə salınması ilə həyata keçirilir. Verilənlərin lazer ötürmə xətti vasitəsilə idarəetmə əmrləri raketin bortunda yerləşən özütuşlama sisteminə daxil olur. Bu sistemin əsas bahalı komponentləri (hədəflərin işıqlandırılmasının lazer qurğusu və mikroprosessor) uçuş aparatının bortunda yerləşir və tank əleyhinə idarəolunan raketin növbəti atışı zamanı istifadə edilir.



**Şəkil 1. Qabaqcıl hipersəs silah döyüş başlığı üçün inkişaf etdirilən hipersəs silahının eksperimental konsepsiyası**

Beləliklə, xarici ölkələrin Silahlı Qüvvələrində tank əleyhinə idarəolunan raketlərin inkişafı, əsasən eyni anda bir neçə hədəfi məhv edə bilən sistemlərin yaradılmasına, uçuş sürətinin, tətbiqedilmə məsafəsinin və hədəfin məhvetmə ehtimalının artırılmasına yönəldilib. Bu parametrlərin təkmilləşdirilməsi bir neçə idarəetmə və tuşlama sistemindən (Qlobal Naviqasiya Peyk Sistemi, İnersiyal Naviqasiya Sistemi, özütuşlanan başlıq), start və marş mühərriklərindən istifadə edilməsi, raket yanacağının tərkibinin və kumulyativ tandemli döyüş hissəsinin yenilənməsi, yeni raket texnologiyalarının yaradılması hesabına həyata keçirilir [4].

“Hava-yer” sinfinə aid gəmi əleyhinə idarəolunan raketlərin inkişaf imkanlarından danışarkən hərbi mütəxəssislər üç əsas istiqaməti seçib ayırırlar: texniki təkmilləşdirmə, sistemli yanaşma və yeni taktiki üsulların işlənilməsi (Şəkil 2).



**Şəkil 2. “AGM-84H SLAM-ER“ gəmi əleyhinə idarəolunan raketin ümumi görünüşü**

Yerinə yetirdiyi döyüş tapşırığına uyğun gəmi əleyhinə idarəolunan raketlərə olan taktiki tələblərdən asılı olaraq, texniki təkmilləşdirmənin inkişaf istiqamətləri və problemləri vardır. Gəmi əleyhinə idarəolunan raketlərin ayrı-ayrı elementlərinin yerləşdirilməsi atış təhlükəsizliyi tələbləri ilə bilavasitə əlaqəlidir. Raketin daşıyıcı-təyyarədən tam problemsiz ayrılması, mühərrikin işə salınması və

tam dartma rejiminə çıxarılması, konstruksiyanın möhkəmlik və etibarlılığının təmin edilməsi vacib şərtlərdəndir. Gəmi əleyhinə idarəolunan raketlərdə böyük məsafəyə uçuşu təmin etmək üçün yüksək aerodinamik xüsusiyyətlər, sürətin və uçuş yüksəkliyinin qiymətləri optimallaşdırılmalı, hava-reaktiv mühərrikinin yanacaq sərfi azaldılmalı və ya bərk yanacaq mühərrikinin xüsusi dartı qüvvəsi artırılmalıdır. Bu məsələlərin həlli "hava-yer" sinfinə aid gəmi əleyhinə idarəolunan raketlərin yuxarıda göstərilən üç əsas istiqamət üzrə inkişafını təmin edir.

Amerika və Avropa yeni nəsil aviasiya raket kompleksləri istehsalçılarının fikrinə görə, "hava-yer" sinifli idarəolunan raketlər aşağıdakıları təmin etməlidir:

– təyin edilmiş obyektin nəzərə çarpmadan və tez aşkar edilməsini;
– eyni zamanda bir neçə hədəfin dayanıqlı müşayiət edilməsi və onlardan ən mühüm olanının, eləcə də bir neçəsinin ardıcıl olaraq raket atışı ilə məhv edilməsini;
– idarəolunan raketlərin maksimal olaraq gizli tətbiqini;
– idarəolunan raketin rəqibə nəzərən daha geniş atış zonasını;
– raketin uçuşunun bütün mərhələlərində aerodinamik və enerjiballistik xarakteristikalarının optimal uzlaşmasını;
– həm daşıyıcı-təyyarədən, həm də digər ixtisaslaşdırılmış uçuş aparatlarından həyata keçirilən uçuş tapşırığının korreksiya imkanını;
– idarəolunan raketlərdə tuşlamanın müasir üsullarının tətbiqini;
– idarəolunan raketin tərkibində optimal kütlə-qabarit xarakteristikalı yüksək partladıcı effektə malik perspektiv döyüş başlıqlarından istifadəni.

Hazırda Qərbin idarəolunan aviasiya silah istehsalçıları böyük atış məsafəsi (100 km-dən yuxarı) olan idarəolunan raketlərin hazırlanmasına xüsusi diqqət verirlər. Perspektivli uzaqməsafəli idarəolunan raketlərin Amerika və Avropa konsepsiyası texniki planda bir-birinə yaxındır, lakin onların praktiki reallaşdırılma üsulları fərqlidir [5].

Azərbaycan Ordusu arsenalında da yüksək dəqiqliyə malik məhvetmə vasitələri, o cümlədən "hava-yer" sinifli idarəolunan raketlərin müxtəlif modifikasiyaları mövcuddur. Silahlı Qüvvələrimizin 44 gün davam etmiş Vətən müharibəsində xarici ölkələrin istehsalı olan bir çox müasir silah sistemlərini ilk dəfə döyüşdə tətbiq etməklə adını dünya hərb tarixinə yazdı. Döyüş əməliyyatlarında idarəolunan raketlər və pilotsuz uçuş aparatlarından uğurla, o cümlədən koordinasiyalı şəkildə istifadə edildi. "Spike", "Baryer" tipli tank əleyhinə idarəolunan raketlərin müxtəlif modifikasiyaları düşmənin zirehli tank texnikasına və möhkəmləndirilmiş müdafiə mövqelərinə qarşı uğurla tətbiq olundu (Şəkil 3). Bu raketlərin tətbiqi düşmənin cəbhənin dərinliyindəki strateji obyektlərinin, sursat anbarlarının və hərbi bazalarının yüksək dəqiqliklə məhv edilməsinə imkan verdi.




**Şəkil 3. "Spike NLOS" tank əleyhinə idarəolunan raketin ümumi görünüşü**

Bu gün tam əminliklə deyə bilərik ki, Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində tətbiq etdiyimiz taktika öz bəhrəsini verdi. 44 günlük Vətən müharibəsi illər ərzində formalaşan Azərbaycan Ordusunun gücünün, qüdrətinin göstəricisi idi. Bundan sonra ölkəmizə qarşı edilən bütün təhdidlərə lazımi zamanda cavabvermə qabiliyyətinə malik hərbi gücümüz hər kəsin barışmalı olduğu reallıqdır.

Regionda təhlükəsizliyə olan təhdidləri Azərbaycan Ordusunun daim yeni silah və texnikalarla təchiz edilməsini prioritet olaraq qarşıya qoymuşdur. Cənab İlham Əliyev öz çıxışlarında bunu dəfələrlə vurğulayaraq, yüksək dəqiqliyə və böyük dağıdıcı gücə malik silahların alınmasına, gələcəkdə istehsalının təşkil edilməsinə üstünlük verildiyini bildirmişdir. Müdafiə Sənayesi Nazirliyi də daha müasir silahların yaradılması istiqamətində geniş tədqiqatlar aparır, xarici ölkələrin şirkətləri ilə müştərək işbirliyinə və yeni layihələrə imza atır.

## Nəticə

Aparıcı dövlətlərdə yüksək dəqiqliyə malik məhvetmə vasitələrinin gələcək təkmilləşdirilməsi üzrə proqramlar reallaşdırılır. Əsas səylər onların tətbiqi effektivliyinin yüksəldilməsinə və xərclərin azaldılmasına yönəldilir. Elmi-texniki tərəqqi nəticəsində texniki baza (elektron qovşaqlar, proqram təminatı, yanacaq və s.) daim yeniləndiyindən yeni strateji və taktiki pilotsuz daşıyıcıların yaradılması üzrə elmi tədqiqat və təcrübi-konstruktor işlərinin eyni zamanda aparılması məqsədəuyğundur. Tədqiqatlar zamanı məsafədən asılı olmayan rabitə sistemlərinin, o cümlədən peyk rabitə sistemlərinin və uçuş zamanı avtomatik qərar qəbul edən idarəetmə və nəzarət sistemlərinin işlənilməsi, hədəflər üzrə məhvetmə vasitələrinin paylanılması, habelə yüksək dəqiqliyə malik silahlar, daşıyıcılar və idarəetmə məntəqələri (tuşlama) arasında informasiya mübadiləsinin aparılması məsələlərinə xüsusi diqqət ayrılmalıdır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Голубева, И.С. Беспилотные летательные аппараты / И.С.Голубева, И.К.Туркина – 2010.
2. Попов, А.М. Авиационные управляемые ракеты класса “воздух-поверхность” / А.М. Попов, И.П. Екимов [и др.] // Зарубежное военное обозрение, – 2017. №7, – с. 60-64.
3. Миропольский, Ф.П. Основные противотанковые управляемые ракеты зарубежных стран / Ф.П. Миропольский, А.М. Попов, И.П. Екимов [и др.] // Зарубежное военное обозрение, – 2017. №2, – с. 53-56.
4. Missile Technology Control Regime (MTCR) Annex Handbook / redaktor, tərtib edəni (inisiallar, soyadı). – 2017.
5. Егоров, К.А. Перспективы развития высокоточных средств поражения класса “воздух-поверхность” // Зарубежное военное обозрение, – 2020. №12

## Аннотация

## Перспективы развития управляемых ракет

**Мурсал Алиев, Афлатун Мамедов, Зульфия Бабаева, Севиндж Мамедова**

Высокоточное оружие – это управляемые средства поражения, эффективность которых основывается на высокой точности попадания в цель. Высокоточное оружие заключается в том, что оно может быть эффективно применено по целям, координаты которых не только известны, но и контролируются в течение всего времени полёта боеприпаса.

**Ключевые слова:** высокоточное оружие, управляемые средств поражения, управляемый ракет, управляемая авиационная бомба, боевая часть

**Abstract**

**Prospects for development of guided missiles**

**Mursal Aliev, Aflatun Mammadov, Zulfiya Babaeva, Sevinj Mammadova**

Precision weapons are guided weapons of destruction, the effectiveness of which is based on high accuracy of hitting the target. High-precision weapons consist in the fact that they can be effectively used against targets whose coordinates are not only known, but also monitored throughout the entire flight of the ammunition.

**Keywords:** precision weapons, guided weapons, guided missiles, guided aerial bomb, warhead

*Məqalə redaksiyaya daxil olmuşdur: 26.12.22*
*Təkrar işlənməyə göndərilmişdir: 24.01.2023*
*Çapa qəbul edilmişdir: 27.01.2023*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№4/2022, səh. 34-37**
***HƏRBİ NƏZƏRİ ELMLƏR*** ***MILITARY THEORETICAL SCIENCES***

UOT 355/359

# KOMANDİRLİK FƏALİYYƏTİNİN BƏZİ PSİXOLOJİ ASPEKTLƏRİ

**sən.e.ü.f.d. Əlisəfdər Hüseynov**
*Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu*
E-mail: alisaftar50@mail.ru

***Xülasə.*** "Müharibəni sərkərdələr, komandirlər udur". Son dərəcə sadə quruluşlu bu cümlədə hərb sənətinin mahiyyətini əks etdirən incə bir həqiqət var. Sərkərdə ağlı, komandir düşüncəsi və səriştəsi müharibədə qələbəni şərtləndirən ən mühüm amillərdəndir. Təsadüfi deyildir ki, hərb elmini ayrı-ayrı yönlərdən təhlil edən araşdırıcılar bu problemə dönə-dönə qayıtmış, dünya şöhrətli hərb xadimlərinin, sərkərdələrin təcrübəsi üzrə apardıqları müşahidələr əsasında mühüm elmi nəticələrə gəlmişlər.

Hərb elmini sistemləşdirmək və onun mükəmməl tarixini yaratmaq sahəsində qazandığımız təcrübəyə istinadən qələmə aldığımız yazı elə bilirik ki, hərb elmini psixologiya, məntiq və tarixlə bağlı bir elm kimi qavramağa, dünyanın adlı-sanlı sərkərdələrindən "qələbə qazanmaq dərsi" almağa az-çox kömək edəcəkdir.

**Açar sözlər:** komandir, müharibə, əməliyyat, intuisiya, ağıl, psixoloji

Belə bir fikir geniş yayılıb ki, komandirlərdən əsasən iki keyfiyyət tələb olunur: **yüksək düşüncə və möhkəm iradə** (iradə sözü altında xarakterin gücü, cəsarət, qətiyyət, enerji, inad və s. cəhətlərin mürəkkəb kompleksi nəzərdə tutulur). Bu fikir tamamilə doğrudur. Lakin məşhur sərkərdə Napoleon ona çox mühüm bir əlavə etmişdir: *"Əsas məsələ o deyil ki, sərkərdə yüksək düşüncə və möhkəm iradəyə malik olsun. Məsələ ondadır ki, bu iki keyfiyyət arasında mütləq bir tarazlıq yaranmalıdır"* [1, s.320]. O, həqiqi komandirlik qabiliyyətini kvadratla müqayisə etmişdir. Napoleona görə, yalnız ağlı və iradəsi kvadratın tərəfləri kimi bir-birinə bərabər olan adamlar hərbi lider kimi yetişə bilərlər. Bu o deməkdir ki, əgər iradə ağıldan azca çox olsa, komandir qətiyyətlə, cəsarətlə, lakin bir az düşüncəsiz hərəkət edəcək. Əks halda isə onun yaxşı planları, ideyaları olacaq, amma bunları həyata keçirmək üçün cəsarəti və qətiyyəti çatmayacaq.

"Kvadrat düsturu" böyük müvəffəqiyyət qazanmışdır. Dünyanın bir çox hərb mütəxəssisləri öz araşdırmalarında ona dəfələrlə istinad etmişlər. Hətta bu fikri daha da inkişaf etdirməyə cəhd göstərənlər də olmuşdur. Məsələn: tədqiqatçılardan biri qeyd edir ki, təbiətdə mütləq tarazlıq olmadığı üçün komandirin qabiliyyətini kvadrat yox, düzbucaqlı üsulu ilə dəyərləndirmək daha məqbul yoldur [2, s.394]. Bu üsul, heç şübhəsiz ki, haqqında danışdığımız tarazlığın pozulmasını nəzərdə tutur.

Elə isə sual olunur: tarazlıq nəyin xeyrinə pozulmalıdır: ağlın, yoxsa iradənin?

Yeri gəlmişkən, onu da deyək ki, sərkərdənin ağlının və iradəsinin balanslaşdırılması məsələsi ilə bağlı ixtilaflara müəyyən dərəcədə elə "kvadrat formulu"nun müəllifinin özü bais olmuşdur. Bir dəfə o demişdir: *"Böyük ağla, lakin zəif xarakterə malik adamlar hərb sənətinə az yararlıdırlar"* [3, s.229]. Napoleon özünə iradə zəifliyi yox, düşüncə qüsuru olan adamlardan köməkçi götürməyə daha çox üstünlük verirdi. O, dərin düşüncə qabiliyyəti ilə seçilən, lakin kifayət qədər cəsur, qətiyyətli olmayan, fikirləşməkdə çeviklik, lakin icrada zəiflik göstərən generalları xoşlamırdı.

Onu da nəzərə almaq lazımdır ki, Napoleonun iradənin birinciliyi haqqındakı fikirləri müstəqil hərəkət edən komandirlərə yox, adi icraçılara münasibətdə doğrudur. Komandirin fəaliyyətində ağlın, zəkanın nisbi rolu onun tutduğu vəzifənin səviyyəsindən asılıdır. Belə ki, aşağı vəzifələrdə əqli fəaliyyətin mexanizmi sadədir. Lakin, məsələn: yüksək ranqlı komandan vəzifəsində əqli fəaliyyət mürəkkəb xarakter alır.

Ümumiyyətlə, ağıl və iradənin qarşı-qarşıya qoyulması Aristoteldən başlayır. Lakin bu, həmin problem haqqında Aristotelin hər hansı bir konkret fikri ilə bağlı deyil. Alimlər Aristotelin psixi qabiliyyətlərin təsnifatı prinsiplərinə o qədər aludə olmuşlar ki, onun problemin mahiyyətini daha düzgün qavramağa imkan verən praktiki düşüncə konsepsiyasına əhəmiyyət verməmişlər. Halbuki həmin konsepsiyaya görə, praktiki düşüncə ağlın və iradənin vəhdətini nəzərdə tutur. Komandir

düşüncəsinin də praktiki düşüncənin konkret bir forması olduğunu nəzərə alsaq, etiraf etməliyik ki söhbət intellektual və iradi qabiliyyətlərin vəhdətindən əmələ gələn bir keyfiyyətdən gedir. Deməli, yüksək düşüncəli, lakin iradəcə zəif, qətiyyətsiz hərbçilər barədə deyilən fikirlərin heç bir əsası yoxdur. Əslində bu cür sərkərdə obrazı mifdən başqa bir şey deyil. Zəif xarakterli adamlar heç vaxt yüksək hərbi düşüncəyə malik ola bilməzlər.

Uğurlu komandirlik fəaliyyətinin mühüm şərtlərindən biri də inkişaf etmiş **məkan duyumudur.**

Məkan duyumu dedikdə, hər hansı bir yer haqqında qısa müddət ərzində dəqiq coğrafi təsəvvür əldə etmək bacarığı nəzərdə tutulur. Klauzevits bu bacarığı hərb sənətinin ən mühüm şərtlərindən biri kimi səciyyələndirirdi. O yazırdı ki, komandir tutduğu vəzifədən asılı olaraq böyük bir ərazinin, hətta ölkənin coğrafi xüsusiyyətləri barədə tam və aydın təsəvvürə malik olmalı, yolları, çayların istiqamətini, dağ silsilələrinin quruluşunu yaxşı bilməlidir. Müəyyən bir ərazinin coğrafi xüsusiyyətlərini detallarına qədər öyrənmək komandirin fəaliyyətini asanlaşdırır, onun inamını, müstəqil hərəkət etmək imkanlarını artırır [3, s.290].

Psixoloji tədqiqatlar göstərir ki, ərazi haqqında məkan təsəvvürünün iki tipi var.

Birinci halda insan yerləşdiyi ərazinin dəqiq planını bilməsə də, əsasən gəldiyi yollar haqqında dəqiq təsəvvürlərinə istinad edib ərazinin səmtini müəyyənləşdirir. Məkan təsəvvürünün ikinci tipi isə onunla səciyyələnir ki, subyekt yeni əraziyə düşəndə dərhal fikrində onun ümumi planını müəyyən edir və gələcək fəaliyyətində həmin plana əsaslanır. Bu halda biz məkan təsəvvürünün yüksək forması ilə rastlaşırıq. Lakin təsəvvürün bu tipinin müəyyən məhdud cəhətləri də var. Belə ki, həmin formanı əsas götürən şəxs ərazinin xırda, lakin xarakterik detallarına o qədər də fikir vermir. Çünki səmti müəyyən etməkdə bu detallar ona lazım deyil. Bu mənada müşahidə üzrə hərəkət tipinə əsaslananlar daha diqqətli və həssas olurlar.

Komandirlik fəaliyyətində məkan təsəvvürlərinə çox yüksək tələblər irəli sürülür. Komandir, bir tərəfdən, hər hansı bir ərazini plan, yaxud xəritə səviyyəsində maksimum dəqiqliklə görməli, digər tərəfdən, ərazini müfəssəl şəkildə bütün detallarına qədər öyrənməlidir. Onun məkan haqqında düşüncələri təsəvvürün hər iki tipinin ən güclü cəhətlərini sintezləşdirməlidir.

Xəritəni öyrənmək, ondan düzgün istifadə etmək komandirlik sənətinin mühüm şərtlərindəndir. Bütün məşhur sərkərdələr məhz bu cəhətləri ilə fərqlənmişlər. Məsələn: Napoleon xəritə ilə işləmək baxımından öz qərargah rəisini, hətta xəritəşünas alim marşal Verteni də üstələyirdi [3, s.290 – 291]. Tarle yazır ki, o bu qabiliyyətinə görə özünə qədər yaşayan bütün sərkərdələri kölgədə qoyurdu. Xəritə üzərində işləmək Napoleon üçün daimi məşğuliyyət idi. Bütün hərb tarixçiləri onun hətta ən mürəkkəb və naməlum məkanlarda belə heç kimin görə bilmədiyi şeyləri müşahidə etmək, lazım olan obyektləri müxtəlif rakurslardan – “yuxarıdan”, “yandan” və s. görmək istedadını dönə-dönə qeyd etmişlər.

Yüksək məkan duyumuna malik hərb xadimlərindən biri də Suvorov olmuşdur. 1799-cu ildə İtaliyaya hərbi yürüş ərəfəsində onun verdiyi əmrdə haqqında danışdığımız problemlə bağlı maraqlı məqamlar var. Suvorov yazırdı ki, hərəkət planının yalnız baş rəislərə çatdırılması kifayət deyil. Qoşunun həmin plan üzrə hərəkəti üçün kiçik rəisləri, batalyon, eskadron, rota komandirlərinin, hətta unter-zabitlərin və sıravilərin də bu plandan xəbərdar olmaları zəruridir. Hər bir döyüşçü öz manevrini başa düşməlidir. Planla bərabər, üzərində bütün məntəqələri yox, yalnız əsas və yaxın yerlərin istiqamətini göstərən kiçik çertyojlar tərtib etmək lazımdır.

Aydındır ki, “öz manevrini anlamaq” üçün hərəkət edilən ərazi barədə aydın təsəvvürə malik olmaq lazımdır. Hərbi manevri anlamaq – çertyojda, planda, xəritədə, sxemdə və s. onun proyeksiyasını görmək deməkdir. Və bütün hərbi pedaqoqların müəllimi olan Suvorov çalışırdı ki, hər bir döyüşçü öz manevrini yalnız sözdə yox, həm də canlı hərəkətdə anlasın, bu manevrin məkan obrazına malik olsun, sxemi məkan kimi görməyi bacarsın.

Sərkərdənin intuisiyasının əhəmiyyətli rol oynadığı amillərdən biri də **vaxt duyumudur.** (İntuisiya latınca “intuitio” – “diqqətlə nəzərdən keçirmə” – hər hansı obyektin, hadisə və situasiyanın mahiyyətinə şüuraltı olaraq duymaq yolu ilə nüfuzetmə qabiliyyətidir [4, s.200]. Əbəs deyil ki, müharibəni çox vaxt obrazlı şəkildə vəznin və dəqiqənin işi adlandırırlar. Doğrudan da, müharibədə, əməliyyatların gedişində dəqiqələrin itirilməsi çox vaxt ahəngin tam pozulmasına bərabər olur.

Döyüşdə məqam seçmək, sözün əsl mənasında, həlledici əhəmiyyət kəsb edəndə zaman amili xüsusilə mühüm rol oynayır. Hərb tarixi bunu təsdiq edən faktlarla zəngindir. Məsələn: Marafon döyüşündə məşhur “yürüş hücumu”nun vaxtının sərkərdə Militad tərəfindən düzgün seçilməsi bu döyüşün taleyini həll etmişdir. Tarixçilər qeyd edirlər ki, həmin döyüşdə hər şey son dərəcə dəqiq hesablanmışdı. Belə ki, bir dəqiqə ləngimək, yaxud tələsmək tam məğlubiyyətə bərabər idi.

Nümunə kimi məşhur Austerlits döyüşünü də misal göstərmək olar. Gəlin, Napoleonun özünü “dinləyək”: *“Əgər hücuma altı saat əvvəl başlasaydıq, biz bu döyüşü uduzacaqdıq”* [3, s.292].

Bəs məqam seçmək psixoloji cəhətdən necə həyata keçirilir? Psixologiya elminin müasir səviyyəsi bu sualın cavabını tam açmağa imkan vermir. Aydındır ki, burada dəqiq hesab aparmaq bacarığı müəyyən rol oynayır, lakin problemi onunla məhdudlaşdırmaq doğru olmaz. Qələbə ilə nəticələnəcək hücumun dəqiq vaxtını komandir intuitiv şəkildə hiss edə bilər. Yeri gəlmişkən, bu keyfiyyət komandir üçün rasional hesablama bacarığından daha gərəklidir, çünki döyüş zamanı hücumun vaxtını müəyyənləşdirmək üçün bəzən elə hesablamalar aparmaq lazım gələr ki, nəinki Napoleon səviyyəli sərkərdələr, hətta Nyuton kimi alimlər də çaşıb qala bilər və həmin hesablama əməliyyatına sərf olunan vaxt hücumun özünə tələb olunan vaxtı üstələyər. Aydındır ki, belə məqamlarda əsas söz intuisiyanındır.

Bir çox görkəmli sərkərdələr döyüş meydanından uzaqda ola-ola həmin döyüşün taleyini həll edən gözəl zaman duyumu, məqam seçmək bacarığı nümayiş etdirmişlər. Necə, hansı yolla? Görünür, burada əsas rol vaxtla bağlı təsəvvürlərə məxsusdur. Hadisələrin zaman axınını, ayrı-ayrı əlamətlərə görə hadisələrin ritmini duya bilən komandirlər, heç şübhəsiz ki, döyüşdə daha çox uğur qazanırlar.

Birinci Qarabağ müharibəsinin bəzi məqamlarına yuxarıda dediklərimizin fonunda baxanda müəyyən müqayisələr aparmağa ehtiyac duymaya bilmirsən. Çünki bu müharibədə bizim ara-sıra nail olduğumuz uğurların, məruz qaldığımız acı məğlubiyyətlərin səbəblərini, bəzi adamların dediyi kimi, yalnız düşmənin gücündə (yaxud gücsüzlüyündə), adamların psixologiyasında, arxa cəbhənin təşkilində axtarmaq, yalnız bu faktlarla məhdudlaşmaq doğru olmaz. Hər şeyi öz adı ilə çağırmaq lazımdır. Yüksək döyüş vərdişi, zəngin mənəviyyat əsgərə öhdəsinə düşən vəzifəni lazımi səviyyədə icra etmək üçün gərəkdir. Amma əsgər hücum etmək ehtirası ilə qovrula-qovrula köks ötürürsə, yalnız müdafiə, gözləmə mövqeyində dayanmaqdan yorulub bezirsə, hələlik yüksək məkan və zaman fəhmi ilə öyünməyə əsas yoxdur. Əlbəttə, o vaxt uğurlu Goranboy, Ağdərə əməliyyatları zamanı biz zaman və məkan amillərinin rolunu qiymətləndirə bilən komandirlərimizin şücaətinə fərəhləndik. Lakin təəssüf ki, həmin keyfiyyətlər bütün cəbhə miqyasında fəaliyyətimizi tənzimləyən sabit dəyərlərə çevrilmədi. Halbuki bunun üçün strateji təşəbbüs həmişə bizim əlimizdə olub: müharibə hər qarışına, cığırına bələd olduğumuz Azərbaycan torpağında gedirdi və düşmən kəşfiyyatı nə qədər effektli işləsə belə, torpaqlarımızı bizim bildiyimiz səviyyədə öyrənə bilməz. Partizan hərəkatına başlamaq üçün Azərbaycanın hər cür potensial imkanı, taktiki üstünlüyü, hüquqi cəhətdən əsaslana biləcəyi dəlillər var idi. Lakin təəssüf ki, bu məsələyə də əhəmiyyət verilmədi.

Müharibədə hər anın öz hökmü olur. Bətnində qələbə gəzdirən bircə anı əldən buraxmaq, yaxud onu qabaqlamaq ən acı məğlubiyyətlərə gətirib çıxara bilər.

Bütövlükdə müharibənin, eləcə də ayrı-ayrı əməliyyat və döyüşlərin planını tərtib etmək komandirlik fəaliyyətinin ən mühüm tərkib hissələrindən biridir. Nəzərə almaq lazımdır ki, hərbi planlaşdırma xüsusi növ planlaşdırmadır. Burada hərbi rəislərin intellektual fəaliyyəti ilə bağlı bütün çətinliklər xüsusi kəskinliklə aşkara çıxır.

Komandirlik fəaliyyəti əslində daimi və fasiləsiz planlaşdırma deməkdir. Hərçənd, müharibənin mahiyyəti eyni fasiləsizliklə planlaşdırmaya əks müqavimət göstərir. Yalnız bu mübarizədə öz iradəsi ilə müharibənin təbii mahiyyətinə qalib gələn komandir düşmən üzərində qələbəyə ümid bəsləyə bilər. Hərbi planlaşdırma komandirdən, ilk növbədə, böyük təmkin və ehtiyatlılıq tələb edir. Bu o deməkdir ki, sərkərdə həddən artıq müfəssəl, olduqca tələsik, eləcə də vaxtından əvvəl planlaşdırmadan, daha dəqiq desək, planı vaxtından əvvəl qəbul etməkdən çəkinməlidir. Bunun yalnız bir səbəbi var: müharibədə şərait fasiləsiz olaraq dəyişir və heç bir planda bu dəyişikliklər əvvəlcədən nəzərə alına bilməz. Lakin bu heç də o demək deyil ki, plan nə qədər xəsisliklə hazırlansa, bir o qədər yaxşıdır [3, 263]. İdeal plan mümkün olan bütün şeyləri müəyyən edir və bu mənada nə qədər çox müəyyən edirsə, prinsipial cəhətdən o qədər yaxşıdır.

Planda qabaqcadan görünməyən hər hansı bir cəhəti aydınlaşdırmağa cəhd edilirsə, bu cür plan nəinki pisdir, hətta ziyanlıdır. Əhatəli plan tərtib etmək arzu olunan, lakin risk tələb edən işdir və komandir bu cür riskə nə vaxt gedə biləcəyini dəqiq bilməlidir. Bunu nəzərə alan görkəmli hərb nəzəriyyəçisi Klauzevist yazır: *"Şəraiti, nə baş verəcəyini bilmədən nə isə müəyyən etməkdənsə, onu qeyri-müəyyən saxlamaq daha yaxşıdır"* [3, s.263]. Komandirlik fəaliyyətində planlaşdırmanın necə əhəmiyyətli rol oynadığını Napoleonun planlaşdırma manerasının nümunəsində nəzərdən keçirsək, bir sıra maraqlı məqamlarla rastlaşarıq: Napoleon heç zaman əvvəlcədən hərbi yürüşləri, əməliyyatları detalına qədər planlaşdırmamış, yalnız əsas məqsədi və xronoloji araşdırıcılığı müəyyən etmişdir.

### İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Бонапарт, Н. Избранные произведения / Н. Бонапарт. – Москва: – 1941. т. I. – 351 с.
2. Драгомиров, М.И. Одиннадцать лет. 1895 – 1905: / М.И. Драгомиров. – Санкт-Петербург: Сб. оригинальных и переводных статей. В 2-х т. – 1909. т. 2. – 316 с.
3. Теплое, Б.М. Т 34 Избранные труды: В 2-х т. Т. I. / Б.М. Теплое. – Москва: Педагогика, – 1985. – 328 с.
4. Словарь иностранных слов / – Москва: Русский язык, – 1986, – 608 с.

**Аннотация**
**Некоторые психологические аспекты командирской деятельности**
**Алисафдар Гусейнов**

"Войну выигрывают генералы и командиры". В этой предельно простой фразе есть тонкая правда, отражающая суть военного искусства. Ум командира, командирское мышление и компетентность являются одними из важнейших факторов, определяющих победу в войне. Не случайно исследователи, анализирующие военную науку с разных сторон, вновь и вновь возвращались к этой проблеме и делали важные научные выводы на основе наблюдений за всемирно известными военными и генералами.

Думаем, что статья, которую мы написали, ссылаясь на накопленный нами опыт в области систематизации военной науки и создания ее совершенной истории, более или менее поможет понять военную науку как науку, связанную с психологией, логикой и историей, и научиться урокам победы от знаменитых полководцев мира.
**Ключевые слова:** командир, война, операция, интуиция, ум, психологический

**Abstract**
**Some psychological aspects of team activity**
**Alisafdar Huseynov**

"Wars are won by generals and commanders". There is a subtle truth in this extremely simple phrase that reflects the essence of military art. The mind of a commander, command thinking and competence are among the most important factors determining victory in a war. It is no coincidence that researchers analyzing military science from different angles returned to this problem again and again and made important scientific conclusions based on observations of world-famous military men and generals.

We think that the article that we have written, referring to the experience we have accumulated in the field of systematizing military science and creating its perfect history, will more or less help to understand military science as a science related to psychology, logic and history, and to learn the lessons of victory from the famous generals of the world.
**Keywords**: commander, war, operation, intuition, mind, psychological

*Məqalə redaksiyaya daxil olmuşdur: 02.02.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 08.02.2023*
*Çapa qəbul edilmişdir: 10.02.2023*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№4/2022, səh. 38-43**
***HƏRBİ NƏZƏRİ ELMLƏR*** ***MILITARY THEORETICAL SCIENCES***

UOT 355/359

# YOLUXUCU XƏSTƏLİKLƏR VƏ HƏRBİ QULLUQÇULARIN ŞƏXSİ GİGİYENASI

**polkovnik Elçin Salmanov**
*Milli Müdafiə Universiteti*
E-mail: elcinsalmanov2021@gmail.com

***Xülasə.*** Məqalədə yoluxucu xəstəliklər haqqında ümumi anlayış, yoluxucu xəstəliklərin yayılma yolları, yoluxma mənbələri və yoluxucu xəstəliklərdən qorunma yollarından bəhs edilir. Həmçinin hərbi qulluqçunun şəxsi gigiyenasının, bədən qulluğunun həyata keçirilməsinin ümumi qaydaları məqalədə öz əksini tapmışdır.

**Açar sözlər:** hərbi qulluqçular, şəxsi gigiyena, yoluxucu xəstəliklər, parazitlər və patogen mikroorqanizmlər, profilaktik tədbirlər

## Giriş

**Yoluxucu xəstəliklər və patogenlər (törədicilər) haqqında anlayış.** Yoluxucu xəstəliklər iki bioloji obyektin – makroorqanizm və mikroorqanizmin qarşılıqlı təsiri nəticəsində əmələ gəlir. İnsan, heyvan və bitkilərdə müxtəlif xəstəlik əmələ gətirən mikroorqanizmlərə “patogen” və ya “xəstəlik törədənlər” adı verilir. Patogen mikroorqanizmlər təbiətdə geniş yayılmışdır ki, bu da onların təkamül prosesində bitki, heyvan və insan orqanizminə uyğunlaşaraq onların hesabına yaşamaq qabiliyyəti qazanması ilə əlaqədardır. Mikrobun patogenliyi onun növ əlamətidir. Bununla yanaşı, digər növlərin ayrı-ayrı ştamları az və ya çox patogen olur. Patogen mikrobun xəstəliktörətmə qabiliyyətinin dərəcəsinə virulentlik deyilir ki, bu da fərdi əlamətdir. Yoluxucu xəstəliklərin törədicilərinin insan qrupları arasında yayılması prosesinə *epidemik proses* deyilir.

**Yoluxucu xəstəliklər və patogenlərə yoluxma mənbələri**. Aydındır ki, yoluxucu xəstəliklərin yayılması üçün infeksiya mənbəyi, başqa sözlə desək, infeksiyalı xəstə və ya infeksiya daşıyıcısı olmalıdır. Məlum olduğu kimi, əsas infeksiya mənbələri infeksiyalı xəstə insanlar, heyvanlar və ətraf mühitin abiotik amilləridir. İnsan və heyvanlar infeksiya daşıyıcıları, infeksiyalı torpaq, su, hava isə infeksiya saxlayıcılarıdır. Adı çəkilən mənbələr *infeksiya* törədicinin yaşaması, çoxalması və toplanması üçün əlverişli olan təbii mühitdir.

Parazitlərin qruplarına uyğun olaraq, parazitologiya üç qrupa ayrılır: helminthologiya, aracxnoentomologiya (buğumayaqlılar) və protozoologiya.

**Yoluxucu xəstəliklərin yayılma yolları**. Hava, su, qida, məişət əşyaları, həmçinin canlı daşıyıcılar (həşəratlar) xəstəliyi patogen xəstədən və ya xəstəliyin daşıyıcısından sağlam orqanizmə ötürərək infeksiyaların yayılmasında əsas amil hesab olunur.

*İnfeksiyanın hava vasitəsilə yayılması,* başqa sözlə, infeksiyanın yayılmasında hava iştirak etdikdə bu yol ən qısa yol olur. Törədiciləri, əsasən tənəffüs yollarında yerləşən xəstələrdə orqanizmdən nəfəsvermə, danışıq, asqırma, öskürmə zamanı xaric olur. Məlum olduğu kimi, tənəffüs yollarında mikroblar əsasən selikli qişanın üzərində yerləşir. Bu səbəbdən də onlar həm selik damcıları, həm də həmin orqanın iltihabı nəticəsində oradan çıxan eskudatla (maye) birlikdə xaric olur. Bu halda öskürmə və asqırma mikrobların daha uzaq məsafəyə səpələnməsinə səbəb olur. Tərkibində törədici olan selik damcılarının ətrafa yayılması onların ölçüsündən asılı olur. 100 – 200 mkm ölçülü böyük selik damcıları kinetik enerjisi hesabına 2 – 3 metr məsafəyə qədər yayıla bilir. Kütlələrinin böyük olması hesabına isə bunlar havada tez çökür və yerdə olan tozları infeksiya ilə “çirkləndirə” bilir. Ortaölçülü (20 – 100 mkm) selik damcıları isə, əksinə, az məsafəyə yayılıb gec (≈10 dəq.) çökə bilir. 1 – 10 mkm ölçülü daha kiçik selik damcılarının öskürmə və asqırma zamanı ≈1 metr məsafəyə qədər yayıla bilməsi məlumdur. Buna baxmayaraq, kiçikölçülü selik damcıları kütlələrinin az olması hesabına uzun müddət havada qala və hava axını vasitəsilə uzaq məsafələrə yayıla bilir.

Digər xüsusi diqqət tələb edən amillərdən biri də odur ki, selik damcıları tez quruyaraq toz halına düşür və yerə tökülərək əşyaların üzərinə çökür. “İnfeksiyaya yoluxmuş tozlar” isə, əgər belə demək mümkündürsə, müxtəlif hərəkətlər zamanı havaya qalxaraq, yenidən tənəffüs yolları ilə sağlam orqanizmə daxil ola bilir. Nəzərə almaq lazımdır ki, quruma prosesində bir çox xəstəlik törədicilərinin məhv olmasına baxmayaraq, vərəm çöpləri kimi qurumaya davamlı törədicilərlə bu yolla da yoluxma mümkündür.

Deyilənlərdən aydın olur ki, infeksiya törədiciləri ilə yoluxmanın ən asan yolu hava-damcı yoludur. Havada mikrobları tələf etmək üçün əhəmiyyətli vasitə olmadığına görə bu yolla yayılan xəstəliklərə qarşı mübarizədə xəstələrin izolyasiyasının böyük əhəmiyyəti vardır.

*İnfeksiyanın su vasitəsilə yayılmasının* əsasında patogen mikroblarla suyun çirklənməsi dayanır. Bu proses müxtəlif yollarla, məsələn: paltar yuduqda, duş qəbul etdikdə və s. hallarda baş verir. Patogen mikroblarla suyun çirklənməsinin başlıca yolu çirkab sularının su hövzələrinə axıdılmasıdır.

Qeyd etmək lazımdır ki, patogen mikroblarla çirklənmiş su infeksion xəstəliklərin yayılmasında mühüm rol oynayır. Adətən, su ilə yayılmış infeksion xəstəliklər kütləvi (epidemik) xarakter alır. Məlum olduğu kimi, su vasitəsilə, əsasən bağırsaq infeksiyaları, o cümlədən də leptospirozlar geniş yayılır. Tulyaremiya və bruselloz xəstəliklərinin də su vasitəsilə yayılması mümkündür. Heyvanlar arasında monqo, dabaq, salmonelloz, Kü-qızdırması, qara yara və s. kimi xəstəliklərin də məhz bu yolla yayılması məlumdur.

*İnfeksiyaya yoluxmada torpağın rolu* patogen mikrobların infeksiya mənbələrindən müxtəlif yollarla torpağa düşərək, onu çirkləndirməsi ilə müəyyən olunur. Bu halda torpaqda patogen mikrobların yaşama müddəti törədicinin bioloji tərkibindən, habelə torpağın fiziki, kimyəvi və bioloji xassəsindən asılı olaraq müxtəlif olur. Torpaq patogen mikroblarla çirkləndikdə bu mikrobların torpaqdan bilavasitə orqanizmə daxil ola bilməsi çox az hallarda mümkün olur. Belə ki, torpaqdan mikroblar orqanizmə əsasən dolayı yollarla daxil olur. Məsələn: insanların qurd xəstəliklərinə yoluxmasında torpaq bəzən spesifik yoluxdurucu kimi iştirak edir.

Torpaq toz şəklində də canlıların (o cümlədən də insanların) müxtəlif xəstəliklərə (məsələn: vərəm xəstəliyinə) yoluxmasına səbəb ola bilər. Törədiciləri spor əmələ gətirən tetanus, qarayara və s. kimi infeksiyalara yoluxmada torpağın iştirakı daha çoxdur.

Bütün bunlarla bərabər, torpağın müxtəlif tullantılarla, xüsusən də üzvi maddələrlə çirklənməsi epidemioloji nöqteyi-nəzərdən böyük təhlükədir. Belə ki, bu cür torpaqlar müxtəlif parazitlərin, o cümlədən siçovul və milçəklərin inkişafı üçün əlverişli şəraitdir. Bu səbəbdən də onlar sürətlə artaraq, çoxalırlar ki, bu da, öz növbəsində, müxtəlif yoluxucu xəstəliklərin yayılmasına geniş imkan yaradır.

*İnfeksiyaya yoluxmada qida məhsullarının rolu* ondan ibarətdir ki, bir sıra infeksion xəstəliklərin yayılmasında yeyinti məhsulları fəal iştirak edir. Süd və süd məhsullarının epidemik prosesə qoşulması nəticəsində infeksion xəstəliklərin yayılması kütləvi xarakter alır. Belə ki, süd epidemiyaları çox vaxt öz xüsusiyyətlərinə görə su epidemiyalarını xatırladır (xəstəliyin tez inkişafı, kütləvi xarakter alması və s.). Süd, kökə, müxtəlif kremlər kimi qida məhsullarının hazırlanması onların patogen mikroblarla çirklənməsinə, nəticədə qida toksikoinfeksiya epidemiyalarının baş verməsinə səbəb ola bilər [1; 5].

Müasir müharibələrdə, həmçinin də dinc şəraitdə qoşunların şəxsi heyəti arasında epidemiyaların yayılmasının qarşısının alınması və yoluxucu xəstəliklərin profilaktikası böyük əhəmiyyət kəsb edir. Bu zaman şəxsi heyət arasında yoluxucu xəstəliklərin yayılmasında müvəqqəti zəbt olunmuş rayonların əhalisi və hərbi əsirlər xüsusi təhlükə yaradan amillər hesab olunur. Bu işdə hərbi qulluqçuların həyat və məişət şəraitinə, yerləşmə və döyüş fəaliyyəti rayonuna, eləcə də döyüş meydanından meyit və cəsədlərin yığılmasına nəzarətin artırılması çox vacibdir. Belə hallarda profilaktik tədbirlər hərbi qulluqçuların həyat, məişət və döyüş fəaliyyətinin nizamnamələrin tələblərinə uyğun qurulmasına yönəldilir. Bu tədbirlər epidemik infeksion xəstəliklərin şəxsi heyət arasında yayılmasının qarşısını almaq, həmçinin yayılmış xəstəliyin lokallaşdırılması və ləğv edilməsi üçün aparılan kompleks tədbirlərdir. Tibb xidməti bu tədbirləri bütün səviyyəli komandirlər, ərzaq, əşya, və digər xidmətlərlə qarşılıqlı münasibətdə təşkil etməlidir. Tədbirlər siyahısına döyüş meydanının insan və heyvan cəsədlərindən təmizlənməsi, ölənlərin dəfn edilməsi zamanı sanitariya tədbirlərinin yerinə yetirilməsi,

yoluxucu xəstəliklərin təbii ocağında, eləcə də əhalidə yayılmasının qarşısını almaq üçün profilaktik tədbirlərin həyata keçirilməsi daxil edilir.

Hərbi qulluqçular arasında yoluxucu xəstəliklərin ilkin simptomlarının erkən aşkarlanması onların sağlamlıq vəziyyətinə, ağırlaşmaların qarşısının alınmasına, onlarda sağlam həyat tərzi vərdişlərinin formalaşmasına xidmət edir. Yoluxucu xəstəliklərin erkən aşkarlanması və izolyasiyası tibbi təxliyələr zamanı infeksiyanın qarşısının alınması üçün tədbirlər görülməsinə imkan verir.

Hərbi qulluqçular arasında yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması üçün epidemik ocaqda dezinfeksiya, dezinseksiya, deratizasiya və sanitar maariflənmə işləri ilə yanaşı, həm də profilaktik peyvəndlər və epidemik göstərişlə ümumi profilaktika aparılır.

Hər bir hərbi qulluqçunun şəxsi gigiyenası xəstəliklərin qarşısının alınmasına, sağlamlığın möhkəmlənməsi və qorunmasına, döyüş hazırlığının, iş qabiliyyətinin yüksəlməsinə şərait yaradan gigiyenik norma və davranış qaydaları toplusudur. Bu baxımdan, şəxsi heyətin yerləşdiyi ərazidəki əlverişsiz amillərin onların sağlamlığına mənfi təsirini vaxtında aşkarlamaq, onların yerləşmə şəraitinə tibbi nəzarət tədbirlərini həyata keçirmək çox vacibdir. Ayaqqabılar və geyim üçün quruducuların olması, tullantıların vaxtında kənarlaşdırılması, keyfiyyətli içməli su ilə təminat və s. amillər də bu qəbildən olan işlərdəndir.

Keyfiyyətsiz ərzaqdan istifadəyə yol verməmək, vaxtı keçmiş ərzaqdan istifadənin qarşısını almaq, ərzağın zəhərləyici və toksiki-bioloji maddələrlə çirklənməsini vaxtında aşkarlamaq, şəxsi heyətin keyfiyyətli ərzaqla qidalanmasını təmin etmək və s. kimi zəruri fəaliyyətlər xoşagəlməz halların yaranmasına yol verməyən tədbirlərdir. Bu tədbirlərin uğurla nəticələnməsi qazan təminatı normasının tam verilməsi, əsgər yeməyinin qida dəyərinin orqanizmin fizioloji ehtiyacına və ərzağın saxlanma qaydasının sanitar normalara uyğun olması, kulinar işlənməsi, ərzaq anbarında, mətbəxdə, eləcə də tədarük və istehsalat yerlərində qida maddələrinin keyfiyyətinin daima nəzarətdə saxlanılması ilə üzvi surətdə bağlı olur.

Qida məhsullarının keyfiyyətinə, kondisiyasına, saxtalaşdırılmasına və zəhərləyici, radioaktiv və bioloji konseregen maddələrlə çirklənməsinə şübhə olduqda, eləcə də qənimət kimi götürülmüş məhsullardan istifadəyə zərurət yarandıqda onların ekspertizası məcburi qaydada həyata keçirilməlidir. Bu tədbirlər sırasına qidalanma obyektləri işçilərinin mütəmadi tibbi müayinəsinin keçirilməsi də daxildir.

Şəxsi heyətin keyfiyyətsiz və ya çirklənmiş sudan istifadə etməməsi üçün su mənbələrinin bakterioloji müayinələrinin aparılması yolu ilə onların yararlılığının təyin olunması, su təchizatında çalışanların sağlamlıq vəziyyətinin yoxlanılması, suyun saxlanılmasına və daşınmasına nəzarət də vacib tədbirlərdən hesab olunur. Belə ki, bu tədbirlər su təchizatı mənbələrinə, suyun tədarükü və təmizlənməsinə, su təchizatı avadanlıqlarına və onların istismarına, su təchizatı normalarına, suyun hansı məqsədlə (içməli, təsərrüfat, texniki) istifadəyə yararlı olmasına təminat verir.

Ərazilərin təmizliyinin və ətraf mühitin vəziyyətinin (tullantıların toplanması və zərərsizləşdirilməsi üçün yerin seçilməsi, tullantı sularının axıdılması, xarici ayaqyolu və zibil tutarlarının vaxtında təmizlənməsi, zibil və tullantıların çıxarılması üçün xüsusi nəqliyyatın ayrılması, dezinfeksiya tədbirlərinin səmərəliliyi) daimi nəzarətdə saxlanması da az əhəmiyyət kəsb etməyən məsələlərdəndir.

Bu zaman hamam-camaşırxana xidməti və hərbi qulluqçuların şəxsi gigiyena qaydalarına əməl etmələri də daxil olmaqla, şəxsi heyətin əşya əmlakı ilə təmin olunmasına və hamamda mütəmadi çimizdirilməsinə, bu zaman onlara bədən baxışlarının keçirilməsinə, yumanın keyfiyyətinə, mələfələrin dezinfeksiyasına və vaxtaşırı dəyişdirilməsinə nəzarətin təşkil edilməsinə, dezinfeksiya tədbirlərinin vaxtında aparılmasına, hamam-camaşırxanada çalışanların sağlamlıq vəziyyətinin yoxlanılmasına böyük zərurət vardır.

Peşə və somatik xəstəliklərin, zədələnmə və travmaların qarşısının alınması məqsədilə kimyəvi-bioloji amillərin hərbi qulluqçuların orqanizminə təsirinə nəzarətin olması da çox vacibdir. Şəxsi gigiyenaya əməl edilməsi, bədənin gigiyenik saxlanılması, bədənin möhkəmlənməsi qaydalarına riayət edilməsi, ağız boşluğuna, geyim və ayaqqabıya qulluq, həmçinin də sağlamlıq üçün zərərli olan

vərdişlərin qarşısının alınması nəzərdə tutulur. Hər bir hərbi qulluqçu şəxsi və ictimai gigiyena qaydalarına ciddi riayət etməli, öz orqanizmini gündəlik möhkəmləndirməli, fiziki təkmilləşdirilməsinə can atmalıdır [2; 8].

Digər bir məsələ də insan orqanizmində yaşayan parazitlərdir. Məlum olduğu kimi, bir çox xəstəliklərin yaranma səbəbi məhz parazit qurdlardır. İnsan orqanizmində parazitlərin yaşaması ilk dəfə 1681-ci ildə müəyyən edilmişdir. Parazit qurdların törətdiyi xəstəlik helmintoz, onları öyrənən elm sahəsi isə helmintologiya adlanır. Müəyyən edilmişdir ki, insan orqanizmində 250 növdən çox parazitlik edən helmint vardır. Parazitlərin insan orqanizminə düşməsinin səbəbləri müxtəlifdir. Əlləri yumadan süfrəyə oturmaq, torpaq, toz, uşaqların dırnaqlarını yeməsi, çiy məhsullarla, əsasən də ət, balıq məhsulları ilə qidalanma orqanizmdə qurdların yaranmasına səbəb olur. İnsan orqanizmində ən çox askaridlər, tükbaş qurd, lambliya, bizquyruq qurdlar, əyribaş qurdlar – nekator, strongiloid qurdları, şistosomalar, toksokar, trixinella, dirofillariya qurdları, exinokok, opistorxis, klonorxis, fassiola, paraqonimus qurdları və enli lentşəkilli qurdlara – öküz soliteri, donuz soliterinə rast gəlinir. Bunlardan əlavə, orqanizm üçün daha təhlükəli olan bir neçə parazit qurdlar da vardır, misal olaraq, əsasən inkişaf etməmiş ölkələrdə rast gəlinən və insanlarda korluğa gətirib çıxara bilən onxoserkoza filarial qurdunu göstərmək olar. İnsan immuniteti bu parazitlə mübarizə apara bilmir. Orqanizm üçün təhlükəli olan qurdlardan biri də fil xəstəliyi adlanan xəstəlik törədicisi olan Elefantiaz qurdudur. Adətən, həşəratın dişlədiyi yerə düşən bu qurd orqanizmin limfa sistemini zədələyir və olduğu nahiyə şişməyə başlayır. 17 ilə qədər insan bədənində yaşaya bilən Elefantiaz orqanizmin digər hissələrinə də keçə bilir və adamlar bəzən öz bədənində onun hərəkətini hiss edir.

Həşəratlar (buğumayaqlılar) vasitəsilə bir çox virus xəstəlikləri də yayıla bilir. Buğumayaqlılar vasitəsilə yayılan xəstəlikləri 2 qrupa bölürlər. Yalnız buğumayaqlılar vasitəsilə yayılanlar səpgili yatalaq, malyariya, sarı qızdırma, həm buğumayaqlılar, həm də abiotik amillər vasitəsilə yayılan xəstəliklər isə taun və tulyaremiyadır.

Məlum olduğu kimi, ibtidai heyvanların törətdiyi xəstəliklər protozoologiya, birhüceyrəlilərin törətdiyi xəstəlik isə protozooz adlanır. Onları parazitlik etdiyi orqana uyğun olaraq aşağıdakı kimi qruplaşdırmaq olur:

– müxtəlif toxumalarda və qanda parazitlik edənlər (Tipanosom sinir sisteminə qanla daxil olur);
– bağırsaqda parazitlik edənlər (amöb və lyambliya), ağız boşluğunda parazitlik edənlər, sidik-cinsiyyət orqanlarında parazitlik edənlər [3; 4].

Sonda bəzi məqamları da qeyd etmək vacibdir. Bunlara dəriyə, saç və dırnaqlara, ayaqlara və geyimə qulluq kimi şəxsi gigiyena qaydaları daxildir. Aydındır ki, hərbi qulluqçuların şəxsi və ictimai gigiyena qaydalarını yerinə yetirməsi üçün hərbi hissədə zəruri şərait yaradılmalıdır. Hərbçilərin şəxsi gigiyena qaydaları səhər dişlərin təmizlənməsi ilə yanaşı, qurşağa qədər yuyunmasını, hər qida qəbulundan əvvəl əllərin yuyulmasını, yatmazdan əvvəl əl-üzün, dişlərin, ayaqların yuyulmasını, vaxtlı-vaxtında üzün qırxılmasını, dırnaqların kəsilməsini və saç düzümünün səliqəyə salınmasını, corabların, alt geyim dəstinin, yataq dəstinin vaxtaşırı dəyişdirilməsini, hamamda müntəzəm yuyunmanı, yatağın, ayaqqabının, geyim təchizatının təmiz saxlanılmasını və s. nəzərdə tutur.

*Dəriyə qulluq*. Dəri bədənin yalnız çöldən örtülməsi funksiyasını deyil, çoxlu sayda digər funksiyaları da həyata keçirir. Bu funksiyalardan ən başlıcası bədənin müdafiə olunmasıdır. Məlum olduğu kimi, dəridə tər və piy vəziləri yerləşir. Tər vəziləri xaricə tər ifraz edir, piy vəziləri isə piy yağları hasil edir. Tüklər dərinin nəmlik və elastikliyini qoruyur. Dəri xəstəliklərinin qarşısının alınması, sağlam görkəmin saxlanması üçün dəriyə düzgün qulluq edilməlidir. Dərinin açıq hissəsini hər gün, örtülü hissəsini isə həftədə 1 dəfədən az olmamaq şərti ilə (çox tərlədikdə və piy vəzləri nisbətən aktiv olduqda daha tez-tez) sabunla yumaq lazımdır.

Tük və dırnağın dərinin törəmələri olması məlumdur. Tüklər çox mikroskopik olduqları üçün nəmliyi, piy vəzilərinin ifrazatlarını və tərkibində yağlar olan maddələri özünə çəkir. Piy vəziləri xeyli şirə buraxdıqda (yağlı saçlar) saçlar 3 – 4, dəri quru olduqda 5 – 6 gündən bir yuyulur

*Saçlara qulluq*. Saçların təmiz saxlanılması üçün həftədə bir dəfədən az olmayaraq, yağlı saçları isə daha tez-tez sabunla yumaq lazımdır. Saçlar yuyulduqdan sonra hamam dəsmalı ilə qurulanmalı və

daranmalıdır. Bütün hərbi qulluqçuların saçları təbii istiqamətini saxlamaqla, qısa saç düzümü olmalıdır. Hər bir hərbi qulluqçunun küt dişləri olan fərdi plastmas darağı olmalıdır.

*Ayaqlara qulluq.* Ayaqların təmiz saxlanılması, onlara düzgün qulluq hərbi qulluqçunun döyüş hazırlığı və sağlamlığının qorunmasının vacib şərtidir. Mexaniki təsir və pis hazırlanmış ayaqqabı geyindikdə dərinin sürtülməsi nəticəsində sıyrılması yarana bilər ki, bu da hərbi qulluqçunun sıradan kənar qalmasına, hətta xüsusi müalicəsinə gətirib çıxara bilər.

Ayaq pəncələrinin dərisinə göbələk xəstəliklərinin yoluxmasına hamam, duş kabinəsi, idman zallarında olan ümumi ayaqqabılar (məsələn: tərliklər, rezin şap-şaplar (nəleyinlər)) səbəb ola bilər. Pəncə dərisi xəstəliklərinin yaranması şəxsi gigiyena qaydalarına riayət edilməməsinin nəticəsidir. Buna görə də hər gün yatmazdan əvvəl ayaqları yumaq, daha sonra dəsmalla dərini təmiz qurulamaq lazımdır. İstirahət saatlarında çəkmələrini dəyişib tərlik geyinmək, ayaqyalın gəzişmək dərini möhkəmləndirmək üçün faydalıdır. İfrat dərəcədə tərləmədən əziyyət çəkən şəxslər ayaqlarına xüsusilə diqqət yetirməli, corablarını tez-tez dəyişməli və yumalıdırlar.

*Geyim və ayaqqabıların gigiyenası.* Geyim həyat üçün mühüm rol oynayır. O, adamları soyuq, qar, yağış və yüksək günəş radiasiyasından, həmçinin də dərini müxtəlif çirklənmələrdən və digər zərərli təsirlərdən qoruyur.

Hərbi qulluqçulara Silahlı Qüvvələrin növündən asılı olaraq, geyim forması və əlavə paltar dəstləri müvafiq normalara uyğun verilir. Bunlara gündəlik, parad və buraxılış geyimi, xüsusi qoruyucu geyimlər aiddir. Bundan başqa, isti iqlimli bölgələrdə yüngül geyim, kəskin soyuq iqlimli bölgələrdə isə isti geyim əlavələri verilir. Paltarı qəbul edərkən onun oturuşuna diqqət yetirmək çox vacibdir. Belə ki, paltar bədənə sərbəst oturmalıdır. Düzgün seçilməmiş paltar insanın hərəkətlərini məhdudlaşdıra, enerji sərfiyyatını artıra bilir. Bu zaman nəfəsalma və qan dövranı da çətinləşə bilir. Paltar dərinin üst qatını qıcıqlandırmamalı, insanın subyektiv vəziyyətini çətinləşdirməməli və iş qabiliyyətini aşağı salmamalıdır. Ayaqqabılar baldırın və dabanın ölçülərinə uyğun olmalıdır. Böyük ölçülər sürtünmələrə, kiçik ölçülər isə hərəkətin məhdudlaşdırılmasına səbəb ola bilir. Buna görə də geyim formasını alan zaman paltar və ayaqqabıların ölçülərinə hərbi qulluqçuların diqqət yetirmələri çox vacibdir [5; 6; 7].

## Nəticə

Hərbi qulluqçuların sağlamlığının, döyüş qabiliyyətinin daim yüksək saxlanması və şəxsi heyət arasında yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınmasına yönəlmiş kompleks profilaktik tədbirlər arzuolunan nəticələrin alınmasına imkan verər.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ağayev, İ.Ə. Epidemiologiya. Dərslik. / İ.Ə. Ağayev, X.N. Xələfli, F.Ş. Tağıyeva – Bakı: Şərq-Qərb Nəşriyyat Evi, – 2012.
2. Nəbiyev, F.İ. Hərbi hissələrdə tibbi təminatın təşkili. Dərslik. / F.İ. Nəbiyev. – Bakı: Hərbi Nəşriyyat, – 2022. – 320 s.
3. Belyakov, V.D. Hərbi gigiyena və epidemiologiyadan dərs vəsaiti [Mətn]: ali məktəblər üçün dərs vəsaiti / V.D. Belyakov, Y.Q. Juk tərc. ed. İ.H. Səmədov, T.Ə.Tağızadə // – Bakı: Maarif, – 1987.
4. Əliyev, N.N. İnfektologiya / N.N.Əliyev, F.C.Tağızadə, – 2007.
5. Беляков, В.Д. Эпидемиология. Учебник. / В.Д. Беляков, Р.Х. Яфаев – Москва: Медицина, – 1989. – 416 с. 3.
6. Военная гигиена и эпидемиология [Текст]: учебное пособие / Под ред. В.Д. Беляков, Е.Г. Жук – Москва: Медицина, – 1988.
7. Военная гигиена [Текст]: учебное пособие / Под ред. Э.Д. Рыбальченко, Ф.А. Попов – Москва: Медицина, – 1979.
8. Кущь, И.И. Тыловое обеспечение подразделений в бою. [Текст] Военное издательство ордена Красного Знамени Министерства обороны СССР / И.И. Кущь. – Москва: – 1973.

**Аннотация**
**Анализ источниках инфекционных заболеваний, путях распространения и способах защиты**
**Эльчин Салманов**

В этой статье дается общее представление об инфекционных заболеваниях, источниках инфекционных заболеваний, путях распространения инфекционных заболеваний и способах защиты от инфекционных заболеваний. Также в статье указаны общие правила личной гигиены и ухода за телом военнослужащего.
**Ключевые слова:** военнослужащие, личная гигиена, инфекционные заболевания, паразиты, патогенные микроорганизмы, профилактические процедуры

**Abstract**
**Analysis of the sources of infectious diseases, distribution routes and methods of protection**
**Elchin Salmanov**

This article provides a general understanding of infectious diseases, sources of infectious diseases, ways of spreading infectious diseases, and ways to protect against infectious diseases. Also, the general rules of personal hygiene and body care of a military serviceman are indicated in the article.
**Keywords:** military personnel, personal hygiene, infectious diseases, microorganisms, sanitary and hygienic requirements, epidemiology

*Məqalə redaksiyaya daxil olmuşdur: 13.12.22*
*Təkrar işlənməyə göndərilmişdir: 23.12.2022*
*Çapa qəbul edilmişdir:17.01.2023*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№4/2022, səh. 44-50**
***HƏRBİ XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 355/359

# DÖVRÜN ERMƏNİ MİLLƏTÇİLƏRİ QAFQAZ İSLAM ORDUSU HAQQINDA

**general-polkovnik Bahtiyar Ersay**
*Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu*
E-mail: bahtiyarbaku@yandex.ru

***Xülasə.*** 1918-ci ilin mayında xalqımız öz müstəqilliyini elan edəndən dərhal sonra rəsmi müraciət əsasında Azərbaycana qardaş köməyinə gəlmiş Osmanlı hərbi qüvvələri ilə milli hərbi qüvvələrin bazasında Qafqaz İslam Ordusu yaradıldı. Bu ordunun yaradılmasından sonra Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini qorumaq, böyük dövlətlərin və beynəlxalq qüvvələrin Azərbaycanın dövlətçiliyinə qarşı istiqamətlənmiş təcavüzkar müdaxilələrinin qarşısını almaq, nəhəng güclər tərəfindən himayə olunan və silahlandırılan erməni-daşnak qırğınlarından xalqımızı xilas etmək mümkün oldu, hələ XX əsrin əvvəllərində bir sıra böyük qüvvələr tərəfindən himayə olunan erməni millətçi-təcavüzkarlığına ağır zərbə vuruldu və bütün ərazilərimizin Ermənistan adlandırılan bir dövlətin tərkibinə daxil edilməsinə yol verilmədi. Ona görə də XX əsrin əvvəllərindən elə bu günə qədər erməni tarixşünaslığında Qafqaz İslam Ordusu mövzusuna qarşı millətçi-şovinist bir yanaşma qalmaqdadır. Hazırkı məqalə də erməni tarixşünaslığında Qafqaz İslam Ordusu mövzusunun dəyərləndirilməsinə, təhlilinə həsr olunmuşdur.

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, Türkiyə ilə hərbi əməkdaşlıq, Qafqaz İslam Ordusu, erməni təcavüzü, Bakının azad olunması

## Giriş

XX əsrdə Azərbaycan xalqı tarixi proseslərin diktəsi ilə bir-birindən kəskin şəkildə fərqlənən siyasi-ideoloji cəmiyyətlərdə yaşamalı olmuşdur. Bu siyasi-ideoloji mühit həyatın bütün sahələrinə fərqli təsir göstərməklə yanaşı, Azərbaycan tarix elminin də ideya-siyasi istiqamətlərinə öz təsirini göstərmişdir. XX əsrin təxminən ilk iyirmi ili çar Rusiyası tərkibində olarkən Azərbaycan xalqının tarixi bir prizmadan, Azərbaycan Xalq Cümhuriyyəti dövründə digər bir prizmadan, sovet hakimiyyəti illərində və nəhayət, əsrin sonlarında daha fərqli prizmadan öyrənilirdi. Belə müxtəlif siyasi-ideoloji xətt və yanaşma Qafqaz İslam Ordusu mövzusunun araşdırılmasında və dəyərləndirilməsində də özünü göstərirdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə bu mövzunun obyektiv araşdırılmasına bəzi cəhdlər göstərilmişdir. Lakin tezliklə Azərbaycanda sovet hakimiyyətinin bərqərar edilməsi ilə Qafqaz İslam Ordusu mövzusuna tamamilə fərli mövqedən yanaşılmağa başlanıldı. Sovet ideologiyası üçün Qafqaz İslam Ordusu müsavat silahlıları ilə Türkiyə işğalçılarının təşkil etdiyi bir qüvvə idi. XX əsrin sonlarında Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Qafqaz İslam Ordusu mövzusunun öyrənilməsinə yenidən obyektiv metodologiya tətbiq edilməsinə başlandı. Bu mənada ideya-siyasi məzmununa görə Azərbaycan tarixşünaslığında Qafqaz İslam Ordusu mövzusunun öyrənilməsini dövrləşdirmək mümkündür. Erməni tarixşünaslığında isə Qafqaz İslam Ordusunu istər obyektivlik meyarına, istərsə də ideya-siyasi xəttinə görə bunu etmək mümkün deyildir. Ermənilər bolşevik, daşnak, sosialist, kommunist donunda olmasından asılı olmayaraq, Qafqaz İslam Ordusu mövzusuna öz ifrat millətçi mövqelərindən yanaşmışlar və yanaşmaqdadırlar. Hətta sovet dövlətinin sosialist beynəlmiləlçiliyi də erməni tarixçilərinin bu millətçi mövqeyinə hər hansı bir təsir göstərə bilməmişdir.

## Qafqaz İslam Ordusu hərəkatının şahidi olmuş ermənilərin mövzuya millətçi yanaşması

Qafqaz İslam Ordusu mövzusuna ifrat millətçi yanaşmanın ən fəal təmsilçisi, sözsüz ki, bu orduya qarşı mübarizənin təşkilatçısı, Bakıda hakimiyyəti qəsb etmiş Bakı Sovetinin rəhbəri Stepan Şaumyan idi. Qafqaz İslam Ordusu ilə bağlı erməni tarixşünaslığının ideya-metodoloji istiqamətlərini

müəyyənləşdirib formalaşdıran da əslində S.Şaumyan olmuşdur. Öz çıxışlarında, yazışmalarında və məqalələrində onun Qafqaz İslam Ordusu mövzusuna bəslədiyi millətçi-daşnak və ifrat bolşevik yanaşması erməni tarixşünaslığında birmənalı şəkildə davam etdirilməkdədir. Çünki Azərbaycanın müstəqilliyinə münasibətdə, ərazilərimizə iddialar irəli sürülməsində, Azərbaycan və türk xalqlarına qarşı düşmənçiliyində Stepan Şaumyan dövrü erməniliyi ilə bugünkü ermənilik arasında hər hansı bir siyasi-ideoloji dəyişikliyi görmək mümkün deyildir.

Azərbaycan xalqının milli-azadlıq mübarizəsinin genişlənməsinə, muxtariyyət və ya müstəqilləşmə istəklərinə qarşı S.Şaumyanda bitib-tükənməyən bir barışmazlıq var idi. O, Azərbaycan xalqının öz taleyinin sahibi olmasını, Bakı şəhərinin Azərbaycanın milli şəhərinə çevrilməsini heç cürə təsəvvür edə bilmirdi və bu istiqamətdə fəaliyyət göstərə biləcək qüvvələri də istisnasız olaraq milli və inqilabi düşmənlər kimi qəbul edirdi.

S.Şaumyan hələ 1918-ci ilin yanvarında "Бакинский рабочий" qəzetində çap etdirdiyi məqaləsində Azərbaycanın milli qüvvələrinin öz taleləri uğrunda mübarizəyə qalxmasını lənətləyir və milli hərbi qüvvələrin təşkilinə başlanması ideyasına qarşı barışmazlığını ifadə edirdi. Bu mənada o, Z.Tağıyev və M.Nağıyev kimi milyonçuların milli hərbi hissələr yaradılması üçün maliyyə vəsaiti ayırmasını da sərt tənqid edirdi [1, s.83]. S.Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti adından verilən bəyanatlarda isə bildirilirdi ki, milli qüvvələr və müsavatçılar milli hakimiyyət əvəzinə xarabaya çevrilmiş yaşayış məntəqələrini əldə edə biləcəklər [1, s.103]. Yəni başlanacaq milli-azadlıq hərəkatı bolşevik-daşnak qüvvələri tərəfindən amansızcasına məhv ediləcəkdir.

Stepan Şaumyan, hətta milli qüvvələr və bu qüvvələrin əsas təmsilçisi olan Müsavat partiyasının Azərbaycanın Rusiya tərkibində muxtariyyət qazanması ideyasını birmənalı şəkildə yaxın buraxmırdı və bunu bolşevizmlə bir araya sığmayacaq ideya kimi qiymətləndirirdi. Onun nəzərində Bakının bu muxtariyyətin paytaxtı elan edilməsi də mümkünsüz idi. 1918-ci ilin mart qırğınlarının törədilməsinə də S.Şaumyan bu mövqedən yanaşırdı. O, Bakıda milli qüvvələrin güclənməsinin qarşısını almaq üçün şəhərdə kütləvi milli qırğınların törədilməsinə zəmin yaratdı və minlərlə azərbaycanlının qırılmasına da münasibəti belə oldu ki, inqilab zamanı insanlar qırıla da bilər [1, s.156]. Həmçinin Bakıda baş verən qırğınları vətəndaş müharibəsi kimi dəyərləndirir və etiraf edirdi ki, bu qırğınların gedişində evsiz və kasıb müsəlmanlar kütləvi şəkildə ziyan görmüşlər [1, s.250].

S.Şaumyan Azərbaycanda milli azadlıq hərəkatının məhv edilməsi üçün Bakıdakı qırğınların erməni-daşnak qüvvələri ilə birlikdə həyata keçirildiyini də etiraf edir və bu qırğınların şüurlu şəkildə edildiyini bildirirdi: "...Daşnakların da 3 – 4 min nəfərlik silahlı milli hissələri var idi ki, o da bizim sərəncamımızda idi. Məhz onların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi. Lakin onun qarşısını almaq mümkün olmadı. Biz bu işə şüurlu surətdə getdik" [2, s.348].

Yazılarının birində S.Şaumyan 1918-ci ilin mart qırğınları haqqında belə deyirdi: "*Biz döyüşlərdə parlaq qələbə əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir. ...Onlar Bakıda üstün gəlsəydilər şəhər Azərbaycanın paytaxtı elan edilərdi*" [3, s.73].

Stepan Şaumyan Azərbaycan xalqının milli-azadlıq hərəkatına belə bir mövqedən yanaşırdı və bu yanaşma onun siyasi-millətçi təfəkkürünü ifadə edirdi. O, Azərbaycanın milli qüvvələrini, yəni Bakı şəhərini Azərbaycanın paytaxtına çevirmək istəyən qüvvələri milli-siyasi və şəxsi düşməni kimi görürdü və bu düşmənə qarşı kəskin mübarizəni də öz həyat və fəaliyyətinin başlıca məqsədi etmişdi.

S.Şaumyan Qafqaz İslam Ordusunu siyasi, ideoloji, hərbi və şəxsi düşməni kimi qəbul edirdi. Bu ordunun Bakı şəhərinin yad qüvvələrdən azad edilməsi uğrunda mübarizəsi ilə də barışa bilmirdi. Onun nəzərində Bakının Sovet Rusiyasından qoparılması Rusiyaya ən ağır zərbə vurulması demək idi [1, s.229].

S.Şaumyan Qafqaz İslam Ordusuna qarşı mübarizənin təşkili, idarə edilməsi və istiqamətləndirilməsinin ilhamçısı idi. O, Qafqaz İslam Ordusunun uğurlu fəaliyyətini yalnız Bakıdakı bolşevik hakimiyyətinin sonu kimi deyil, həm də şəxsi faciəsi kimi görürdü. Qafqaz İslam Ordusunun və Azərbaycanın milli qüvvələrinin Bakı şəhərinə yaxınlaşmasının qarşısını almaq üçün S.Şaumyan həm Bakıdakı imkanları bütünlüklə səfərbərliyə aldı, həm də bolşevik Rusiyasından hərbi qüvvə gətirilməsinə nail olmaqla yanaşı, erməni-daşnak qüvvələrini də ətrafına topladı. Lakin onun

Azərbaycanın milli qüvvələrinə və Qafqaz İslam Ordusuna qarşı barışmazlığı arzusunda olduğu nəticəni vermədi.

Stepan Şaumyanın oğlu və hadisələrin şahidi olan Suren Şaumyanın işıq üzü görmüş əsərində [4] də Qafqaz İslam Ordusuna və bütünlükdə Azərbaycan xalqının milli-azadlıq mübarizəsinə olan münasibəti də atasının münasibətindən heç nə ilə fərqlənmir. O da Azərbaycanın milli qüvvələrini, Qafqaz İslam Ordusu qüvvələrinin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi uğrundakı mübarizəsini bolşevik-daşnak mövqeyindən qiymətləndirir və bu qüvvələrə qarşı mübarizə aparılmasını xüsusi olaraq təşviq edirdi.

S.Şaumyanın Bakıda silahdaşı olmuş Anastas Mikoyan da sovet hakimiyyəti illərində çap etdirdiyi xatirələrində Qafqaz İslam Ordusu mövzusuna heç də fərqlənməyən bir yanaşma nümayiş etdirirdi [5]. Onun da fikir və əqidəsi belə idi ki, Oktyabr çevrilişindən sonra Bakıda ifrat bolşevik və daşnak qüvvələrinin hakimiyyəti təmin edilməli, bu şəhərdə milli maraqları təmsil edə biləcək hər cürə qüvvə məhv edilməli idi. A.Mikoyanın yazdığına görə, Bakı şəhərindən kənarda Azərbaycan ərazilərində müsavatçıların da daxil olduğu əks-inqilabi hakimiyyət bərqərar olmuşdu, bu qüvvələrə qarşı mübarizəni Bakıda hakimiyyəti ələ almış bolşevik-daşnak qüvvələrinin qarşısında dayanan başlıca məqsəd hesab edirdi. Azərbaycan ərazisində və Cənubi Qafqazda cərəyan edən bütün hadisələrə də A.Mikoyan məhz bu prizmadan qiymət verirdi. Azərbaycanın müstəqil olub Rusiyadan ayrılması onun nəzərində Rusiya bolşevizminə xəyanət idi. Osmanlı Türkiyəsinin müstəqil Azərbaycana kömək etməsinə qarşı barışmaz münasibət göstərən A.Mikoyan həmin köməyi Azərbaycanın işğal edilməsi və Türkiyəyə birləşdirilməsi kimi dəyərləndirirdi. Onun yazdığına görə, müstəqil olandan sonra da Azərbaycan ərazisində mülkədarlar və varlıların əks-inqilabi hakimiyyəti bərqərar oldu və bu hakimiyyət Türkiyənin işğalçı qoşunlarının Bakıya doğru irəliləməsini də hər vasitə ilə dəstəkləyirdi. Azərbaycan hökumətinin rəsmi müraciəti əsasında göndərilmiş türk hərbi və milli qüvvələrin Bakıya doğru irəliləməsinin qarşısının alınması üçün S.Şaumyanın Saak Ter-Qabrielyan adlı bir erməni V.Leninin yanına göndərməsini və Qafqaz İslam Ordusunun uğurlu yürüşünün qarşısının alınması üçün Rusiyadan kömək istəməsini A.Mikoyan zəruri qərar kimi şərh edir, sonra da böyük məmnunluqla yazırdı ki, Qafqaz İslam Ordusunun yürüşünün qarşısını almaq və fürsət əldə edərək neftin Rusiyaya daşınmasını təmin etmək üçün Rusiyadan Bakıdakı bolşevik-daşnak hakimiyyətinə böyük həcmdə hərbi və maliyyə dəstəyi göstərildi [5, s.148 – 149].

A.Mikoyan sonradan Qafqaz İslam Ordusuna qarşı cəbhə tutmuş Qırmızı Ordunun 3-cü briqadasının siyasi komissarı təyin edildi. Bu briqadanın komandiri isə elə A.Mikoyanın təbirincə, məşhur daşnak olan Hamazasp idi [2, s.150]. Onun daşnak kimi məşhurluğu minlərlə günahsız və silahsız azərbaycanlını qətlə yetirməsindən qaynaqlanırdı. Tutduğu vəzifə etibarilə də Qafqaz İslam Ordusu A.Mikoyan üçün düşmən qüvvə idi. Amma onun türk və Azərbaycan qüvvələrinə qarşı düşmənçiliyi yalnız hərbi vəzifəsindən irəli gəlmirdi. O öz siyasi-milli etiqadı və təfəkkürü etibarilə türklüyün qəddar düşməni idi və bunu xatirələrində də açıq şəkildə etiraf edirdi. Bu baxımdan o, S.Şaumyandan fərlənmədiyi kimi, ondan sonra bu mövzuya müraciət edən ermənilər də öz millətçi-ideoloji etiqadları baxımından A.Mikoyanın davamçıları idilər.

Bakı Sovetinin Qırmızı Ordusunun 3-cü briqadasının siyasi komissarı kimi A.Mikoyan Göyçaydan Bakıya qədər olan ərazidə baş verən döyüşlərin iştirakçısı idi. Təxminən bir ay ərzində bu sahədə gedən döyüşlərin şərhi ilə bağlı onun xatirələrində maraqlı məlumatlar mövcuddur. Bu xatirələrdə onun və silahdaşlarının Azərbaycan xalqının milli mübarizəsinə, bu mübarizədə onların köməyinə gəlmiş türk hərbi qüvvələrinə qarşı necə qənim kəsilməsinin şahidi olmaq mümkündür. Qafqaz İslam Ordusunun qarşısının alınması üçün İrandakı ingilis qüvvələrinin dəvət edilməsi ilə bağlı bolşeviklərlə sol eserlər və sol daşnaklar arasında Bakı Sovetində gedən mübarizə haqqında A.Mikoyanın xatirələrində maraqlı detallar mövcuddur. Məlumdur ki, bu mübarizədə sol eserlər və sol daşnaklar qalib gəldilər və general Denstervilin rəhbərliyi altında olan ingilis qüvvələri Bakıya dəvət edildi [5, s.163].

Qafqaz İslam Ordusunun fəaliyyəti dövründə Bakıda və Azərbaycanda cərəyan edən hadisələrin şahidlərindən biri də general Qavril Korqanovdur. Milliyyətcə erməni olan bu general Birinci Dünya

müharibəsi illərində Rusiyanın Qafqaz cəbhəsində xidmət edirdi. 1917-ci ilin Oktyabr çevrilişindən sonra Türkiyə cəbhəsində olan rus ordusu dağılmağa başladı. Belə bir vaxtda general Qavril Korqanov da rus ordusunu tərk edərək Bakıya gəlmişdir. General Q.Korqanov burada şahidi olduqlarını sonradan qələmə almış və öz xatirələrində Bakı və ətrafındakı hərbi-siyasi proseslərə daha geniş yer vermişdir [6]. Onun da təsvirində Qafqaz İslam Ordusuna və Azərbaycanın milli qüvvələrinə qarşı açıq-aydın ifrat millətçi yanaşma mövcuddur. Məsələn: o, Azərbaycanın yenicə formalaşmağa başlayan hərbi qüvvələrini "Azərbaycan tatarlarının bandaları" adlandırırdı və milli qüvvələrin milli azadlıq hərəkatının türk emissarlarının təhriki əsasında başlandığını qeyd edirdi. O, birmənalı şəkildə yazırdı ki, bolşevik Rusiyası Bakı nefti olmadan yaşaya bilməzdi və ona görə də Türkiyə Bakını Cənubi Qafqazdan ayırmaq istəyir. Bölgə əhalisinin milli tərkibində üstünlük təşkil edən azərbaycanlıların milli hökumət hüquqlarına isə müəllif istehza ilə yanaşırdı. Erməni generalı Türkiyənin Azərbaycanla bağlı siyasətini böyük dövlətlər tərəfindən dəstəklənən işğalçılıq siyasəti kimi qəbul edirdi və yazırdı ki, həmin dövlətlər Türkiyənin vasitəsilə Bakı neftinə sahib olmaq istəyirdi. Müəllifin yazdığına görə, ermənilərin Bakıda öz maraqları var idi və həmin maraqların qorunması üçün şəhərdə erməni hərbi qüvvələrinə dayaqlanan Erməni Milli Şurası yaradılmışdı. Yəni Bakı şəhərində ermənilərin antimilli fəaliyyəti erməni hərbi qüvvələrinə arxalanan Erməni Milli Şurası tərəfindən istiqamətləndirilirdi.

1918-ci ilin mart soyqırımının baş verməsini və gedişini də müəllif erməni maraqlarından təsvir etmişdir. Onun yazdığına görə, müsavat qüvvələri Bakı Sovetinə ultimatum verdi və tələbləri yerinə yetməyəndə silahlı iğtişaşlara başladı, erməni silahlı dəstələri də yalnız erməni məhəllələrinə müsavatçıların soxulmasının qarşısını almaq istəyirdi. Guya, bu iğtişaşlar zamanı müsavatçılar öz məqsədlərinə nail ola bilmədilər və Gəncəyə çəkilmək məcburiyyətində qaldılar.

General etiraf edirdi ki, Qafqaz İslam Ordusuna qarşı mübarizə üçün Bakı Sovetinin rəhbərliyi altında təşkil edilmiş 29 taborun şəxsi heyətinin 95 faizi erməni silahlıları idi. Müəllifin başqa bir etirafı da ondan ibarət idi ki, azərbaycanlı əhali öz nicatını türk hərbi qüvvələrinin Azərbaycana gəlməsində görürdü.

Bir hərbçi və hadisələrin şahidi kimi general Q.Korqanov bolşevik-daşnak, sonra isə Sentrokaspi-daşnak cəbhəsində hərbi proseslərin necə cərəyan etməsi haqqında maraqlı faktları dövriyyəyə gətirmiş, tərəflər arasında cəbhənin müxtəlif nöqtələrində, xüsusən də Bakı ətrafında gedən döyüşlərin hərbi-taktiki təhlilini aparmışdır. O, doğru olaraq qeyd edirdi ki, bolşevik-daşnak qüvvələri üç istiqamətdən Qafqaz İslam Ordusu və Azərbaycanın milli qüvvələri üzərinə hücum təşkil etmişdir. Əsas istiqamət kimi Bakı – Gəncə dəmir yolu xətti boyunca hərəkət götürülmüşdür. Bundan başqa, Bakı – Şamaxı – Göyçay yolu boyunca sağ cinah, Bakı – Ələt – Kür çayı hövzəsi boyunca isə sol cinah hərəkət etməli idi. Lakin bolşeviklərin bu planı heç bir nəticə vermədi.

Erməni generalının xatirələrində polkovnik L.Bişeraxovun kazak dəstəsinin İrandan Bakı Sovetinin köməyinə gəlməsi, ingilis qoşun dəstəsinin Bakıya daxil olması və Bakı uğrunda döyüşlər barəsində də maraqlı məlumatlar vardır.

1918-ci ilin sentyabrında Bakı şəhərinin yad və işğalçı qüvvələrdən azad edilməsi zamanı cərəyan edən prosesləri müşahidə edən və sonra da həmin hadisələri erməni-millətçi təfəkkürü prizmasından qələmə alan müəlliflərdən biri də Baxşi İşxanyandır. Onun 1920-ci ildə çap etdirdiyi kitabçasında Bakı şəhərinin azad edilməsi zamanı, guya, şəhərdəki ermənilərə amansızcasına divan tutulması haqqında erməni xislətinə xas olan məlumatlar yer almışdır [7]. Bu müəllif kitabçasının elə ilk səhifələrindən azərbaycanlı və bütünlükdə müsəlman əhalini, bu əhaliyə kömək edə biləcək Osmanlı türklərini özünün amansız düşməni kimi qələmə almışdır. Onun sözlərinə görə, azərbaycanlı və müsəlman əhali daxili düşmən idi və bu daxili düşmən türk qüvvələrinə son dərəcə sədaqət nümayiş etdirirdi. Müəllif Bakı şəhərini Azərbaycandan kənar bir məntəqə kimi təsvir edir və yazırdı ki, Rusiyanın heç bir şəhəri Bakı kimi əlverişsiz hərbi şəraitə malik deyildir. Yəni milli qüvvələrin və Qafqaz İslam Ordusunun Bakının azad edilməsi uğrunda mübarizəsini müəllif etnik maraqları nöqteyi-nəzərindən əlverişsiz hərbi şərait kimi dəyərləndirirdi. B.İşxanyan Bakıda Qafqaz İslam Ordusuna qarşı mübarizənin təşkilində ermənilərin də çox fəal olduğunu qələmə alır və bildirirdi ki, məhz ermənilər başqa qüvvələrə nisbətən Bakının "xilas edilməsində" daha çox maraqlı idilər. Onun nəzərində Bakı şəhərinin əldə saxlanılması

ermənilər üçün ölüm-dirim məsələsi idi və ona görə də bütün kitab boyu Azərbaycan – türk qüvvələri daxili və xarici düşmən kimi xatırlanır [7, s.2].

B.İşxanyana görə, ermənilər Bakı şəhərini daha inadla "müdafiə etdikləri" üçün də olduqca böyük itkilərə məruz qaldılar. Öz maraqları üçün Bakıya gətirilmiş ingilis hərbi qüvvələrini də müəllif şəhərdəki ermənilərin silah qardaşı adlandırırdı. İngilislərin Bakıya çıxmasını Qafqaz İslam Ordusuna qarşı müqaviməti gücləndirəcəyini düşünən müəllif yazırdı ki, ingilislərin gəlişini bütün erməni xalqı böyük sevinclə qarşıladı [7, s.3].

B.İşxanyan özünü və erməniləri az qala Bakı şəhərinə haqqı olan yeganə millət kimi təsvir edirdi. Onun Qafqaz İslam Ordusuna olan münasibəti də bu mövqedən çox açıq şəkildə qələmə aldığı kitabında ifadə olunmuşdur. Onun yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, Qafqaz İslam Ordusu tərəfindən Bakının azad edilməsi erməni təfəkkürü üçün qəbul edilməsi mümkün olmayan bir hadisə idi.

Onun kitabında əsas diqqət isə Bakı şəhərinin azad edilməsindən sonra şəhərin erməni sakinlərinə qarşı barışmaz münasibət göstərilməsi detallarının şişirdilmiş şəkildə oxucuya təqdim edilməsinə yönəldilmişdir.

1918-ci il sentyabrın 15-də Bakı şəhəri azad edildikdən sonra şəhər daxilində asayişin pozulmasını Qafqaz İslam Ordusunun komandanlığı da etiraf edirdi və bunun səbəbi də açıqlanırdı. Şəhər azad ediləndə azərbaycanlılara qarşı təşkil edilmiş kütləvi və amansız qırğınlardan cəmi altı ay vaxt keçmişdi. Yəni həmin qırğınları törədənlər sağ idilər və yaxınlarını çox faciəli şəkildə itirmiş adamlar belə qeyri-insani əməllərin qisasını almaq fürsətini əldən vermək istəmirdilər. Nuru paşa da öz xatirələrində yazırdı ki, əzizlərinin qisasını almaq istəyənlər, doğrudan da, məhkəməsiz və sorğusuz öz qisaslarını almağa başladılar. Lakin bu icazəsiz hərəkətlərin qarşısı dərhal alındı və bunun üçün lazım olan tədbirlər həyata keçirildi [8, s.456].

Nuru paşa Türkiyə Hərbi Nazirliyinə göndərdiyi raportunda Bakı şəhərində baş verənlərlə bağlı belə yazırdı: "Bakının qurtarılması əsasında şəhərdə asayiş təmin edilincəyə qədər ermənilərlə türklər arasında silahlı çatışmalar meydana gəlmişdir. Şəhərdə türk əsgərinin əmniyyəti saxlamasına qədər keçən sürədə bəzi yağma olayları da yaşanmış, ancaq bu yağma və talanı bakılı türklər deyil, iranlı işçilərin yapdığı bəlirlənmişdir. Bu durumun qarşısında ordu dərhal hərəkətə keçərək yağmaçılardan yüzdən fazla kişi edam edilmişdir. Alınan tədbirlərlə Bakıda güvənlik və asayiş təmin edilmişdir" [9, s.382].

Nuru paşa Türkiyənin hərbi naziri Ənvər paşaya göndərdiyi teleqramında isə bildirirdi ki, Bakının azad edilməsindən sonra insanların qisasının nəticəsi kimi həyatını itirənlərin sayı mart qırğınları zamanı öldürülən azərbaycanlıların sayının heç yüzdə biri qədər də deyil [10, s.124]. Şəhərdə baş verən iğtişaşların qarşısını almaq üçün Nuru paşanın əmri ilə mərkəzi meydanlarda, o cümlədən Quba, Parapet, Vağzal, Quru bağ, Bulvar meydanlarında dar ağacları quruldu və icazəsiz iğtişaşlara yol vermiş insanlar dar ağacından asıldılar. Deyildiyi kimi, yüzdən artıq insana sərt cəza verildi və bununla da şəhərdə asayişi yaratmaq mümkün oldu. Nuru paşanın yazdıqlarından o da aydın olur ki, o zaman bu iğtişaşlar barəsində Osmanlı ordusunda olan alman hərbi müşavirləri, Bakıdakı konsulluqların nümayəndələri çox geniş səs-küy salmağa başlamışdılar. Məqsəd də bu idi ki, asayişin qorunması üçün alman hərbi bölmələrinin Bakıya gətirilməsinə icazə alınsın [9, 382 – 383]. Amma Nuru paşanın həyata keçirdiyi sərt tədbirlər nəticəsində qısa zamanda asayiş təmin edildi və iğtişaşların genişlənməsinə imkan verilmədi.

B.İşxanyan isə bu hadisələrə real həqiqətdən çox-çox uzaq qiymət vermişdir. Onun qələmə aldığı təfərrüatlara varmadan 1918-ci ildə Bakı şəhərində yaşayan erməni əhalinin sayının şübhəli olduğunu açıq şəkildə görmək mümkündür. Müəllifin yazdığına görə, 1918-ci ildə Bakı şəhərində 88.673 nəfər erməni yaşayırdı [7, s. 15]. Bu rəqəmin doğruluğunu təsdiq etmək üçün müəllif mötəbər bir mənbəyə istinad etməmişdir. Onun qeydlərinə görə, şəhər əhalisi arasında anketlər paylanmış və bu yolla ermənilərin sayı müəyyənləşdirilmişdir. Bakı şəhərində ermənilərin qırıldığı iddia edilən hadisədən sonra belə anketləşmə ilə əhali sayının müəyyən edilməsinin doğruluğu heç də qaneedici sayıla bilməz. Rusiya hakimiyyət dairələri tərəfindən 1913-cü ildə aparılmış siyahıyaalmaya görə, Bakı şəhərində yaşayan ermənilərin sayı 42.160 nəfər idi [11, s.6]. Bu, rəsmi rəqəmdir və XX əsrin əvvəllərində Bakı

şəhərinin yüksək sürətlə inkişaf etməsinə baxmayaraq, beş il ərzində şəhərin erməni əhalisinin iki dəfədən çox artması elə də inandırıcı görünmür. Nəzərə alınmalıdır ki, 1913 – 1918-ci illər Birinci Dünya müharibəsinin getdiyi müddətə təsadüf edirdi və həmin dövrdə Bakı iqtisadiyyatının inkişafında da müəyyən zəifləmələr meydana gəlmişdi.

B.İşxanyanın yazdıqlarına görə, Bakı şəhəri azad edildikdən sonra bu şəhərdə 5.248 nəfər erməni sakin qətlə yetirilmişdir [7, s.28]. Qafqaz İslam Ordusu komandanlığının və Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərin qətiyyətliliyi və səmərəliliyini nəzərə alsaq, hətta bu rəqəmin də düzgünlüyü şübhə doğura bilər. Bununla belə, B.İşxanyanın iddiasına görə, özünün apardığı tədqiqatlar nəticəsində bu rəqəmi ortaya çıxarmışdır. Onun belə iddiasının birmənalı şəkildə qəbul edilməsi müəyyən suallar doğursa da, erməni təbliğatçıları və millətçiləri heç bununla da razılaşmırlar. Bunun nəticəsidir ki, Qafqaz İslam Ordusu tərəfindən Bakının azad edilməsindən sonra, guya, şəhərdə öldürülən ermənilərin sayı haqqında günü-gündən artırılan rəqəmləri öz təbliğat dövriyyələrinə gətirməkdədirlər. Məsələn: T.Akopyan adlı bir müəllif Bakının azad edilməsindən sonra şəhərdə 17.000 erməninin öldürüldüyünü yazırdı [12]. Müxtəlif mənbə və müəlliflərə istinadən X.Dadayan adlı digər bir erməni müəllifi isə öz əsərində Bakıda 8.988, nəfərin, 12.560 nəfərin, 20 – 25 min nəfərin və nəhayət, 30 min nəfərin qətlə yetirildiyini bəyan edirdi [13, s.121 – 122, 137, 138]. Bakı hadisələrinə öz xatirələrində toxunan general Q.Korqanov da şəhərdə 30 min erməninin öldürüldüyünü yazırdı [6].

## Nəticə

Birinci Dünya müharibəsi illərində böyük dövlətlər tərəfindən təhrik edilən və həvəsləndirilən erməni millətçi qüvvələri böyük fəallıqla Osmanlı Türkiyəsi ərazisində aparılan savaşlara qoşulmuşdular. Bu dövlət ərazisində çox geniş milli qırğınlar törədən erməni millətçi dairələri öz niyyətlərinə nail olmadıqda Cənubi Qafqaza axışdılar. Rusiya imperiyasının çökməsindən sonra Cənubi Qafqazda xeyli sayda silahlı qüvvələrə malik olan erməni-daşnak millətçi dairələri Azərbaycanın bütün ərazilərini nəzarət altına almaqla, bu ərazilərdə kütləvi milli qırğınlar törətməklə xəyali Böyük Ermənistanın yaradılacağına ümidlərlə yanaşırdılar. Lakin Azərbaycan xalqının öz müstəqilliyini elan etməsi və kömək üçün Osmanlı Türkiyəsinə müraciət edilməsi erməni millətçi dairələrinin bu təcavüzkar planlarının həyata keçməsinə mane oldu. Azərbaycanın milli hərbi qüvvələri ilə türk hərbi qüvvələri bazasında yaradılmış Qafqaz İslam Ordusu bolşevik-daşnak qırğınlarına və planlarının icrasına imkan vermədi. Buna görə idi ki, erməni millətçi dairələri Qafqaz İslam Ordusuna düşmən münasibət bəsləyirdilər və belə yanaşma onların qələmə aldıqları yazılarda da qabarıq şəkildə öz əksini tapırdı.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Шаумян, С.Г. Статьи и речи. 1917-1918 гг. / С.Г. Шаумян. – Баку: Красный Восток, – 1929. – 157 s.
2. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы – 1917-1918. – Баку: – 1957, – 600 204 s.
3. Azərbaycan Cümhuriyyəti (1918–1920) / tərt. ed. N.Ağamalıyeva – Bakı: Elm, – 1998. – 336 s.
4. Шаумян, Сур. Бакинская коммуна / С. Шаумян. – Баку: Красный Восток, – 1927. – 118 s.
5. Микоян, А.И. Дорогой борьбы. Книга первая. / А.И. Микоян. – Москва: Издательство политической литературы, – 1971. – 590 s.
6. Корганов, Г., Участие армян в Первой Мировой Войне на Кавказском фронте (1914-1918): [Электронный ресурс] / URL: https://russia-armenia.info/node/10296
7. Ишханян, Б. Великие ужасы в гор / Б. Ишханян. – Баку – Тифлис: Типография Мамул-ар, – 1920. – 176 s.
8. Qafqaz İslam Ordusu hərəkatı / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu / tərt. ed. M.Rıhtım və M.Süleymanov – Bakı: Nurlar, – 2008. – 449-455 s.
9. Ağayev, Y. İstiqlal yürüşü 1918 / Y.Ağayev, S.Əhmədov – Bakı: Altun kitab, – 2009. – 416 s.

10. Yüceer, N. Birinci Dünya savaşında Osmanlı ordusunun Azerbaycan ve Dağıstan harekatı / N.Yüceer. – Ankara: Genelkurmay basım evi, – 1996. – 202 s.
11. Алышевский, В.В. Г. Баку и промыслово-заводской район по данным переписи 1913 г. Ч. 2. Вып. 2: Население. / В.В. Алышевский. – Баку: изд. АзЦСУ, – 1922. – 90 с.
12. Акопян, Т. Бакинские погромы: [Электронный ресурс] / – Сентябрь 15, 1918. URL: https://www.aniarc.am/2021/09/15/baku-massacres-1918/
13. Дадаян, Х. Армяне и Баку (1850-ые гг. – 1920 г.) / Х.Дадаян. – Ереван: НОФ «НОРАВАНК», – 2007. – 208 с.

**Аннотация**
**Армянские современники о Кавказской Исламской Армии**
**Бахтияр Эрсай**

В мае 1918 года, сразу после провозглашения независимости азербайджанского народа, на базе национальных вооруженных сил и османских вооруженных сил, пришедших на помощь Азербайджану на основании официальной обращении, была создана Кавказская Исламская Армия. После создания этой Армии удалось защитить независимость Азербайджана, предотвратить агрессивные интервенции крупных держав и международных сил, направленные против государственности Азербайджана, и спасти народ Азербайджана от армяно-дашнакской резни, спонсируемой и вооружаемый крупными державами. Созданием этой армии правительство Азербайджана нанесло тяжелый удар армянской националистической агрессии, которая в начале XX века была поддержана рядом великих сил, и не допустило включения многих частей территорий Азербайджан в состав так называемой Великой Армении. Поэтому с начала 20-го века и по сегодняшний день в армянской историографии сохраняется националистически-шовинистический подход к теме Кавказской Исламской Армии. Настоящая статья посвящена оценке и анализу темы Кавказской Исламской Армии в армянской историографии.
**Ключевые слова:** Азербайджанская Демократическая Республика, военное сотрудничество с Турцией, Кавказская Исламская Армия, армянская агрессия, освобождение Баку.

**Abstract**
**Armenian contemporaries about the Caucasian Islamic Army**
**Bahtiyar Ersai**

In May 1918, immediately after the declaration of independence of the Azerbaijani people, the Caucasian Islamic Army was created on the basis of the national armed forces and the Ottoman armed forces, which camed to the aid of Azerbaijan on the basis of an official appeal. After the creation of this Army, it was possible to protect the independence of Azerbaijan, prevent aggressive interventions of major powers and international forces and save the people of Azerbaijan from the Armenian-Dashnak massacre, sponsored and armed by major powers. By creating this army, the government of Azerbaijan dealt a heavy blow to the Armenian nationalist aggression, which was supported by a number of great forces at the beginning of the 20th century, and did not allow to include many parts of the territories of Azerbaijan in the so-called Greater Armenia. Therefore, from the beginning of the 20th century to the present day, has been preserved a nationalistic approach to the theme of the Caucasian Islamic Army in Armenian historiography. This article is devoted to the assessment and analysis of the theme of the Caucasian Islamic Army in Armenian historiography.
**Keywords**: Azerbaijan Democratic Republic, military cooperation with Turkey, Caucasian Islamic Army, Armenian aggression, liberation of Baku

*Məqalə redaksiyaya daxil olmuşdur: 11.02.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 18.01.2023*
*Çapa qəbul edilmişdir: 03.02.2023*

HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE
№4/2022, səh. 51-56
HƏRBİ XÜSUSİ ELMLƏR MILITARY SPECIAL SCIENCES

UOT 355/359

# SÜLH VƏ HƏRBİ XARAKTERLİ FÖVQƏLADƏ HALLARA PSİXOLOJİ DAVAMLILIĞIN FORMALAŞDIRILMASININ METODİKİ PROBLEMLƏRİ

**e.o. mayor Səyavuş Gözəlov[1], Sədaqət Musayeva[2]**
[1]*Azərbaycan Memarlıq və İnşaat Universiteti*
[2]*Azərbaycan Dillər Universiteti*
E-mail: g.sayavush@mail.ru

***Xülasə.*** Məqalədə müxtəlif xarakterli fövqəladə hallarda (MXFH) fəaliyyət göstərən şəxsi heyətin psixoloji davamlılığının yüksəldilməsində mənəvi-psixoloji və humanitar hazırlığın rolu, eləcə də psixoloji davamlılığın formalaşdırılması aspektləri aydınlaşdırılmış, həmçinin fövqəladə hallara hazırlığın təşkil edilməsində, ekstremal şəraitlərdə xidməti və döyüş tapşırıqlarının yerinə yetirilməsinə peşə hazırlığının özünəməxsus bünövrəsi kimi hərbçilərin (xilasedicilərin) psixoloji davamlılığının möhkəmləndirilməsinin metodiki problemlərinə xüsusi diqqət yetirilmişdir.

**Açar sözlər:** fövqəladə hallar, psixoloji davamlılıq, psixoloji davamsızlıq, adaptasiya, dezadaptasiya

Sülh və hərbi xarakterli fövqəladə hallar əksər hallarda vətəndaşların sağlamlığına dəyən zərər faizinin artmasına, həyat fəaliyyətinin və şəraitinin pozulmasına, bəzi hallarda isə ölümünə səbəb olur [1]. MXFH-nin nəticələrinin aradan qaldırılmasında iştirak etmiş və ya fiziki zədələnmiş, yaxınlarını, yaxud da qohumlarını itirmiş, eləcə də sarsıdıcı hadisələrin şahidi olmuş insanlar daha çox psixi travmaya məruz qalırlar. Onlarda emosional təəssüratlar, davranış və psixi vəziyyət pozulmaları təcili psixoloji yardıma zərurət yaradır [2; 3].

Hərbi qulluqçuların xidməti və döyüş hazırlığı tapşırıqlarının icrasında imkanlarını məhdudlaşdıran, təhlükəli hallarda müvəqqəti amillərin təsiri ilə meydana çıxan psixoloji davamsızlıq vəziyyəti peşə hazırlığının, təcrübəsizliyin və digər psixogen faktorların nəticəsi kimi də qiymətləndirilə bilər [4; 5].

Aşağıda sadalanan halları psixoloji davamlılığa [3] əks göstəricilər sırasına aid etmək lazımdır:

– psixi dezadaptasiyaya meyillik və psixoloji müqavimətin zəifləməsi;
– yüksək həyəcan və qorxu;
– stressə qarşı davamlılığın aşağı olması, hərəkətlərində emosional müvazinətsizlik və qeyri-iradilik (impulsivlik);
– diqqətin toplanması və paylanması qabiliyyətinin kifayət qədər olmaması;
– sensor (idrak) və hərəki (motor) proseslər arasında funksional əlaqələrin pozulması;
– orqanizmdə (ürək-damar xəstəliyi, diabet və s.) funksional dəyişikliklər;
– hiss orqanları çatışmazlıqları (görmə və eşitmə qabiliyyətinin azalması);
– affektiv reaksiyaya meyillik və dözümsüzlük;
– reaksiyanın ləngliyi və kifayət qədər bacarıqsızlıq;
– düşüncəliyin (fərasətli, anlaqlı, zəkalı, fəhmli, ayıq, zirək, tez başadüşən) azlığı, intellektual bacarıqlarının səviyyəsinin kifayət qədər olmaması;
– alkoqola və narkotikə aludəçilik.

Hərbi, təbii fəlakət, qəza və katastrofların meydana çıxardığı MXFH-də hərbi qulluqçularda qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin (QX və DTİ) aparılmasına, zəruri olan möhkəmlik, qətiyyət, əzmkarlıq və dözümlülük, yüksək mənəvi-psixoloji hazırlığa əhəmiyyətli təsir edən, iradi-emosional gərginliyə qarşı psixoloji davamlılığın formalaşmasını tələb edir [6].

Psixoloji davamlılıq çətin şəraitlərin stresogen və frustrusiyaedici təsirlərə davamlılığını təmin edən, şəxsiyyətin vəhdət (möhkəmlik) xarakteristikasıdır [4].

Psixoloji baxımdan davamlı şəxsiyyətin davranışı, ümumilikdə aşağıdakı sxem üzrə həyata keçirilir:

– tapşırıq;
– onun aktuallaşdırma motivləri;
– fəaliyyətin həyata keçirilməsi, onu reallaşdırmağa aparan;
– çətinliyin dərk edilməsi;
– emosional reaksiyaların neqativliyi;
– çətinliyə üstüngəlmə üsullarının axtarılması;
– mənfi emosiyaların gücünün aşağı olması;
– işləmə və fəaliyyət qabiliyyətinin daha da yaxşılaşdırılması (hərəkətəgətirmə səviyyəsinə uyğun olaraq optimallaşdırılması).

Müasir dövrdə ordumuzun möhkəmlənməsində, şəxsi heyətin hazırlığının xarakterik keyfiyyətlərinin formalaşmasında mənəvi-psixoloji və humanitar hazırlığa xüsusi diqqət yetirilir [7]. Bu isə hərbçilərin, xilasedicilərin döyüş şəraitində üstün gələcəyi çətinliklərə hazırlaşmasından ibarətdir.

Şəxsi heyətin MXFH-də fəaliyyəti aşağıdakı keyfiyyətləri tələb edir:
– ideoloji-humanitar tərbiyəlilik və əxlaqi möhkəmlik;
– təşkilatçılıq qabiliyyətinin inkişafını;
– hərbi-nəzəri və hərbi-texniki savadlılığı və s.

Şəxsi heyətin yüksək humanitar hazırlığının formalaşdırılması əsasında mənəvi-psixoloji hazırlığın həyatakeçirilmə yollarına ümumi halda baxmaq olar:
– MXFH-nin bütün faktorlarının gözlənilən, tanış vərdişlərə və adətlərə çevrilməsi;
– hərbçilərin döyüşə uyğun olan psixoloji çətinliyə üstüngəlmə təcrübələri ilə silahlandırılması;
– MXFH vəziyyətləri ilə şəxsi heyətin fəaliyyətləri arasında mümkün olan fərqin azaldılması.

Yuxarıda qeyd edilən tədbirləri sülh dövründə bütünlüklə həyata keçirmək çətindir. Buna görə də şəxsi heyətdə gözlənilməzliklə, qəfil meydana çıxan situasiyada fəaliyyətə tez və düzgün istiqamətlənməyə, qoyulan döyüş tapşırığı və şəraiti təsəvvür etməyə həmişə yüksək hazırlığı inkişaf etdirmək zəruridir [7].

Şəxsi heyətin döyüş hazırlığının psixoloji xüsusiyyətləri:
– şəxsi heyət və komandirlərin döyüş hazırlığının əsas daxili komponentləri;
– əsas psixoloji komponentlər arasında əlaqə və onların dinamikası;
– şəxsi heyətdə müdafiə vasitələrinə inamın möhkəmləndirilməsi;
– MXFH haqqında düzgün təsəvvürün formalaşdırılması;
– emosional-iradi davamlılığın, iradi keyfiyyətlərin, özünü idarəetmənin və özünənəzarətin harmonik inkişafı;
– peşəkar-döyüşçü psixoloji keyfiyyətlərin və xüsusən də təfəkkürün inkişafı;
– gözlənilməzlik faktorunun istənilən hallarda meydana çıxmasında psixoloji çətinliyə üstün gəlmək, öz imkanlarını maksimum səfərbər etmək qabiliyyətinin inkişafı;
– radioaktiv və kimyəvi maddələrin təsirlərindən (zəhərlənmələrdən) müdafiə vasitələrinin, kəşfiyyatın aparılması üzrə eynitipli və ya spesifik şəraitlərdə psixoloji davamlığın inkişafı;
– daxili psixoloji döyüş hazırlığının zəruri səviyyədə saxlanılması və formalaşdırılması.

Qeyd edilən metodikanı rəhbər tutaraq psixoloji davamlılığın aşağıdakı səviyyə dərəcələrini müəyyən edə bilərik:

1. Psixoloji davamlılığın **yüksək** səviyyəsi hərbi qulluqçunun qarşıya qoyulmuş tapşırıqları və vəzifə borclarını mürəkkəb, həddindən artıq gərgin vəziyyətdə, keyfiyyətlə, inamla və müstəqil olaraq yerinə yetirmə, xarici maneələrlə mürəkkəbləşdirilmiş, tez-tez dəyişən şəraitdə fəaliyyətdə nəticəni (məhsuldarlığı) və verilmiş ritmi saxlamaq bacarığı ilə xarakterizə olunur.

2. Psixoloji davamlılığın **orta** səviyyəsi hərbi qulluqçuların komandirin rəhbərliyi altında, müstəqil olaraq, həm də kollektiv tərkibində müvəffəqiyyətlə fəaliyyət göstərməsidir.

3. Psixoloji davamlılığın **aşağı** səviyyəsi, bir qayda olaraq, ayrı-ayrı gənc hərbçilərdə müşahidə edilir. Bu tip hərbçilər möhkəm peşə vərdişlərinin qazanılmasına, hərbi ustalığa kifayət qədər yiyələnmədiklərinə, emosional-iradi davamlılığa və fiziki mətinliyə zəruri dərəcədə nail olmadıqlarına görə həmişə bölmə komandirinin, yoldaşlarının və kollektivin himayəsinə ehtiyacı vardır.

Döyüş fəaliyyətində psixikaya təsir edən psixogen faktorlarla tanışlıq bu şəraitdə meydana çıxan əsas psixoloji çətinliyə üstün gəlməyə imkan yaradır, fəaliyyətin ilk saatları və birinci sutkasında qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinə keçid imkanları maksimum olur [8].

Bu problem psixoloji hazırlığın köməyi ilə həll edilir və psixoloji davamlılığı formalaşdırır. Buraya isə aşağıdakılar aiddir:

– şəxsi heyətdə mümkün ola biləcək MXFH-nin xarakteri haqqında düzgün anlayışlar, təsəvvürlər yaratmaq, döyüş, istilik-nüvə, kimyəvi, bioloji, yandırıcı silahların təsirlərinə və onlardan müvəffəqiyyətlə müdafiə olunmaq üçün güclü inam tərbiyə etmək;

– müasir qəzaların, fəlakətlərin bütün şəraitlərinə və KQS zədələmə təsiri faktorlarına psixikanın davamlılığını tərbiyə etmək;

– döyüşə psixoloji hazırlığın tərbiyə edilməsi;

– əsəb-psixoloji dözümlülüyün inkişafı;

– peşəkar-döyüşçü psixoloji keyfiyyətlərin tərbiyə edilməsi;

– hərbi kollektivlərdə psixoloji hazırlığın formalaşdırılması;

– komandirin daha məqsədyönlü işləməsi üçün çavuş və zabitlərin psixoloji hazırlığı qeydlərinin aparılması.

Azərbaycan hərbçilərinin psixoloji davamlığının formalaşması cəmiyyətin həyatının bütün tərəfləri ilə əlaqədardır. Bu, bir növ özünütəkmilləşdirmənin təşkili başlanğıcı ola bilər:

Psixoloji davamlığın formalaşdırılmasına hazırlığın təşkilinin məzmunu:

– psixoloji hazırlıq proqramlarının (onun ümumi məzmununun konkretləşdirilməsi, aydınlaşdırılması, şəxsi heyətdə mütləq yaradılmalı olan keyfiyyətlər və s.) işlənilməsi;

– məşğələlər, təlimlər, döyüş tapşırıqları və müxtəlif növ məşqlər zamanı əlavə məqsəd olaraq psixoloji məsələlərin qoyulması;

– məşğələ, məşq və təlimlərin gedişi zamanı prosesə psixoloji təsir göstərə bilən metod, üsul və mümkün ola bilən şəraitlərin xüsusi olaraq seçilməsi;

– psixoloji hazırlıq nəticələrinin yoxlanılması və qiymətləndirilməsi metodlarının tətbiqi.

Şəxsi heyətin psixoloji hazırlığının real vəziyyəti MXFH tapşırıqlarının qoyuluşundan, mənəvi-döyüş keyfiyyətlərindən, onun təsir xüsusiyyətlərindən və hər şeydən əvvəl, elmi təkliflərin düzgün qeyd olunması, hərbi pedaqogika və psixologiya elminin nailiyyətlərinin səmərəli tətbiqindən ibarətdir.

Deməli, psixoloji hazırlıq psixoloji davamlılığa zəruri olan aşağıdakı keyfiyyətləri formalaşdırır və inkişaf etdirir:

– peşəkar-döyüşçü psixoloji keyfiyyətləri;

– xüsusi əqli keyfiyyətlər (əqlin genişliyi, hərtərəflilik, dərinlik, məntiqlilik, səfərbər olunma, sürətlilik, tənqidi yanaşma, hərbiçi-xilasedici duyumu);

– döyüş tapşırığını yerinə yetirmə şərtləri haqqında təsəvvür və biliklərin aydın olması;

– döyüş şəraitinə maksimum yaxınlaşmış vəziyyətdə əqli, emosional və iradi-psixoloji çətinliklərə üstün gəlmək vərdişlərinin aşılanması [9].

Şəxsi heyətin psixoloji hazırlığının real döyüş vəziyyətinə uyğun formalaşdırılmasında komandirin gərginlik vəziyyətinin əlamətlərini bilməsi çox vacibdir. Belə vəziyyətin əlamətlərinin intensivliyinin (qızğınlığının) meydana çıxmasına görə tabelikdə olanın gərginlik vəziyyətinin səviyyəsi haqqında fikir söyləmək olar. Buna: vegetativ – üzün qızarması və yaxud da avazıması (ağarması), tərləmənin güclənməsi, ürəkdöyünmənin artması; mimiki duruşda asimmetrikliyin meydana çıxması, əzələlərin yığılması, əl barmaqlarının, dodaqların titrəməsi (əsməsi); nitq – nitqin temp və tembrində nöqsan, kəkələmə və s. psixi hallar aid ola bilər. Bu əlamətlər haqqında bilikləri, onları qiymətləndirmək bacarığı, tabelikdə olanın fərdi xüsusiyyətlərini bilməklə hər bir komandir şəxsi heyətin gərginlik vəziyyətini idarə etmək üçün təsir üsulu seçməlidir.

Real döyüş bütünlüklə insana çox böyük təsir göstərir. Buna görə də hərbçidən yüksək səviyyədə hərbi peşəkarlıq və mənəvi-psixoloji cəhətdən hərtərəfli hazırlıq, eləcə də psixoloji davamlılığın formalaşdırılması zəruri problem kimi tələb olunur.

Hərbi hissələrdə psixoloji davamlılığın, normal hərbi xidmətin və psixoloji ab-havanın, mühitin yaradılması komandirin şəxsi xüsusiyyətlərindən, liderlik keyfiyyətlərindən, iş üslubundan, təcrübəsindən və gücündən qaynaqlanan psixoloji təsirindən asılıdır. Buna görə də şəxsiyyətin, kollektivlərin formalaşması, nizamnamə qaydalarının və hərbi intizamın möhkəmlənməsi məsələləri mənəvi-psixoloji və humanitar hazırlıqla qırılmaz əlaqədədir.

Şəxsi heyətin psixoloji hazırlığı döyüş təlimlərinin aparılması gedişində həyata keçirilir. Döyüş ustalığı özü psixoloji əhəmiyyət kəsb edir [9;10].

Kollektivin də psixoloji hadisələrə münasibətinə döyüş ustalığı təsir göstərir [11]. Belə ki, komandirin döyüş ustalığı hərbi hissənin və qrupların bütün üzvləri üçün davamlılıq, dözümlülük və soyuqqanlılığın formalaşmasında ən güclü təsiredici faktordur. Tabelikdə olanların döyüş ustalığı da, öz növbəsində, soyuqqanlılığın, komandirin cəsarətli qərarlar verməsinə inamının ilkin şərtidir.

Şəxsi heyətdə hərbi xidmətə və MXFH-də fəaliyyətə adət və vərdişlərin formalaşması böyük əhəmiyyət kəsb edir. Bunlar psixoloji hazırlıqda mühüm rol oynayır. Fəlakətlərlə mübarizə aparmağı, hərbi xidmətin çətinliyini dəf etməyi bacaranları, döyüş tapşırığını həll etmək qabiliyyətini həmişə yüksək səviyyədə saxlayanları tam hazırlıqlı hesab etmək olar.

Hərbi qulluqçuların xidmətə, Azərbaycanın ərazi bütövlüyünə, MXFH-nin qəza xidmətinə, xüsusən də istifadə etdiyi texnikaya məhəbbət hissləri; hərbi kollektivin həyatında qəbul olunmuş mənəvi və hüquqi davranış normalarını özü üçün qanun kimi qəbul etməsi; FH-nin ekstremal şəraitlərdən meydana çıxan təhlükələrə qarşı davamlılıq; hərbi kollektivin yaşayış şəraitinə uyğunlaşması mühüm əhəmiyyətə malikdir.

Silahlı Qüvvələr və Fövqəladə Hallar Nazirliyinin hərbi hissələrində xidmətə şəxsi heyətdə məhəbbət hissləri adət və vərdişlərin əsasını təşkil edir. Bu isə xidmət – insan – təhlükə münasibəti ilə əlaqədardır. MXFH-yə həqiqi, əsl məhəbbətin formalaşması onun çətinlik və təhlükələrlə hərtərəfli tanış olduqdan sonra baş verir.

Hərbçilərin xidməti adətləri döyüş texnikası və sursatlarına qayğıkeşliyi sayəsində baş verir. Bu isə öz peşəsi ilə fəxr etməyi, istənilən şəraitdə öz vəzifə borclarını düşünərək yerinə yetirməyi və müxtəlif vasitələrin etibarlı olmasına inamı inkişaf etdirir. Bunların hamısı real olaraq mövcuddur, onları nəzərə almamaq və ya diqqətdən kənarda saxlamaq təhlükəlidir.

SQ-də hərbi xidmətin çətinlik və təhlükələrinə soyuqqanlı münasibətin, onlara üstüngəlmənin tərbiyə olunmasına hazırlıq və bu çətinliklərin öhdəsindən gəlməkdə öz qabiliyyətinə inamın yaradılması kimi psixoloji tədbirləri özündə birləşdirir.

MXFH şəraitində fəaliyyət göstərən hərbi qulluqçuların müxtəlif qəza, fəlakət və katastroflara psixoloji davamlığı aşağıdakılar ifadə edir:

– hadisələr zamanı inamlı hərəkətetmə bacarığını;
– silahları və döyüş texnikasını inamla idarə etmək vərdişlərini;
– xidməti və döyüş tapşırıqlarını yerinə yetirdikdən sonra və normal yatmaq vərdişləri və bacarıqlarının formalaşdırılması.

Bu keyfiyyətləri hərbçilərin MXFH-nin ekstremal şəraitində spesifik davamlılığına uyğun olaraq, ancaq fərdi metodlarla inkişaf etdirmək olar [10]. Nizamnamə qaydaları, şəxsi gigiyena tələbləri və təlimat qaydalarının ciddi gözlənilməsi onun formalaşmasını sürətləndirə bilər.

Hərbi təhsil müəssisələrində hazırlanan zabitlər aşağıdakı keyfiyyətlərə malik olmalıdırlar:

1. Vətənə sonsuz məhəbbət və sədaqətlilik;
2. MXFH-də fəaliyyətə mənəvi-psixoloji və humanitar hazırlıq;
3. Birlik, dostluq və qarşılıqlı himayəetmə qabiliyyətinə sahibolma;
4. Cəsurluq, şəxsi intizamlılıq, mərdlik və qəhrəmanlıq;
5. Xilasedici peşəsi ilə fəxr etmək;
6. Geyim formasına məhəbbət bəsləmək.

Qeyd etmək lazımdır ki, hərbçi fəaliyyəti zamanı psixoloji davamlılığın vacibliyi döyüş şəraitinin analiz edilməsində, düzgün qərarın qəbul edilməsi və onun formalaşma səviyyəsinin müəyyən edilməsində, şəxsiyyətin tərkib hissəsi olan xarakter və istiqamətliyinin formalaşdırılmasında mühüm

rol oynayır. Döyüş şəraitində hərbçi fəaliyyətinin müvəffəqiyyətlə həyata keçməsi möhkəm psixoloji davamlılıq, əqidə və dünyagörüşü, Vətəninə, xalqına sədaqət, Vətən qarşısında öz borcunu dərindən başa düşmək, döyüş texnikasına, silahına möhkəm inam, etibar, xalqa sədaqətlə, vicdanla xidmət etmək həvəsi və istəyini təkmilləşdirir.

## Nəticə

Müxtəlif xarakterli fövqəladə hallarda fəaliyyətə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılması, baş verməsi ehtimal olunan fövqəladə hallar və onun nəticələrinin aradan qaldırılması üzrə psixoloji hazırlığın formalaşdırılması, hadisələr haqqında tam məlumatların verilməsi psixoloji davamlılığın səviyyəsinin yüksəldilməsinə zəmanət verir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ocaqov, H.O. Fövqəladə hallarda həyat fəaliyyətinin təhlükəsizliyi / H.O. Ocaqov. – Bakı: nəşriyyat, – 2010. – 388 s.

2. Осухова, Н.Г. Психологическая помощь в трудных и экстремальных ситуациях: учеб. Пособие для студ. Учреждений высш. проф. образования. – 5-е изд., перераб. И доп. / Н.Г. Осухова. – Москва: Издательский центр «Академия», – 2012. – 320 с.

3. Малкина-Пых, И. Г. Психологическая помощь в кризисных ситуациях (Справочник практического психолога) / И. Г. Малкина-Пых. – Москва: Изд-во Эксмо, – 2005. – 960 с.

4. Психогении в экстремальных условиях / Ю.А. Александровский, О.С. Лобастов, Л.И. Спивак, Б.П. Щукин [и др.]. – Москва: Медицина, – 1991. – 115 с.

5. Куликов, Л.В. Стресс и стрессоустойчивость личности. Теоретические прикладные вопросы психологии. Учебник. / Л.В. Куликов – Санкт-Петербург: Вып. 1. Санкт-Петербургский Государственный Университет, – 1995. – с. 123-132.

6. Gözəlov, S.S. Fövqəladə hallara qarşı psixoloji hazırlığın formalaşdırılması / S.S. Gözəlov, A.M. Məmmədov [və b.] // Milli Aviasiya Akademiyasının elmi əsərləri, – şəhər: – 2006. №2, – s. 174-187.

7. Əliyev, N.A. Taktiki hazırlığın mükəmməlləşdirilməsinin pedaqoji-psixoloji aspektləri. Dərslik. / N.A. Əliyev, S.S. Gözəlov – Bakı: AAHDM, – 2008. – 216 s.

8. Əliyev, N.A. Hərbi qulluqçuların döyüş fəaliyyətinin və xidmətinin psixoloji təhlili. Dərslik. / N.A. Əliyev, S.S. Gözəlov – Bakı: BAHDM, – 2000. – 59 s.

9. Gözəlov, S.S. Şəxsi heyətin psixoloji hazırlığının formalaşdırılması // – Bakı: Hərbi bilik, – 2007. №3, – s. 75-85.

10. Əliyev, N.A. Hərbi qulluqçularla fərdi psixoloji hazırlığın aparılması metodikası. Dərslik. / N.A. Əliyev, S.S. Gözəlov – Bakı: AAHDM, – 2003. – 124 s.

11. Əliyev, N.A. Hərbi təlimin pedaqoji psixologiyasının əsasları. Dərslik. / N.A. Əliyev, S.S. Gözəlov – Bakı: BAHDM, – 2001. – 69 s.

## Аннотация

**Методологические проблемы формирования психологической устойчивости чрезвычайных ситуаций мирного и военного характера**

**Саявуш Гёзалов, Садагат Мусаева**

В статье раскрывается роль морально-психологической и гуманитарной подготовки личного состава в повышении психологической устойчивости и методические аспекты формирования психологической устойчивости.

Также особое внимание было уделено методическим проблемам укрепления психологической устойчивости военнослужащих (спасателей) как уникальной основе профессиональной подготовки по организации аварийно-спасательной подготовки и выполнению служебно-боевых задач в экстремальных условиях.

**Ключевые слова:** чрезвычайные ситуации, психологическая устойчивость, психологическая неустойчивость, адаптация, дезадаптация

**Abstract**

**Methodological problems of forming psychological stability in peaceful and military emergencies**

**Sayavush Gezalov, Sadagat Musayeva**

The article reveals the role of moral-psychological and humanitarian training of personnel in increasing psychological stability and methodological aspects of the formation of psychological stability.

Also, special attention was paid to the methodological problems of strengthening the psychological stability of military personnel (rescuers) as a unique basis for professional training in organizing emergency rescue training and performing service and combat tasks in extreme conditions.

**Keywords:** emergencies, psychological stability, psychological instability, adaptation, maladaptation

*Məqalə redaksiyaya daxil olmuşdur: 05.01.23*
*Təkrar işlənməyə göndərilmişdir: 13.01.2023*
*Çapa qəbul edilmişdir: 27.12.2023*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№4/2022, səh. 57-67**
***MİLLİ TƏHLÜKƏSİZLİK*** ***NATIONAL SECURITY***

UOT 351/354

# CƏNUBİ QAFQAZDA HƏRBİ-SİYASİ PROSESLƏR TƏHDİD MƏNBƏYİ KİMİ

**polkovnik-leytenant Cəfər Seyidov**
*Hərbi İdarəetmə İnstitutu*
E-mail: jafarseyidov@yahoo.com

***Xülasə.*** Məqalədə son 30 il ərzində Cənubi Qafqazda hərbi-siyasi proseslərin destruktiv nəticələrindən bəhs edilir. Bu məqsədlə hərbi-siyasi proseslərin anlayış aparatına, onların hərbi və siyasi tərkibləri və qarşılıqlı əlaqəsinə, müasir dünyada hərbi-siyasi proseslərin yüksəlişinə təkan verən bəzi məsələlərə aydınlıq gətirilib.

Vətən müharibəsindən sonra regionda yaranmış yeni geosiyasi reallığın konfliktogen potensialı əsaslandırılıb. Bu istiqamətdə Ermənistanın destruktiv mövqeyi və 10 noyabr 2020-ci il bəyanatının şərtlərindən yayınması cəhdləri təhlil edilib.

**Açar sözlər:** hərbi-siyasi proseslər, Cənubi Qafqaz, sərhədlərin demarkasiya və delimitasiyası, Vətən müharibəsi, yumşaq təhdid, ənənəvi təhdidlər

Cənubi Qafqaz dünyanın müharibə və münaqişələrdən daima əziyyət çəkmiş regionlarından biridir. Əsrlər boyu həyata keçirilən bölücülük siyasəti imperiya maraqlarına uyğun müəyyənləşdirilib və etnoplüralizm bu regionu “etnik mina sahəsi”nə çevirib. Cənubi Qafqazda siyasət, iqtisadiyyat və təhlükəsizlik bir-biri ilə daha az bağlıdır, orada hökumətlərarası təşkilatların olmaması regionda iqtisadi və siyasi inkişafın dəstəklənməsini, daha etibarlı təhlükəsizliyin, sülh və rifahın təmin edilməsini sual altına alıb [1, s.118].

Müasir dünya siyasətinin qeyri-sabit və dinamik dəyişkən olması hərbi-siyasi proseslərə ciddi təsir göstərir və onların mahiyyətini, inkişaf dinamikasını və perspektivlərini müəyyənləşdirməkdə çətinliklər yaradır. Qeyri-dövlət aktorlarının təsir imkanlarının artması, güc tətbiqi üzərində monopoliyanın dövlətin əlindən çıxması, beynəlxalq hüququn işləməməsi hərbi-siyasi proseslərin xaotik inkişafını şərtləndirir və tənzimlənməsi yollarını getdikcə mürəkkəbləşdirir. Etnik münaqişələr, transmilli təhdidlər, din-məzhəb müharibələri, terrorizm müasir dünyada ciddi narahatlıq yaradan, qlobal sülhü və təhlükəsizliyi təhdid edən hərbi-siyasi problemlərdən sayılır. İkili standartlar bu problemlərə qarşı vahid baxışın yaranmasına və mübarizə yollarının effektivliyinə ciddi zərbə vurur.

Müasir dünyada hərbi-siyasi proseslərin yüksəlişinə təkan verən bəzi məsələləri: qızğın silahlanma kursu, hegemoniya siyasəti, terrorizmin ekspansiyası, etnik ziddiyyətlər, informasiya və kommunikasiya texnologiyalarının hərbi-siyasi məqsədlər naminə istifadəsini və s. qeyd etmək olduqca vacibdir. Müasir təhdidlər kompleks xarakter daşıdığı üçün dövlətin milli təhlükəsizliyinin qorunması daha mürəkkəb sosial fəaliyyətə çevrilməklə daxili, siyasi, iqtisadi, hərbi, geosiyasi, informasiya və etnokonfessional sferaları əhatə edir. Həmin təhdidlərin dövlətə qarşı destruktiv təsirləri çoxaspektli hesab edilir.

Hərbi-siyasi proseslər adından da göründüyü kimi, iki anlayışı özündə birləşdirir: hərbi və siyasi. Hər iki anlayış müstəqil məna kəsb edir. Siyasi proseslər daha çox dinc, qeyrı-hərbi prosesləri əhatə edirsə, hərbi proseslər qarşıdurma, toqquşma və hərbi gücün tətbiqi ilə xarakterizə edilir.

Şübhəsiz ki, siyasət daha geniş anlayışdır. O, eyni zamanda məram, məqsəd, tapşırıq, həm də vasitə kimi çıxış edir. Lakin hərb birmənalı olaraq yalnız qarşıya qoyulmuş maraqların gerçəkləşməsi naminə silahlı qüvvələrdən istifadəni nəzərdə tutur.

Siyasət özünəməxsus geniş funksional sistemi xatırladır və bir-biri ilə qarşılıqlı təsirdə olan müxtəlif elementlərdən ibarətdir. Həmin elementlər arasında hərbi element daima mühüm yer tutur. Əgər soyuq müharibə dövründə bu, Qərb-Şərq qarşıdurması və qlobal militarizasiya fonunda izah edilirdisə, “postsoyuq müharibə” dövründə qloballaşma və yüksək texnologiyaların inkişafı nəticəsində

hərbi zorakılıq coğrafiyasının, dağıdıcılıq qabiliyyətinin və transformasiya imkanlarının xeyli genişlənməsi ilə əlaqələndirilir.

Hərbi və siyasi proseslər bir-biri ilə sıx vəhdətdədir. Karl fon Klauzeviçin "müharibə siyasətin bu və ya digər yollarla davamıdır" fikri siyasətlə hərb arasında sıx bağlılığın əyani sübutudur. Bu asılılıq onların məqsəd və vasitələrinin üst-üstə düşdüyü yekun nəticədə: müharibə və silahlı münaqişələrdə, hərbi-siyasi böhran və digər hərbi qarşıdurmalarda qələbə və məğlubiyyətdə özünü büruzə verir. Beləliklə, hərbi-siyasi proseslər hərbi güclə siyasət arasında qırılmaz vəhdətdən qaynaqlanır. Hərbi-siyasi prosesi siyasi və hərbi vasitələrin vəhdətində siyasi məqsədlərə nail olmaq məqsədilə onun aktorlarının nizamlı hərəkətləri və qarşılıqlı əlaqəsi kimi müəyyənləşdirmək olar.

Məlumdur ki, müxtəlif dövlətlər və regionlar üçün özünəməxsus təhdidlər iyerarxiyası mövcuddur. Onlar çox zaman bir-birindən fərqlənir [2, s.430]. Qanlı və üzücü müharibələr, soyqırımı və deportasiyalar, xarici müdaxilələr Cənubi Qafqazın dövlətlərarası münasibətlər sistemində öz neqativ təsirini bu günədək saxlamaqdadır. Ərazi iddiaları, dövlət sərhədlərini etnik sərhədlərlə əvəzləmək cəhdləri, etnikliyin siyasiləşməsi və ya siyasətin etnikləşməsi, xarici qüvvələrin rəqabəti regionda etimad mühitinin, kollektiv identikliyin və regional təhlükəsizliyin formalaşması imkanlarını heçə endirir.

Bu, region ölkələri arasında siyasi, iqtisadi və təhlükəsizlik məsələlərində asimmetriyanın güclü olduğuna dəlalət edir. Əminliklə, bu gün, yəni Vətən müharibəsindən sonra regionda yaranmış yeni geosiyasi reallıq fonunda həmin asimmetriyanın hələ də qaldığını demək mümkündür. Bunu "3+3 formulu"na münasibətdə Gürcüstanın istəksiz olması, Ermənistanın isə hələ də rəsmi mövqe bildirməməsi ilə əlaqələndirmək olar. Tomas de Vall haqlı olaraq Cənubi Qafqazın davamlı təhlükəsizlik və sabitlikdən məhrum olmasını "daxildən edilən təzyiqlə müqayisədə xaricdən göstərilən müqavimətin daha güclü olması" ilə əlaqələndirib [3, s.2].

Cənubi Qafqazda tarixən formalaşmış milli-etnik, dini və mədəni (sivilizasiya) ziddiyyətlər regionda hərbi-siyasi vəziyyətə mənfi təsir göstərməkdə davam edəcək [4, s.124]. Region ölkələri arasında dövlət sərhədlərinin tam delimitasiya və demarkasiya edilməməsi, daxili münaqişələr nəticəsində boz ərazilərin yaranması və maqnit kimi transmilli cinayətləri özünə cəlb etməsi, belə ərazilərin milli dövlət suverenliyini və regional nizamı təhdid etməsi Cənubi Qafqazın təhlükəsizlik mühitinin qeyri-müəyyənliyini artırır, münaqişələrin qanunsuz fəaliyyətlərlə əlaqəyə girməsinə səbəb olur. Belə işbirliyi münaqişələrdən maddi məqsədlər naminə istifadə edilməsinə şərait yaradır və onun həlli perspektivlərinin dalana dirənməsinə gətirir. Regionda kriminogen durumun təhlükəli xarakteri qeyri-dövlət aktorlarının fəallaşmasına, ekstremist ideologiyaların yayılmasına, terrorizmin və dini radikalizmin təsir imkanlarının genişlənməsinə zəmin yaradır.

Regionun "soyuq müharibə"nin sərt nəzarət sistemindən xilas olması onun təhlükəsizlik problemlərini həll etməmiş, əksinə, yeni təhlükə və təhdidlərin meydana çıxmasına və transformasiyasına rəvac vermişdir. Eyni zamanda hələ keçmiş imperiya idarəçiliyi dövründə "boğulmuş" təhdidlər yenidən baş qaldırmışdır. "Ənənəvi" təhdidlər daha çox dövlətlərarası xarakterə malik olduğundan onları təyin etmək daha asan idi. Lakin müasir beynəlxalq münasibətlər sisteminin dövlətlərarası elementlərin mütləq təsirindən xilas olub, qeyri-dövlət amillərlə zənginləşməsi təhlükə və təhdidlərin təsnifatını çətinləşdirir [5, s.35].

Cənubi Qafqazda hərbi-siyasi təhdidlərin mənbəyi dondurulmuş etnosiyasi münaqişələr, etnoseparatizm və millətçilik, enerji resursları və dəhlizləri uğrunda hərbi toqquşmalar, militarizasiya və region ölkələrinin geooriyentasiyası, dinin siyasiləşməsi və kriminallaşması hesab edilir. Bu hərbi-siyasi təhdid mənbələri xarici müdaxilə səbəbindən eskalasiyaya məruz qalmaq və beynəlmiləlləşmək potensialına malikdir.

İranlı siyasətşünas M.Vaezi Cənubi Qafqazın hərbi-siyasi təhlükə və təhdidlərlə dolu qeyri-sabit təhlükəsizlik mühitinin öyrənilməsində strateji, etnik-siyasi və iqtisadi yanaşmalardan istifadə edib [6, s.39-41]:

1. *Strateji yanaşma.* Bu yanaşma "böyük geosiyasi oyunlar" modeli ilə əvəzlənə bilər. Burada həlledici amil regional rəqabətdə iri dövlətlər arasında amansız mübarizəyə istinad edir. Onların maraqlarında kolliziya regionda cərəyan edən münaqişələrin həlli perspektivlərini dalana dirəyir, sülh

danışıqları imitasiya xarakteri alır. Lakin bu yanaşma nisbi konsensusun əldə edilməsi imkanını qəti şəkildə inkar etmir. Aparıcı güclərin hərbi-siyasi təhdid mənbələrini birlikdə idarə etməklə müvəqqəti kompromis yolu ilə işbirliyi yaratmaq ehtimalı istisna edilmir. Misal qismində Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövcud olduğu zaman Rusiya ilə ABŞ-ın həm münaqişənin nizamlanması prosesində (ATƏT-in Minsk qrupunun həmsədrləri olması), həm də Azərbaycan neftinin emalı və daşınması prosesində əməkdaşlıq etməsini göstərmək olar. Lakin bunu digər postsovet münaqişələri: gürcü-abxaz, gürcü-osetin, Dnestryanı və Krım münaqişələri haqqında söyləmək mümkün deyil. Həmin münaqişələrdə Rusiya ilə Qərb arasında sərt və barışmaz mübarizə diqqətdən yayınmır.

2. *Etnosiyasi yanaşma*. Bu yanaşma etnoplüralist regionlara tətbiq edilir. Belə ki, çoxsaylı və tarixi ədavətə malik etnik qruplar regionda geosiyasi proseslərin dinamikasına ciddi, bəzən isə radikal təsir göstərirlər. Belə regionlarda etnoseparatizm, irredentizm, etnokonfessional qarşıdurmalar, xarici qüvvələrin ekspansionist planları yerli münaqişənin amansız, qanlı və beynəlmiləlləşmiş xarakter alması ilə nəticələnir. Digər tərəfdən, etnik və dini identiklik problemi münaqişənin eskalasiyası və qonşu ölkələr üçün təhdidedici xarakter alması ilə nəticələnə bilər. Bəzən də daxili etnosiyasi qarşıdurmalar “böyük geosiyasi oyunların” tərkib hissəsi kimi çıxış edir.

Daxili etnokonfessional qarşıdurmalarla xarici müdaxilə arasında bağlılıq “münaqişənin balkanlaşması” adlı elmi ifadənin meydana çıxmasına səbəb olub. Z.Bjezinski xarici proteksiyalı daxili etnosiyasi münaqişələrlə zəngin regionları “Avrasiya Balkanları” kimi qələmə verib. Bu yanaşmanın əsas məqsədi regional təhlükəsizliyi ciddi təhdid edən etnosiyasi amillə assosiasiya edilən setsessiya, irredentizm, enozis, separatizm, radikalizm, ekstremizm, ksenofobiya, terrorizm, millətçilik, soyqırımı, deportasiya və s. neqativ hadisələrin və onların sarsıdıcı nəticələrinin təhlil edilməsi hesab edilir. Artiq öz həllini tapmış Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi istisna edilməklə, hal-hazırda dondurulmuş vəziyyətdə qalan gürcü-abxaz və gürcü-osetin münaqişələri haqqında bəhs etdiyimiz yanaşmaya daxildir.

Həmin münaqişələr daxili ərazi mübahisələri kontekstindən kənara çıxır, regional və beynəlxalq nəticələr doğurur, Rusiya – Gürcüstan münasibətlərinin inkişafına əsas maneə hesab edilir. Hərbi toqquşmaların eskalasiya riski onsuz da sabitlikdən uzaq olan Cənubi Qafqaz üçün ciddi təhdid hesab edilir [7].

3. *İqtisadi yanaşma*. Bu yanaşmada regionun iqtisadi imkanları bir tərəfdən sabitsizliyin və fraqmentasiyanın leytmotivi, digər tərəfdən isə modernizasiya və inkişafın təminatçısı kimi çıxış edir. Qafqaz regionunun zəngin neft-qaz resursları regional və transregional qüvvələrin amansız geosiyasi rəqabətini stimullaşdırır. Enerji mənbələrə çıxış çox zaman müharibə və etnik münaqişələrlə nəticələnib. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə Azərbaycan neftinin nəqli məsələsi arasında əlaqə buna misal ola bilər. 1995-ci ildə Azərbaycan neftinin daşınması məsələsində iki marşrutun lehinə qərar qəbul edildi. Birinci marşrut Bakı – Novorossiysk rus-çeçen müharibəsinə maneə kimi qəbul edilirdi. Ana xətt kimi dəyərləndirilən Qərb marşrutunu isə qəbul edə bilməyən qüvvələr həmin marşrutun keçdiyi ölkələrdə sabitsizlik və hərbi çevrilişlər törətməyə cəhd etmişlər. Regionda təhlükəsizliyin yaradılmasında enerjinin roluna gəldikdə isə belə bir fikir irəli sürmək olar ki, neft yataqlarının istismarı təhlükəsizliyi zəruriləşdirir. Başqa sözlə desək, regionda təhlükəsizlik nə qədər davamlıdırsa, investisiyaların axını imkanları da bir o qədər genişdir. Təəssüflər olsun ki, Ermənistan uzun müddət işğalçılıq siyasətinə üstünlük verdiyi üçün Azərbaycan neftindən yararlanmaq və onun əsas tranzitoruna çevrilmək şansından özünü məhrum etmişdir. Vətən müharibəsindən sonra regionda Zəngəzur dəhlizinin açılması məsələsi, həmçinin dondurulmuş gürcü – abxaz və gürcü – osetin münaqişəsinin qeyri-qanuni iqtisadi fəaliyyətlərlə əlaqəsi bu yanaşma kontekstində təhlil edilə bilər.

Ümumiyyətlə, Gürcüstandakı etnoregional separatizmin həll edilməməsi Azərbaycanı bu ölkə vasitəsilə Türkiyə və Avropaya bağlayan neft-qaz boru kəmərləri və nəqliyyat kommunikasiya xətlərinin təhlükəsizliyi, eyni zamanda Qərbin Gürcüstanda siyasi və geoiqtisadi maraqları üçün ciddi təhdid hesab edilir.

Regionun hərbi-siyasi təhdidləri arasında dinin siyasiləşməsi tendensiyasından irəli gələn terrorizm, dini ekstremizm və radikalizmi qeyd etmək vacibdir. Qafqaz tarixən dünyanın ən mürəkkəb

etnik struktura malik bölgələrindən biri olub. Bölgədə 50-dən çox müxtəlif dil və ləhcələrdə danışan etnik qruplar mövcuddur. Qafqaz, eyni zamanda, müxtəlif dini konfessiyaların da məkanıdır. Burada çoxluq təşkil edən müsəlmanlarla yanaşı, yəhudi və xristian dinlərinin nümayəndələri də yaşayır. Məşhur tədqiqatçı Paul B.Henzeyə görə, din həmişə Qafqazda etnik kimliyin tamamlayıcı ünsürü olub [8].

Din ictimai həyatın bütün sferalarına – mənəvi, sosial, ictimai, siyasi və s. nüfuz edib. Statistik məlumatlara əsasən, 2000-ci ildən başlayaraq vətəndaş müharibələrinin 43 faizində din amilinə rast gəlinib. Lakin 1940 – 1950-ci illərdə bu rəqəm 25 faizi keçməmişdir [9, s.38].

Cənub qonşumuz İranın "islam inqilabını ixrac etmək" ideologiyası, Şimali Qafqazda etnik sahibkarların və radikal təmayül mənsublarının dini ekstremizm və radikalizmdən öz geosiyasi məqsədləri üçün yararlanmaq planları, regionumuza yaxın ərazilərdə – İraq və Suriyada İŞİD-in (İraq Şam İslam Dövləti) xilafət yaratmaq planları dinin siyasiləşməsi və kriminallaşması kimi təhlükəli tendensiyanın Cənubi Qafqazda yayılmasına rəvac vermişdir. İran, ərəb dünyası və Şimali Qafqazdan olan missionerlər və xeyriyyə təşkilatları öz ideologiyalarını yaymaq üçün ölkəmizi hədəf seçmiş və ictimai-siyasi sabitliyin pozulması istiqamətində fəaliyyətlər həyata keçirmişlər. Bu məqsədlə ölkəmizdə məqsədyönlü şəkildə bir çox humanitar təşkilatlar yaradılmış, humanitar yardımlar göstərilmiş və ədəbiyyatlar paylanılmış, gənclərimiz xaricdə, xüsusən də İranda dini mədrəsələrdə təhsil almağa cəlb edilmiş, hətta siyasi partiyaların (İslam partiyası) yaradılmasına nail olunmuş, ölkəmizdə "Ceyşullah" ("Allahın Ordusu"), "Əl-Qaidə", "Əl-Cihad", "Camaat əl-ihvan əl-muslimin" ("Müsəlmanlar – Qardaşlar"), "Hizb ut-Təhrir" terror təşkilatlarının fəaliyyətinə dair bəzi faktlara rast gəlinmişdir [9, s.162].

Azərbaycanda bu təhdidə qarşı ciddi institusional və operativ tədbirlər görülüb. Belə ki, 4 dekabr 2015-ci ildə ölkəmizdə Dini ekstremizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasinin Qanunu qəbul edilib [10]. Həmin qanunda Azərbaycan Respublikasında dini ekstremizmə qarşı mübarizənin hüquqi və təşkilati əsasları müəyyən edilmiş, dini ekstremizm əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının və vətəndaşların hüquq və vəzifələri təsbit olunmuşdur.

Qeyd edilən qanuna istinadən həyata keçirilmiş operativ tədbirlər nəticəsində ölkəmizdə dini ekstremizm və radikalizmin destruktiv fəaliyyətlərinin qarşısı alınmış və təşkilatçıları həbs edilmişdir. İslam partiyasının fəaliyyətinin qadağan edilməsi, 26 noyabr 2015-ci il tarixdə Nardaranda və 10 iyul 2018-ci ildə Gəncədə baş verən pozucu fəaliyyətlərin qarşısının alınması buna misaldır.

İŞİD-in güclənməsi ilə Azərbaycan hökuməti daha bir xarici təhlükə ilə mübarizə aparmalı oldu. Cəmiyyətin radikallaşmış bəzi ünsürləri ölkəni tərk edərək İŞİD-ə qoşulmaq qərarına gəldilər. 2018-ci ilə qədər 900-dən çox Azərbaycan vətəndaşı Suriya və İraqda terrorçu qruplaşmaların sıralarına qoşulmuşdur [11].

Qonşu Gürcüstanın polietnik tərkibi, separatçı regionlara malik olması, qonşu ölkələrin və Yaxın Şərqin həyatında baş verən hərbi-siyasi və sosial-iqtisadi xarakterli proseslərin bu ölkəyə təsirləri dini ekstremizm və radikalizm riskini artırır. Gürcüstanın müsəlman icmasına mənsub olan radikal təfəkkürlü insanların İŞİD-in tərkibində vuruşması, Acarıstan və Kaxetiyada bəzi radikal sələfi qruplarının mövcud olması faktı qonşu ölkədə dini ekstremizm və radikalizmin dayaqlarının güclü olması və separatçı rejimlərin simasında münbit inkişaf şəraitinə malik olması ilə əlaqələndirilir. Hazırda Gürcüstan ərazisində mövcud olan separatçı rejimlər Cənubi Qafqazda transmilli təhdidlərin, o cümlədən dini ekstremizm, radikalizm və terrorizmin yeganə inkişaf mənbəyi və transfer zonası hesab edilir və regionun təhlükəsizliyini ciddi təhdid edir.

Qərb tədqiqatçısı Lourens Broers Cənubi Qafqazda inteqrasiyaya mane olan *dörd* amili xüsusilə qeyd edir: coğrafiya, pul, risk, müqavimət və rəqabət [12]. Yerli tədqiqatçı Əli Abbasov 2020-ci ildə qazanılmış qələbədən sonra Azərbaycan üçün yeni risk və çağırışların üzə çıxdığını əsaslandırmağa çalışır. Həmin risk və çağırışlar dar regional (Azərbaycan, Ermənistan və Gürcüstan); geniş regional (Rusiya, Türkiyə və İran); regiondan kənar (ABŞ, Aİ və qismən də ÇXR) olmaqla üç yerə bölünür [13]. Dar çağırışlar region ölkələri arasında fikir ayrılıqlarından, ərazi-sərhəd problemlərindən, etnik və konfessional müxtəlifikdən, ideoloji məsələlərdən ibarət ziddiyyətlərlə assosiasiya edilir.

Geniş regional çağırışlar isə tarixən regionda nəzarət və dominantlıq uğrunda mübarizə aparmış Rusiya, Türkiyə və İranın müasir şəraitdə Cənubi Qafqazda maraqlarının asimmetriyasından qaynaqlanır. Regiondankənar çağırışlar isə transregional qüvvələrin regiona daxil olmaq üçün apardıqları siyasətlə sıx bağlıdır.

Cənubi Qafqazda regional təhlükəsizliyi təhdid edən hərbi-siyasi proseslər arasında dövlətlərarası sərhədlərin hələ də tam müəyyən edilməməsi mühüm yer tutur. Regionumuzda bu problemin tarixi kökləri sovet hökumətinin məqsədyönlü şəkildə sərhədləri dəyişdirməsi siyasətinə gedib çıxır. Respublikalar arasında sərhədlər 40 dəfədən artıq, muxtar respublikalar və vilayətlər arasında isə daha çox dəyişikliyə məruz qalıb [14, s.57]. Sərhədlərin tez-tez dəyişdirilməsi və əhalinin köçürülməsi siyasəti ucbatından SSRİ-nin süqutu ərəfəsində etnik, tarixi və hüquqi nöqteyi-nəzərdən imperiyadaxili sərhədlər sabit deyildi. Məhz bu səbəbdən çoxmillətli sovet imperiyasının süqutu həmin sərhədləri mübahisə obyektinə və qanlı ayırıcı xətlərə çevirmişdir. Z.Bjezinskinin fikrincə, bu regionlarda sovet hökumətinin inzibati ərazi bölgü modeli daxili hərc-mərcliyin saxlanılmasına və cənub regionlarının Rusiya imperiyasından asılılığının təmin edilməsinə hesablanmışdır.

Cənubi Qafqazın təhlükəsizliyinə Azərbaycanın Ermənistan və Gürcüstan ilə dövlət sərhədlərinin demarkasiya və delimitasiyasının yekunlaşmaması ciddi təsir göstərir. Azərbaycanla Gürcüstan arasında dövlət sərhədlərinin demarkasiya və delimitasiyası ilə bağlı komissiya 1996-cı ildən fəaliyyətə balasa da, bu günədək ölkələr arasında sərhəd xəttinin üçdə bir hissəsi nizamlanmamış qalır. Həmin hissəyə "Keşikçidağ" monastır kompleksinin müəyyən hissəsinin yerləşdiyi ərazi də daxildir. Məhz həmin monastır komleksi ilə bağlı ölkələrimiz arasında 2019-cu ilin mayında qeyri-hərbi xarakterli insident baş vermişdir. Azərbaycanla Gürcüstanın strateji tərəfdaş olması bu məsələnin kəskinləşməsinə imkan vermədi. Həmin insident zamanı hər iki ölkə ərazisində separatçı rejimlərin olması bu problemin kəskinləşməsinə imkan verməmişdir. Hazırda regionda siyasi reallıq kökündən dəyişib. Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi Gürcüstanla mübahisəli ərazi-sərhəd probleminin həllində mövqeyini gücləndirə bilər.

Ermənistanla Gürcüstan arasında da sərhəd problemi hələ öz yekun həllini tapmayıb. Düzdür, hər iki ölkə arasında sərhəd problemi qanlı toqquşma obyekti olmasa da, regionda istənilən zaman sabitliyin pozulmasına xidmət edə bilər. Ermənistanın Gürcüstanla sərhəd probleminin gərginlik mənbəyinə çevrilməməsi rəsmi İrəvanın iki cəbhədə mübarizə aparmaq iqtidarında olmamasından irəli gəlib. Xatırladaq ki, Gürcüstanla Ermənistan sərhədinin demarkasiyası ilə bağlı danışıqlar uzun müddətdir – 90-cı illərdən etibarən – aparılır. 1996-cı ildən iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası komissiyaları fəaliyyət göstərir. Lakin proses ləngiyir. 225 km-lik sərhəd xəttinin 78 km-i hələ razılaşdırılmayıb və dəqiqləşdirilməyib [15].

Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiya və demarkasiyası problemi İkinci Qarabağ müharibəsindən sonrakı dövrün ən kəskin problemlərindən birinə çevrilib. "Delimitasiya" latınca "delimitatio" sözündən götürülüb, mənası "qeyd" deməkdir. Siyasi ədəbiyyatda və beynəlxalq hüquqda qeyd olunduğu kimi, delimitasiya prosesi qonşu dövlətlərlə sərhəd xətlərinin müəyyən edilməsinin ilk mərhələsidir. Delimitasiya prosesi zamanı, bir qayda olaraq, xəritələr üzərində relyef, hidroqrafiya, yaşayış məntəqələri ətraflı göstərilir. Bu proses yekunlaşdıqdan sonra dövlət sərhəd xətti ilə bağlı müqavilə imzalanır.

"Demarkasiya" isə fransızca "demarcation" sözündən götürülüb, mənası "ayırma" deməkdir. Dövlət sərhədinin müəyyənləşdirilməsinin ikinci mərhələsidir. Demarkasiya əvvəldən hazırlanmış delimitasiya müqaviləsinə və ona əlavə olunan xəritə və təsvirlərə uyğun şəkildə dövlət sərhəd xəttinin ərazidə müəyyənləşdirilməsidir.

Dövlət sərhədlərinin müəyyən edilməsi ilə Azərbaycan, Ermənistan və Rusiya baş nazirləri müavinlərinin daxil olduğu üçtərəfli işçi komissiya məşğul olur. Sərhədin demarkasiya və delimitasiyası üzrə üçtərəfli komissiyanın yaradılmasından sonra mümkün irəliləyişlə bağlı ümidverici halların qarşısını Ermənistan vaxtaşırı pozucu mövqeyi ilə almağa çalışır. Azərbaycan, Rusiya və Türkiyə əmindir ki, sərhəd və kommunikasiyaların açılması davamlı siyasi sülh və təhlükəsizlik üçün möhkəm zəmin yaradacaq. Xüsusən də, bu addım normallaşma prosesinə start verə və sonradan Ermənistan –

Türkiyə münasibətlərində də "sıfır siyasəti"nin tətbiq olunmasına gətirə bilər. Ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin qarşılıqlı tanınması ilə bağlanan sülh sazişi Cənubi Qafqazda sabitliyi möhkəmləndirə və dayanıqlı edə bilər.

Lakin bu məsələdə konstruktiv nəticənin olmaması bir sıra səbəblərlə əlaqəlidir. Birincisi, Ermənistanla Azərbaycan arasında dövlət sərhədləri hansı xəritə üzrə həyata keçiriləcək? Bu istiqamətdə bir neçə xəritə mövcuddur. Ermənistan hazırda Azərbaycanla dövlət sərhədlərini 1991-ci ildə imzalanmış Almatı Bəyanatına uyğun tənzimləməyə çalışır. Həmin bəyanata istinad etməklə, o Ermənistanın 29,8 min kv.km-lik ərazisini saxlamağa çalışır, Dağlıq Qarabağa olan ərazi iddialarından əl çəkir və həmin ərazinin Azərbaycanın tərkib hissəsi kimi tanıyır [16].

Bununla belə, N.Paşinyan siyasi rəqiblərini – müxalifət-diaspor nümayəndələrini sakitləşdirmək məqsədilə Dağlıq Qarabağın ərazi deyil, hüquqlar məsələsi olduğunu bəyan edir.

Ermənistanın BMT-yə daxil olarkən rəsmən tanındığı 29,8 min kv.km-lik ərazisi 1920 – 1929-cu illər ərzində sovet hökuməti tərəfindən genişləndirib. Həmin illərdə Azərbaycanın 20 min kv.km torpaqları (Qərbi Zəngəzur, Göyçə tam, Qazax ərazisinin 4,1 min kv.km-i, üstəlik, Naxçıvanın bir hissəsi (Dərələyəz mahalına qatılıb) qeyri-qanuni şəkildə heç bir referendum və ya plebisit keçirilmədən Ermənistana bəxşiş edilib. Məhz bu səbəbdən, rəsmi İrəvan demarkasiya və delimitasiya məsələsini 1929 – 1991-ci illəri əhatə edən xəritələr üzərində həll etməyə çalışır [16].

Azərbaycanın isə 1918 və 1920-ci illərdəki xəritələrə istinad etməsi tam məntiqlidir. 1918-ci il xəritəsində İrəvan Azərbaycanın tərkib hissəsi idi. 1920-ci il xəritəsinə əsasən Zəngəzur Azərbaycan ərazisi olub. Azərbaycan bu məsələdə tarixin nəzərə alınmasını, 1918-ci ildən və hətta ondan əvvəlki dövrün xəritələrindən başlayaraq Sovet İttifaqının dağıldığı dövrə qədər olan bütün xəritələrdən istifadəni zəruri hesab edir" [17].

İkinci Qarabağ müharibəsindən sonra sovet dövrünün inzibati-ərazi bölgüsünə zidd olaraq, Ermənistanın sonradan inşa etdiyi Gorus – Qafan yoluna nəzarəti Azərbaycanın yurisdiksiyasına keçib və orada polis postu qurulub. Bu yolla İrandan Qarabağa (Xankəndinə) və Ermənistana daşınan qanunsuz yüklərin qarşısı alınıb. Həmin yolda polis postu qurulandan bir ay ərzində (2021 noyabrından dekabrın ortalarınadək) dövlət büdcəsinə 2 milyon manata yaxın vəsait toplanıb [18].

Bundan əlavə, Naxçıvanın Ermənistan tərəfindən işğal edilmiş Kərki, Qazax rayonunun 7 kəndi, həmçinin və 10 noyabr bəyanatının şərtlərinə əsasən, rus sülhməramlılarının nəzarətində olan torpaqlarımız Azərbaycana təhvil verilməlidir.

Sərhədlərin demarkasiya və delimitasiyası məsələsinin yubanmasına Ermənistan hakimiyyəti ilə müxalifəti arasında olan fikir ayrılıqları mane olur. Müxalifət 44 günlük müharibədəki acınacaqlı məğlubiyyətə görə baş naziri ittiham edir və onu devirməyə çalışır. N.Paşinyan isə müxalifətlə onsuz da gərgin olan münasibətləri daha da alovlandırmaq istəmir. Məhz bu səbəbdən demarkasiya məsələsində ikili siyasət yeridir.

Şübhəsiz ki, Vətən müharibəsindən sonra Ermənistan – Azərbaycan sərhədində 16 noyabr 2021 və 13 sentyabr 2022-ci illərdə baş vermiş qanlı hadisələr Rusiyanın regionda sülhməramlı fəaliyyəti üçün təhdid sayıla bilər. Belə ki, hərbi toqquşmaların dövlət sərhədləri boyunca baş verməsi şimal qonşumuzun vasitəçilik fəaliyyətinə zərbədir. Çünki eksterritorial nəqliyyat dəhlizlərinə (Laçın və Zəngəzur) nəzarət 10 noyabr bəyanatına əsasən Rusiyanın səlahiyyət dairəsinə keçib. Bunu anlayan Rusiya hakimiyyəti Qarabağda öz fəaliyyətinin effektivliyini təmin etmək üçün dövlət sərhədləri boyunca baş vermiş hərbi insidentlərin qarşısını almağa, vəziyyətin qeyri-sabitləşməsinə imkan verməməyə çalışır. Onun bu niyyətini 2021-ci ilin noyabrın 26-da Soçi şəhərində keçirilmiş üçtərəfli görüş zamanı əldə edilmiş bəyanatda görmək olar. Həmin bəyanatda Azərbaycan – Ermənistan sərhədində sabitlik və təhlükəsizlik səviyyəsinin artırılması üzrə addımların atılması və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası, sonradan tərəflərin sorğusu əsasında Rusiya Federasiyasının məsləhət yardımı ilə sərhədin demarkasiyası üzrə ikitərəfli komissiyanın yaradılması barədə razılığın əldə olunması öz əksini tapıb [19].

Əslində, sərhədlərin tezliklə demarkasiyası məsələsinin reallığa çevrilməsi ehtimalının yüksək olması 2021-ci ilin 15 dekabrında Brüsseldə keçirilmiş "Şərq tərəfdaşlığı" sammitində qəbul edilmiş

qərarlarda da özünü büruzə verib. Belə ki, Ermənistan – Azərbaycan dövlət sərhədinin delimitasiyası ilə bağlı hər iki tərəf müvəqqəti işçi qrupun yaradılması ilə bağlı razılığa gəldi.

Həmin görüşdə, kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi də geniş müzakirə olunmuş, Ermənistan tərəfi öz ərazisindən dəmir yolu xəttinin tikilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiqləmişdir. Ermənistan dəmir yolunun tikintisinə tezliklə başlayacağını bəyan etmiş, orada gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı prinsip əsasında təmin olunması barədə razılıq əldə edilmişdir. Bununla yanaşı, avtomobil yolu marşrutunun müəyyənləşdirilməsi ilə bağlı müzakirələrin davam etdirilməsi barədə qərar verilmişdir.

Brüssel sammitində Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi, Azərbaycanla bu təşkilat arasında yeni ikitərəfli sənədin hazırlanması, İttifaqa tədarük edilən qazın marşrut və mənbələrinin şaxələndirilməsinə xidmət edən Cənub Qaz dəhlizinin tamamlanması, Ermənistan və Azərbaycana vahid yanaşmanın tətbiq edilməsi və qəbul edilmiş qərarlarda anti-Rusiya ifadələrinin olmaması diqqəti cəlb edən məsələlərdən idi. Bu isə öz növbəsində regionda “yeni oyun qaydalarına” malik münasibətlər sisteminin formalaşmasına bir işarə hesab edilirdi.

Avropa İttifaqı 44 günlük müharibədə əldən verdiyi mövqeyi yeni geosiyasi reallıq fonunda birtərəfli və açıq şəkildə Ermənistanı dəstəkləməkdən əl çəkməklə və Rusiya ilə sərt qarşıdurmadan əməkdaşlığa keçməklə bərpa etməyə çalışıb. Belə ki, Avropa İttifaqı Ermənistan – Azərbaycan dövlət sərhədlərinin demarkasiyası üzrə işçi qrupunun yaradılması missiyasını öz üzərinə götürsə də, tərəflərin 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il razılaşmalarının şərtlərinə əməl etməsini vacib sayıb [20].

Rusiya da öz növbəsində Avropa ölkələrinin, xüsusən də Brüsselin Ermənistan – Azərbaycan və Ermənistan – Türkiyə arasında münasibətlərin normallaşması istiqamətində cəhdlərini dəstəkləmiş və bu cəhdlərin 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il razılaşmalarının həyata keçirilməsinə kömək edəcəyinə əmin olduğunu bəyan etmişdir.

Lakin Rusiya Ermənistan – Azərbaycan dövlət sərhədlərinin beynəlmiləlləşdirilməsində maraqlı olmadığını da gizlətməyib. Bununla əlaqədar Rusiya rəsmisi M.Zaxarovanın “Moskva, Bakı və İrəvan Azərbaycan – Ermənistan sərhədinin delimitasiyası, daha sonra demarkasiyası üçün tərəflərin istəyi ilə Rusiyanın məşvərətçi yardımı ilə ikitərəfli komissiya yaratmaq üçün addımlar atmaq barədə razılığa gəliblər. Biz öz tərəfimizdən Azərbaycana da, Ermənistana da lazımi dəstək verəcəyik” fikrini xatırlatmaq kifayətdir [21].

Rusiyanın Ukraynaya hərbi müdaxiləsi rəsmi Moskva ilə Qərb arasında münasibətlərin gərginləşməsi ilə nəticələnib və Ermənistan bu amildən yararlanmağa çalışır. Belə ki, o, Rusiyanın istəyinə zidd olaraq demarkasiya problemi beynəlmiləlləşdirməyə və bu istiqamətdə Avropa İttifaqının potensialından yararlanmağa çalışır. Avropa İttifaqı yeni geosiyasi reallıq fonunda Ermənistanın sərhədyanı ərazilərinə iki illik mülki monitorinq qrupunu göndərməklə regionda öz mövqelərini möhkəmləndirməyə çalışır. Şübhəsiz bu siyasətin arxasında Fransanın dayandığı ehtimal olunur. Avropa İttifaqı Qərblə birlikdə Ermənistanda möhkəmlənmək və Rusiyanı regionunun əsas təhlükəsizlik qarantı tarixi rolunu zəiflətmək məqsədi güdür [22].

Postmüharibə dövrünün təhdidlərindən biri də mina problemidir. İkinci Qarabağ müharibəsinin bitməsindən iki ildən artıq vaxt keçməsinə baxmayaraq, hələ də Ermənistan işğaldan azad edilmiş ərazilərin hamısının mina xəritəsini verməyib. Ümumiyyətlə, 2020 – 2022-ci illərdə 57,6 min hektar ərazi minalardan təmizlənib. 2023 – 2026-cı illərdə 215 min hektar ərazinin minalardan təmizlənməsi planlaşdırılır. 2026-cı ilin sonunda Qarabağda 280 min hektar ərazi minalardan təmizlənmiş olacaq [23].

Bu prosesi yubatmaqla Ermənistan azərbaycanlı məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasına mane olmağa çalışır. Digər tərəfdən, Ermənistan hərbi əsir kimi qələmə verməyə çalışdığı erməni diversantlarını mina xəritələrinin verilməsi müqabilində azad etməyə cəhd göstərir. Bu addımlar ABŞ, Avropa Birliyi, ATƏT və Gürcüstanın, həm də Rusiya Federasiyasının vasitəçilik səyləri nəticəsində mümkün oldu. Ermənistan əvvəlcə Ağdam rayonunda minalanmış sahələrin xəritələri qarşılığında 15 erməni məhbusu, sonra isə Füzuli və Zəngilan bölgələrində basdırdığı 92 min minanın xəritəsini təhvil verməsi qarşılığında daha 15 əsirini azad edə bildi.

İşğaldan azad edilmiş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi Azərbaycan hökuməti üçün həm həmin ərazilərin təhlükəsizliyi, həm də restavrasiya prosesi üçün prioritet hesab edilir. Bu məsələ qurumlararası əməkdaşlıq potensialı ilə tənzimlənir. BMT İnkişaf Proqramının rezident nümayəndəsinin müşaviri Çaru Bist minaların təhlükəsinə dair məlumatlandırmanın artırılmasını çox mühüm bir fəaliyyət olduğunu bəyan etməklə, 2020-ci ildə dünyada on mindən çox insanın minaların, yaxud da partlamamış hərbi sursatların qurbanına çevrilməsi faktını dilə gətirmişdir. Onun sözlərinə görə, "bütün bunlar kifayət qədər mürəkkəb və ciddi problemdir. Buna görə də dünyadakı mövcud vəziyyət bütün dövlətlər tərəfindən hərtərəfli nəzərə alınmalıdır. BMT-nin fəaliyyət istiqamətlərindən biri də partlamamış sursatların təhlükəsi haqqında məlumatlandırma prosesinin təşkilindən ibarətdir. BMT-nin dəstəyi ilə 1999-cu ildən bəri Azərbaycanda ANAMA (Minatəmizləmə Agentliyi) 6 mindən çox mina təmizləyib və bunun nəticəsində 160 mindən çox köçkünün geri qayıtmasına şərait yaranıb" [24].

Qeyd edilən məsələ ətrafında geosiyasi oyunlar hərbi-siyasi, sosial-iqtisadi və humanitar məzmun kəsb edir. Hərbi-siyasi oyunlara əsasən Ermənistanın revanşist davranışı və Qərbin ikili oyunu aid edilə bilər. 44 günlük müharibədə öz fəaliyyətsizliyi və ya ermənipərəstliyi ilə seçilmiş bəzi ölkələrin (xüsusən də ABŞ və Fransa) müharibədən sonra regionda mövqeyi tamamilə zəifləyib. Həmin zəifliyi kompensasiya etmək məqsədilə ABŞ və Fransa Qarabağın bərpası prosesində yer almaq məqsədilə Azərbaycanla əməkdaşlıq etmək məqsədi güdür. Bu məqsədlə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi üçün ABŞ ölkəmizə 500 min dollar [25], Fransa isə 400 min avro dəyərində vəsait ayırmağı planlaşdırmışdır [26].

Şübhəsiz, ərazilərin minalardan təmizlənməməsi orada infrastrukturun bərpası, inkişafın və təhlükəsizliyin bərqərar olması, insanların həmin ərazilərə köçürülməsi üçün ciddi təhlükə yaradır. Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın "İl Sole 24 Ore" qəzetinə verdiyi müsahibəsində minaların təmizlənməsinin çox bahalı iş olduğunu, insanların geri qayıdışına imkan vermədiyini bildirmiş və çıxış yolu qismində Avropa İttifaqının minaların təmizlənməsi ilə məşğul olan Avropa şirkətlərinə maliyyə yardımı ayırmasını və onların Azərbaycana gəlib işə başlamasını dilə gətirmişdir [27].

Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının ölkəmizə qarşı ikili standart siyasətini ayrılmış kreditlərin səviyyəsinin uyğunsuzluğu və ədalət prinsipinin gözlənilməməsi ilə əlaqələndirmiş və qeyd etmişdir ki, Ermənistana maliyyə töhfəsinin səviyyəsi istər ianə olsun, istərsə də kredit, Azərbaycanla eyni olmalıdır.

Minalarla çirkləndirilmiş ərazilərin təmizlənməsi işini sürətləndirmək və bu işlə məşğul olan heyətin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan müasir minatəmizləmə texnikası və texnologiyalarından istifadə edir. Türkiyə və Böyük Britaniyanın partlayışa qarşı mübarizə üzrə mütəxəssisləri azərbaycanlı həmkarlarına mina partlayışları təhlükəsini aradan qaldırmaq üçün təlim keçirlər. Xüsusən də rəsmi London Qərb ölkələri arasında mina əleyhinə tədbirlərin görülməsi üçün yarım milyon funt-sterlinq ayırmış ilk Avropa dövləti hesab edilir [28].

Cənubi Qafqazda hərbi-siyasi təhdidlər arasında informasiya müharibəsini də qeyd etmək lazımdır. "Yumşaq təhdid" kimi xarakterizə edilsə də, onun dağıdıcılıq qabiliyyəti heç də silahlı zorakılıqdan geri qalmır, əksinə, bir çox hallarda silahlı toqquşmalara rəvac verir. Postsovet məkanında baş vermiş "rəngli inqilabları, 2014-cü ildə Krımın işğalı ilə nəticələnmiş "hibrid müharibəni" xatırlatmaq kifayət edir.

Uzun müddət Ermənistan Azərbaycana qarşı dezinformasiya aparmaqla öz işğalçılıq siyasətini ört-basdır etməyə nail olmuşdur. Bu ənənəni İkinci Qarabağ müharibəsi zamanı da tətbiq etməkdən çəkinməyib. Belə ki, erməni təbliğatı Qarabağda Türkiyə və Pakistan xüsusi təyinatlılarının, eləcə də Azərbaycan Ordusunun tərəfində döyüşən suriyalı muzdluların olması ilə bağlı feyk xəbərlər yaymaqla şanlı qələbəmizə kölgə salmağa çalışmışdır. Xüsusən də Ermənistan 44 günlük müharibədə NATO ölkəsinin – Türkiyənin iştirakı barədə feyk xəbərlər yaymaqla, məqsədyönlü şəkildə Rusiyanı qısqandırmağa və Türkiyəyə qarşı ciddi hərbi tədbirlər görməyə sövq etməyə çalışmışdır [29].

Lakin onların və havadarlarının heç bir fakt təqdim edə bilməməsi, Azərbaycan Prezidenti İlham Əliyevin xarici KİV-ə verdiyi müsahibələrində erməni yalanını faktlarla ifşa etməsi İkinci Qarabağ müharibəsində Ermənistanın informasiya təxribatlarının qarşısını almış, hətta işğalçı ölkəni informasiya müharibəsində üstələməyi bacarmışdır.

## Nəticə

"Soyuq müharibə"nin başa çatmasından otuz il keçməsinə baxmayaraq, hələ də Cənubi Qafqaz hərbi-siyasi təhdidlərin girovundan tam xilas olmayıb. Regionda dondurulmuş münaqişələr (erməni – azərbaycanlı, gürcü – abxaz və gürcü – osetin) uzun müddət hərbi-siyasi sabitliyin pozulmasında və xarici qüvvələrin maraqlarının təmin edilməsində əsas alət, həmçinin regionu Avropaya bağlayan beynəlxalq neft-qaz və nəqliyyat layihələri üçün təhdid mənbəyi olub. 44 günlük müharibədən sonra öz həllini tapmış Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi istisna olunmaqla, Gürcüstandakı etnoregional münaqişələr öz destruktiv potensialını saxlamaqdadır. Separatizm mənbəyi olan həmin münaqişələr regionda strateji sabitlik üçün hərbi təhdid mənbəyi olaraq qalmaqdadır.

Dini ekstremizm təhlükəsini də regionun ictimai-siyasi həyatından tamamilə silmək hələ çox tezdir. Cənubi Qafqaza qonşu Yaxın Şərq regionunda din-məzhəb qarşıdurmalarının davam etməsi region üçün dini ekstremizm və radikalizm təhlükəsini labüd edir. Azərbaycan və Gürcüstan həmin təhdidə həssas olaraq qalmaqdadır.

İkinci Qarabağ müharibəsi Ermənistanın işğalçılıq və transmilli terror siyasətinə son qoysa da, postmüharibə dövründə yeni təhdidlər üzə çıxıb və strateji sabitliyin bərpa olunmasına imkan vermir. Demarkasiya məsələsinin beynəlmiləlləşməsi baş verməkdədir. Bu, demarkasiya prosesini geosiyasi rəqabət sahəsinə çevirməyə və sülh prosesini yubatmağa qadirdir. Demarkasiya məsələsinin məqsədyönlü şəkildə yubadılması və ya müxtəlif hərbi təxribatlarla pozulması Ermənistanın 10 noyabr 2020-ci il bəyanatının şərtlərindən yayınmasına dəlalət edir. Bu addım həm də Zəngəzur dəhlizinin açılması prosesinin qarşısının alınmasına yönəlib. Ermənistanın minalanmış ərazilərin xəritəsini verməməsi və ya verdiyi xəritələrin 25 faiz dəqiq olması işğaldan azad olunmuş ərazilərə azərbaycanlı məcburi köçkünlərin qayıdışına mane olur. Rusiya sülhməramlılarının Dağlıq Qarabağda qalmış Ermənistan Ordusuna məxsus silahlıları tərk-silah etmədən kommunikasiya probleminə prioritet verməsi keçmiş münaqişə zonasında dayanaqlı sülhə və yaradılmaqda olan infrastrukturun təhlükəsizliyinə təminat vermir.

Digər tərəfdən, Ermənistanın Avropa İttifaqının mülki missiyasını öz sərhədyanı ərazilərinə gətirməsi onun regionda yeni geosiyasi nizamı pozmaq, 10 noyabr sülhünün perspektivlərinə zərbə vurmaq, Rusiyanı regionda Ukraynada olduğu kimi Qərblə üz-üzə qoymağa xidmət edir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. В ожидании бури: Южный Кавказ / М.С. Барабанов [и др.]. – М.: Центр анализа стратегий и технологий, – 2018. – 200 с.

2. Торкунова, А.В. Современные международные отношения. Учебник. / А.В.Торкунова, А.В.Мальгина – Москва: Аспект Пресс, –2017. – 688 с.

3. Томас, де В. Карабахская западня. Угрозы и дилеммы Нагорно-Карабахского конфликта // Лондон: Conciliation resources, – 2008. Декабрь, – с.1-17.

4. Прогнозируемые вызовы и угрозы национальной безопасности Российской Федерации и направления их нейтрализации / Под общ. ред. А.С.Коржевского; редкол.: В.В. Толстых, и.а. копылов. – М.: рГГу, 2021. – 604 с.

5. Логунов, А.Б. Региональная и национальная безопасность. Учебное пособие. / А.Б.Логунов. – Москва: Вузовский учебник, – 2009. – 432 с.

6. Dr. Mahmud Vayezi. Postsovet dövründə yeni regional təhlükəsizlik yanaşmaları // – Bakı: Azerbaijan Focus. Journal of. International Affaris, – Oktyabr-Dekabr 2010. № 3. – s.32-56.

7. Ёлчуев, О. Кто стоит за кровавой провокацией на границе Азербайджана и Армении?: [Elektron resurs] / STEM. – Баку, 19.11.2021. URL: https://stem-lab.az/article/kto-stoit-za-krovavoi-provokatsiei-na-qranitse-azerbaidzhana-i-armenii-197?fbclid=IwAR2W9nAPy9h9qVtE2ea1EkI1pBqpy1LBFn1e7pRtdrfMuCyh1lR9isK32MA

8. Qarayeva, S. İslam dini Qafqazda birləşdirici mənəvi qüvvə kimi - Münasibət: [Elektron resurs] / 525-ci qəzet. – Bakı, 21.07.21. URL: https://525.az/news/172449-islam-dini-qafqazda-birlesdirici-menevi-quvve-kimi-munasibet

9. Вызовы религиозного экстремизма в глобализирующемся мире: коллективная монография / Под ред. проф. Р.Ф. Патеева, В.Т. Сакаева. – Казань: Фолиант, 2017. – 232 с.

10. Dini ekstremizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 4 dekabr 2015-ci il. № 27-VQ

11. İraq: “Üç azərbaycanlı qadın ömürlük həbs edilib”: [Elektron resurs] / BBC. – Bakı, 4 May 2018, URL: https://www.bbc.com/azeri/azerbaijan-43986612

12. Броерс, Л. Заложники вражды: региональные связи после Второй карабахской войны: [Электронный ресурс] // Международный дискуссионный клуб «Валдай». – Москва, 12.07.2021. URL: https://ru.valdaiclub.com/a/highlights/zalozhniki-vrazhdy/

13. Абасов, А. Азербайджан - 2021 (статья первая): [Elektron resurs] / Turan.az. – Bakı, 2021 Январь 01. URL: https://www.turan.az/ext/news/2021/1/free/analytics/ru/3.htm/001

14. Сикевич, З.В. Социология и психология национальных отношений: Учебное пособие. / З.В.Сикевич. – СПб.: Издательство Михайлова В.А., – 1999. – 370 с.

15. Alpər Mövludoğlu. “Hraparak”: Ermənistan-Gürcüstan sərhədində demarkasiya işləri aparılır?: [Elektron resurs] / Ordu. Az. – Bakı, 21 Oktyabr 2022. URL: https://ordu.az/az/news/237798

16. İrəvanın qorxusu: 29,8 min həyəcanı və 1929 “qərarı” nədir? [Elektron resurs] / Milli.az. – Bakı, 13 oktyabr 2022. URL: https://news.milli.az/politics/1077533.html

17. Azərbaycan-Ermənistan sərhədləri hansı xəritələrlə delimitasiya ediləcək? – İlham Əliyevdən açıqlama: [Elektron resurs] / Modern.az. – Bakı, 30 Aprel 2022. URL:https://modern.az/zengezur/346079/azerbaycan-ermenistan-serhedleri-hansi-xeritelerle-delimitasiya-edilecek-ilham-eliyev-aydinliq-getirdi/

18. İndiyədək Gorus-Qafan yolunun Azərbaycandan keçən hissəsində nə qədər rüsum toplandığı açıqlanıb: [Elektron resurs] / qarabağinfo.az. – Bakı, 12 dekabr 2021. URL:https://qarabaginfo.az/karusel/26096-ndiydk-gorus-qafan-yolunun-azrbaycandan-kecn-hisssind-n-qdr-rusum-topland-acqlanb.html

19. Керимов, Н. Кто победил на встрече Алиева и Пашиняна в Брюсселе?: [Электронный ресурс] / ИА.Regnum. – Москва, 18 декабр 2021. URL: https://regnum.ru/news/3455177.html

20. Армения и Азербайджан заверили ЕС в реализации договоренностей по Карабаху: [Электронный ресурс] // Известия iz. – Москва, 15 декабря 2021. URL:https://iz.ru/1264624/2021-12-15/armeniia-i-azerbaidzhan-zaverili-es-v-realizatcii-dogovorennostei-po-karabakhu

21. Rusiya XİN: “Aİ-nin Azərbaycan-Ermənistan sərhədinin delimitasiyasında iştirakını alqışlayırıq”: [Elektron resurs] / Report.az. – Bakı, 24 Dekabr 2021. URL:https://report.az/qarabag/rusiya-xin-ai-nin-azerbaycan-ermenistan-serhedinin-delimitasiyasinda-istirakini-alqislayiriq/

22. Официальный представитель МИД РФ коснулась деятельности миссии наблюдателей ЕС в Армении: [Электронный ресурс] / Armenpress. – Ереван, 20 Февраль 2023. URL: https://armenpress.am/rus/news/1104600.html 20 Февраль 2023

23. 2026-cı ilin sonuna qədər Qarabağda 280 min hektar ərazi minadan təmizlənmiş olacaq: Elekrton resurs] / Report.az. – Bakı, 16 noyabr, 2022. – URL: https://report.az/qarabag/2026-ci-ilin-sonuna-qeder-qarabagda-280-min-hektar-erazi-minadan-temizlenmis-olacaq/

24. BMT işğaldan azad edilmiş ərazilərinminalardan təmizlənməsinə kömək göstərəcək: [Elektron resurs] / Mədəniyyət. – Bakı, 07.04.2021.

URL:https://medeniyyet.az/page/news/56717/BMT-isgaldan-azad-edilmis-erazilerinminalardan-temizlenmesine-komek-gosterecek.html

25. ABŞ işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi üçün Azərbaycana 500 min dollar ayırıb: [Elektron resurs] / Trend.az. – Bakı, 6 Noyabr 2021. URL: https://az.trend.az/azerbaijan/gundem/3508686.html

26. Ərazilərin minalardan təmizlənməsi üçün Fransa 400 min avro ayıracaq: [Elektron resurs] / Azvision.az. – Bakı, 08 sentyabr 2021. URL: https://azvision.az/news/271171/-erazilerin-minalardan-temizlenmesi-ucun-fransa-400-min-avro-ayiracaq-.html

27. İlham Əliyev Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib: [Elektron resurs] / President.az. – Bakı, 18 dekabr 2021. URL: https://president.az/az/articles/view/54679

28. Великобритания выделила полмиллиона фунтов на помощь в разминировании территории Нагорного Карабаха и вокруг него: [Электронный ресурс] / ARMENPRESS. – Ереван, 1 сентябрь, 2021. URL: https://armenpress.am/rus/news/1062168.html

29. Ёлчуев, О. Фейки Карабахской войны: Чему служат сообщения об использовании сирийских наемников в зоне конфликта: [Elektron resurs] / STEM. – Баку, 5 нояб. 2020 г. URL:https://stem-lab.az/article/feiki-karabaxskoi-voiny-chemu-sluzhat-soobshcheniya-ob-ispolzovanii-siriiskix-naemnikov-v-zone-konflikta-49

**Аннотация**
**Военно-политические процессы на Южном Кавказе как источник угрозы**
**Джафар Сеидов**

В статье говорится о разрушительных последствиях военно-политических процессов на Южном Кавказе. Для этого уточнен аппарат понимания военно-политических процессов, их военно-политических составляющих и их взаимосвязи, а также некоторые вопросы, порождающие возникновение военно-политических процессов в современном мире.

Обосновывается конфликтогенный потенциал новой геополитической реальности в регионе после Отечественной войны. В этом направлении проанализирована деструктивная позиция Армении и ее попытки уклониться от условий заявления от 10 ноября 2020-го года.

**Ключевые слова:** военно-политические процессы, Южный Кавказ, демаркация и делимитация границ, Отечественная война, мягкая угроза, традиционные угрозы

**Abstract**
**Military-political processes in the South Caucasus as a source of threat**
**Jafar Seyidov**

The article talks about the destructive consequences of the military-political processes in the South Caucasus. For this purpose, the understanding apparatus of military-political processes, their military and political components and their interrelation, and some issues that give rise to the rise of military-political processes in the modern world have been clarified.

The conflict-causing potential of the new geopolitical reality in the region after the Patriotic War is substantiated. In this direction, the destructive position of Armenia and its attempts to evade the terms of the 10 November 2020 statement were analyzed.

**Keywords:** military-political processes, South Caucasus, demarcation and delimitation of borders, Patriotic War, soft threat, traditional threats

*Məqalə redaksiyaya daxil olmuşdur: 16.01.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 25.01.2023*
*Çapa qəbul edilmişdir: 02.02.2023*

HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE
№4/2022, səh. 68-73
*HƏRBİ TƏBABƏT* *MILITARY MEDICINE*

UOT 616.2

# YARALANMALAR ZAMANI BAŞ VERƏN PNEVMONİYALARA MÜASİR YANAŞMA

**t.ü.f.d. Rəna Şirvanova,**
**tibb xidməti polkovnik-leytenantı Vəli Qazıyev,**
**tibb xidməti mayoru Bəxtiyar Əliyev**
*Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi*
E-mail: veli.qaziyev@yandex.ru

***Xülasə.*** Müasir müharibələrdə tətbiq edilən hərbi silahlar yaralılarda kombinəolunmuş travmatik patologiyaların yaranmasına səbəb olur. II Qarabağ müharibəsi zamanı da, əsas etibarilə, snayper və minaatanlardan geniş istifadə edilməsi yaralılar arasında kontuziya, travmatik amputasiya və müxtəlif dərəcəli visseral patologiyaların yaranmasına gətirib çıxarmışdır. Mərkəzi Klinik Hospitalda apardığımız müşahidələr zamanı müəyyən edilmişdir ki, yaralılarda ağciyər zədələnmələrinə, əsasən posttravmatik pnevmoniyalara daha çox rast gəlinir. Travma fonunda intoksikasiya əlamətlərinin daha kəskin şəkildə təzahürü xəstəliyin klinikasının polimorfizminə və əsas simptomların arxa plana keçməsinə səbəb olur ki, bu da diaqnostikada özünəməxsus çətinliklər yaradır. Posttravmatik pnevmoniyaların xarakterik xüsusiyyətlərindən biri də onların digər ağciyər patologiyaları (döş qəfəsi karkasının travmaları nəticəsində ağciyər toxumasının zədələnməsi, atelektatik dəyişikliklər, hemopnevmotoraks və s.) ilə müşayiət olunmasıdır ki, bu da xəstəliyin daha uzunmüddətli gedişatına, müxtəlif dərəcəli ağırlaşmaların yaranmasına səbəb olur. Dünyada terrorizmin, regional və lokal hərbi konfliktlərin, müharibələrin çoxalması, gələcəkdə də yeni müharibələrin başvermə ehtimalları, yaralanmalar zamanı visseral patologiyaların diaqnostika və müalicə prinsiplərinin təkmilləşdirilməsinin vacibliyi hərbi terapiyanın qarşısına yeni məqsəd və tapşırıqlar qoyur.

**Açar sözlər:** müharibə, travma, yaralı, pnevmoniya

## Giriş

Müasir travmatizm ölüm faizinə görə ürək-damar və xərçəng xəstəlikləri ilə ilk üç pillədədir. Son illərdə regional və lokal hərbi konfliktlərin, müharibələrin coğrafiyasının böyüməsi travmatik yaralanma hallarının sürətlə artmasına, bu isə öz növbəsində, hərbi təbabətin – yaralanmalar zamanı inkişaf edən müxtəlif cərrahi və terapevtik profilli patologiyaların müayinə və müalicə prinsiplərinin daha da təkmilləşməsinə səbəb olur. Hərbi təbabətin vacib tapşırıqlarından biri müharibə və sülh dövrlərində Silahlı Qüvvələrin şəxsi heyətinə yaralanmaların erkən anlarından etibarən terapevtik yardımın müasir prinsiplər əsasında göstərilməsini təmin etməkdir. Yaralılarda travma nəticəsində inkişaf edən daxili orqan patologiyaları hələ II Dünya müharibəsi illərində (1941 – 1945) ətraflı araşdırılmışdır [1]. Odlu silah yaralanmaları zamanı ümumi dəyişikliklərlə (şok, kollaps, sepsis və s.) yanaşı, müxtəlif dərəcəli orqan zədələnmələri baş verir [1; 2; 3; 4]. Son illərdə baş verən lokal, regional hərbi konfliktlər keçən əsrin müharibələrindən müasir silahların tətbiqi ilə fərqlənir. Və bu silahların təsiri nəticəsində yaranan travmaların strukturunun da dəyişilməsi müəyyən edilməkdədir [5; 6; 7]. Belə ki, II Dünya müharibəsində güllə yaralanmaları üstünlük təşkil edirdisə, hazırkı dövrdə baş verən lokal, regional müharibələrdə daha çox minaatanlardan, snayperlərdən istifadə olunması baş, boyun və onurğa travmalarının üstünlük təşkil etməsinə səbəb olmuşdur. İkinci yeri ətrafların yaralanmaları, üçüncü yeri isə torako-abdominal travmalar tutur. Güllə yaralanmalarına az rast gəlinməsinin daha bir səbəbi II Dünya müharibəsindən fərqli olaraq bugünkü döyüşçülərin gülləkeçirməz geyimlərlə təmin edilmələridir. Müasir yaralanmaların daha bir xarakterik xüsusiyyəti müştərək və kombinasiyaolunmuş travmalara daha çox rast gəlinməsidir.

Aparılan müşahidələr nəticəsində müəyyən edilmişdir ki, travma ilə patogenetik əlaqəsi olan daxili orqan xəstəlikləri arasında rastgəlmə tezliyinə görə ağciyər patologiyaları birinci yeri tutur. Hələ Rusiya

– Türkiyə müharibəsi illərində odlu silah yaralanmaları nəticəsində yaranan ağciyər patologiyaları arasında ikincili pnevmoniyalara daha çox rast gəlinirdi [1; 6]. Posttravmatik pnevmoniyalar, adətən, travmanın 1 – 15-ci sutkalarında inkişaf edir. Pnevmoniyaların inkişafı yüngül yaralanmalar zamanı təsadüfi hadisə, ağır yaralanmalarda isə bir qanunauyğunluq hesab edilir. Yaralanmaların lokalizasiyası ilə pnevmoniyaların inkişafı arasında sıx əlaqənin olması müəyyən edilmişdir. II Dünya müharibəsi illərində qarın nahiyəsindən güllə yarası alan döyüşçülər arasında ikincili pnevmoniyalar 35,6% təşkil edərək rastgəlmə tezliyinə görə birinci yeri tuturdusa, Əfqanıstan, Çeçenistan müharibələrində torakal travma mənşəli pnevmoniyalar daha çox müşahidə edilmişdir.

**Müharibə dövründə baş verən yaralanmalar zamanı baş verən pnevmoniyalara diferensiasiya.**

Pnevmoniyalı yaralılarda əsas kliniki əlamətlər olan döş qəfəsində ağrı, qızdırma, təngnəfəslik və taxikardiya müşahidə edilir. Bu əlamətlər travmanın tipindən, lokalizasiyasından, orqanizmin reaktivliyindən, qanitirmənin miqdarından asılı olaraq müxtəlif dərəcədə təzahür edir. Həmçinin travmaların lokalizasiyası və pnevmoniyaların inkişafetmə müddəti arasında da sıx əlaqə mövcuddur. Belə ki, yaralanmanın ilk 10 sutkasında erkən, sonrakı müddətdə gecikmiş pnevmoniyalar inkişaf edir [5; 7; 8]. Kəllə yaralanmaları zamanı inkişaf edən pnevmoniyalar erkən fəsadlara aid edilir, patogenezində neyrohumoral mexanizm durur. Adətən, ikitərəfli, xırdaocaqlı olur. Pnevmoniyaya xas əlamətlər zəif şəkildə özünü büruzə verir. Yara yerində ağrılar yarandığına görə xəstələr öskürəyi boğmağa çalışırlar. Kəllə yaralanmaları zamanı inkişaf edən pnevmoniyaların proqnozu xoşxassəli olub, adətən, sağalma ilə nəticələnir. Üz-çənə yaralanmalarında travmanın 5 – 7-ci sutkalarında pnevmoniyalar inkişaf edir. Bu pnevmoniyalar iriocaqlı və birləşməyə meyilli olub daha qabarıq simptomokompleksə təzahür edir. Xəstəlik kəskin və yüksək intoksikasiya fonunda inkişaf edir. Xəstəliyin yaranmasında aspirasiya mexanizmi əsas yeri tutur. Belə ki, bronx mənfəzinin dağılmış toxuma, qan və seliklə tutulması tənəffüsün, ağciyərlərdə mikrosirkulyasiyanın pozulmasına gətirib çıxarır. Travmanın erkən mərhələlərində inkişaf edən pnevmoniyalara torakal yaralanmalarda da rast gəlinir və inkişafının ilk 10 günündə bu pnevmoniyaların yaranmasında neyrohumoral tənzimləyici mexanizmlərin pozulması əsas yer tutur. Döş qəfəsi yaralanmaları zamanı inkişaf edən pnevmoniyalar çox zaman digər ağciyər patologiyaları (ağciyər əzilməsi, döş qəfəsi sümüklərinin sınıqları, hemopnevmotoraks, hemoplevrit və s.) ilə müşayiət olunduğu üçün xəstəliyə xas kliniki əlamətlər arxa planda durur. Bu da diaqnozun qoyulmasını çətinləşdirir. Digər pnevmoniyalarda olduğu kimi, torakal travmalar zamanı inkişaf edən pnevmoniyaların da diaqnostikasında rentgenoloji müayinə əsas yer tutur. Xəstəliyin proqnozu yaranın ağırlıq dərəcəsindən və xarakterindən asılı olur.

Yaralanmalar zamanı baş verən qanitirmə, hipoksiya, burun-udlağın, bronxların selik-irin-qanla tutulması nəticəsində xarici tənəffüs funksiyasının pozulması restriktiv dəyişikliklərə səbəb olur. Nəticədə tənəffüs hərəkətlərinin sayı artır, dəqiqəlik tənəffüs həcmi və ağciyərlərin həyat tutumu azalır ki, bu da pnevmoniyaların inkişafına təkan verir.

Yaralılarda pnevmoniyaların inkişaf etməsinə infeksiya faktoru – yara sahəsinin irinləməsi, orqanizmin rezistentliyinin zəifləməsi, o cümlədən döyüş şəraitinin xüsusiyyətləri (yuxusuzluq, stress və s.) də mühüm təsir göstərir. Qeyd edilən faktorlar ətrafların yaralanması zamanı inkişaf edən pnevmoniyaların patogenetik əsası hesab edilir.

Travmanın təsiri nəticəsində orqanizmin neyrohumoral tənzimi pozulur və nəticədə daxili orqanlarda struktur dəyişikliklər inkişaf edir. Klinik-morfoloji xüsusiyyətlərinə görə yaralılarda ocaqlı pnevmoniyalar üstünlük təşkil edir.

Müharibə dövründə baş verən yaralanmalar zamanı inkişaf edən pnevmoniyaların vaxtında müəyyən edilməsinin özünəməxsus çətinlikləri mövcuddur. Döyüş bölgəsində yaralı və xəstələrin müayinəsi, müasir laborator-instrumental, xüsusilə də mikrobioloji diaqnostikası mümkün olmur. Travma fonunda intoksikasiya əlamətlərinin daha kəskin şəkildə təzahürü xəstəliyin klinikasının polimorfizminə səbəb olur. Qarışıq travmalar, psixoloji status, orqanizmin adaptasiya xüsusiyyətləri, yanaşı patologiyalar və s. kimi amillər pnevmoniyaların kliniki gedişatı xüsusiyyətlərini dəyişdirir. Bundan əlavə, müasir dövrün hərbi konfliktləri zamanı mürəkkəb kombinasiyalı travmalar

qanitirmələrin daha çox olmasına səbəb olur. Qanitirmə zamanı hemodinamik tənzimlənmə proseslərinin aktivləşməsi və mərkəzləşməsi daxili orqanlarda işemiyaya, bu isə öz növbəsində posttravmatik visseral patologiyaların ağırlaşmasına gətirib çıxarır. Qanitirmələrin dərəcəsi ilə pnevmoniyaların inkişafı arasında sıx əlaqə olduğu da müəyyən edilmişdir.

**Müharibə dövründə müəyyən pnevmoniyaların klinik mənzərəsinin xüsusiyyətləri aşağıdakılardır:**

a) Krupoz pnevmoniya. Xəstəlik kəskin başlayır. Qabarıq kliniki əlamətlər – güclü titrətmə, yüksək temperatur (qızdırma), kəskin ağrılar, "paslı" və qatı bəlğəm ifrazı ilə xarakterizə olunur. Rentgenoqramda payın homogen infiltrativ kölgəliyi, plevral reaksiya əlamətləri qeyd olunur. Qanın ümumi analizində şiddətli leykositoz, 15%-ə qədər çubuqnüvəli neytrofilyoz, EÇS-in kəskin sürətlənməsi müəyyən edilir [9].

b) Ocaqlı pnevmoniya. Kəskin respirator infeksiyalar fonunda tədricən başlayır. Bəlğəm selikli-irinlidir. Fizikal əlamətlər həmişə kəskin ifadə edilmir. Rentgenoqramda seqment daxilində homogen infiltrativ kölgəlik qeyd olunur. Qanın ümumi analizində mülayim neytrofilyoz, EÇS-in bir qədər sürətlənməsi aşkar edilir.

c) Atipik pnevmoniya. Bu növ pnevmoniya yüksək hərarət (qızdırma) və tez-tez quru öskürəklə kəskin başlayır. Aşkar fizikal əlamətlər həmişə qeyd edilmir. Rentgenoqramda ocaqlı və ya ocaqlı-birləşmiş infiltrativ kölgəliklər qeyd olunur. Qanın ümumi analizində normositoz, tez-tez limfopeniya, EÇS-in sürətlənməsi qeyd olunur.

ç) Stafilokok pnevmoniyası. Kəskin respirator infeksiyalar fonunda tədricən başlayır. Bəlğəm irinli olur. Fizikal əlamətlər həmişə qabarıq ifadə olunur. Rentgenoqramda qeyri-homogen infiltrativ kölgəliklər qeyd olunur, çoxsaylı xırdaölçülü abseslər ola bilər. Qanın ümumi analizində neytrofil leykositoz, EÇS-in kəskin artması qeyd olunur.

Krupoz pnevmoniyalar əsasən ağır gedişli və tez-tez infeksion-toksik şok və kəskin tənəffüs çatışmazlığı ilə ağırlaşan olur. Bunun səbəbi patoloji prosesin bütün payı əhatə etməsi və plevranın bu prosesə cəlb olunmasıdır. Stafilokok pnevmoniyasında isə absesləşməyə meyillilik var ki, bu da sonradan pulmonear fibrozun inkişafına səbəb ola bilər. Qışda kəskin pnevmoniyalara təxminən 65%, yayda isə 35% hallarda rast gəlinir.

**Birincili travmatik pnevmoniya** (pulmonit) döş qəfəsinin nüfuz edən yaralanmaları zamanı ağciyərin zədələnməsi ilə baş verir. Bu vəziyyətdə iltihab prosesi yara kanalının ətrafında inkişaf edir. Pnevmoniya tez-tez döş qəfəsinin zədələnmiş tərəfində, 14 – 15% hallarda isə əks tərəfdə (simpatik pnevmoniya) inkişaf edir. Simpatik pnevmoniya zədələnməmiş ağciyərdə sağlam şəraitdə yaranan neyroreflektor pozğunluqlara əsaslanır. Morfologiyasına görə, əsasən kiçikocaqlı olur; iltihab sahələri paravertebral sahədə yerləşir. Simpatik pnevmoniya döş qəfəsi zədələndikdə baş verir və intakt ağciyərdə inkişaf edir. Bu formanın təcrid edilməsi əsasən şərtidir, çünki yaranın hər hansı bir lokalizasiyasında baş verə bilən ikincili pnevmoniyalardan birinin patogenez sxeminə uyğun olaraq inkişaf edir [10].

**İkincili pnevmoniyaların** aşağıdakı növlərinə rast gəlinir:

a) *Aspirasion pnevmoniya* xaricdən tənəffüs yollarına daxil olan (adətən, stafilokok aureus) və ya bronxopulmonar sistemdə olan infeksiyanın bronxlar vasitəsilə yayılması nəticəsində inkişaf edir. İkinci halda tənəffüs yollarında yerləşən şərti patogen mikrofloranın aktivləşməsi nəzərdə tutulur. Belə pnevmoniya zədələnmənin 3 – 4-cü günündə kəskin şəkildə baş verir və olduqca şiddətli şəkildə davam edir: hərarət 40°C-ə qədər yüksəlir, döş qəfəsində ağrı, tez-tez selikli-irinli bəlğəmlə öskürək, təngnəfəslik, taxikardiya müşahidə olunur. Bu zaman aydın fiziki dəyişikliklər aşkar edilir: perkutor səsin qısalması, xırda və orta qabarcıqlı yaş xırıltıların eşidilməsi, səs titrəməsinin və pnevmonik ocaq üzərində bronxofoniyanın artması. Qanda eozinofillərin sayının azalması və EÇS-nin artması ilə birlikdə neytrofil leykositoz (15-20×$10^9$/l-ə qədər) müəyyən edilir. Proses, adətən, böyükocaqlı və absesləşməyə meyilli olur.

b) *Hipostatik pnevmoniya* ağciyərlərdə mikrosirkulyasiyanın pozulması nəticəsində yerli immun çatışmazlığı fonunda baş verir. Adətən, tənəffüs yollarının autoflorasının bronxogen şəkildə yayılması

səbəbindən yaranır. Yaralıların uzun müddət hərəkətsizliyi zamanı ağciyərlərin arxa-aşağı hissələrinin qeyri-kafi ventilyasiyası xəstəliyin inkişafını asanlaşdırır. Çox vaxt bu pnevmoniya qarın boşluğu, kəllə, onurğa, bud nahiyəsi yaralanmaları zamanı inkişaf edir. Proses, adətən, kiçikocaqlı, ikitərəfli olur və bir qayda olaraq, arxa-aşağı seqmentlərdə yerləşir. Belə pnevmoniyalar, adətən, tədricən başlayır, hərarətin bir qədər yuxarı olması və az miqdarda selikli bəlğəm və davamlı öskürək ilə xarakterizə olunur. Bu vəziyyətdə fiziki təzahürlər nadir və davamlı olmayan kiçikqabarcıqlı yaş xırıltıların olması ilə məhdudlaşır.

c) *Atelektatik pnevmoniya* patogenez baxımından aspirasion pnevmoniyaya bənzəyir, lakin atelektazın formalaşması ilə fərqlənir. Bronxial obstruksiya ilə böyük atelektazlar yaranarsa, böyükocaqlı pnevmoniyaların inkişafı nəticəsində kəskin tənəffüs çatışmazlığı (sianoz, təngnəfəslik) inkişaf edə bilər. Kiçik atelektazlar fizikal olaraq təyin olunmur.

ç) *Toksik-septik pnevmoniya* yara sepsisinin orqan təzahürlərindən biri kimi inkişaf edir və ağciyərlərdə infeksiyanın hematogen yolla yayılması nəticəsində yaranır. Bu pnevmoniyalar üçün ağciyərlərdə bir-biri ilə birləşməyə və tez-tez abscesləşməyə meyilli çoxsaylı kiçik ocaqların əmələ gəlməsi xarakterikdir. Bu pnevmoniyaların klinik mənzərəsi əsasən simptomsuz olur və yaralıların ümumi ağır vəziyyəti çox vaxt belə pnevmoniyaların inkişafını maskalayır.

Pnevmoniyanın ikincili abscesləşməsi pnevmoniya fonunda irinləmənin tədricən inkişafı, orta dərəcədə intoksikasiya, abses boşluğunun qeyri-müəyyən uzun müddət boşalması, irinli-destruktiv proseslərin torpid gedişi ilə xarakterizə olunur. Sürəkli gedişli sorulmayan pnevmoniyanın fonunda intoksikasiyanın tədricən artması ikincili absesin əmələ gəlməsinə şərait yarada bilər. Ağciyər absesinin əmələ gəlməsi yaralılarda ağciyərlərin irinli ağırlaşmalarından biridir. Kəskin ağciyər absesinin klinik mənzərəsi şiddətli başlanğıcla xarakterizə olunur. Şiddətli gediş, zəif auskultativ məlumatlar qeyd olunur. 3 – 14-cü günlərdə bol irin ifrazı ilə xarakterizə olunan irinli boşluq əmələ gəlir. İrinin boşalması ilə xəstənin halı yaxşılaşmağa başlayır, infiltratın rezorbsiyası və intoksikasiyanın azalması qeyd olunur. Prosesin ümumi müddəti 60 günə qədərdir [10, 11].

## Müzakirə

Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, II Dünya müharibəsi illərində yaralılarda pnevmokok pnevmoniyaları, müasir lokal hərbi konfliktlər zamanı isə göy irin çöplərinin törətdiyi pnevmoniyalar üstünlük təşkil edir.

Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda gedən döyüşlər zamanı əsas etibarilə snayper və minaatanlardan istifadə edilmişdir ki, bu da yaralılar arasında kontuziyaların, travmatik amputasiyaların, müxtəlif dərəcəli visseral patologiyaların yaranmasına səbəb olmuşdur. Mərkəzi Klinik Hospitalda müalicədə olan yaralılar arasında apardığımız müşahidələr zamanı daxili orqan patologiyaları arasında ağciyər zədələnmələrinin üstünlük təşkil etməsi müəyyən edilmişdir ki, bu da müasir ədəbiyyat göstəriciləri ilə uzlaşır. Bugünkü müharibələr üçün xarakterik olan müştərək, kombinəolunmuş travmalar ordumuzun yaralı döyüşçüləri arasında da qeyd edilmişdir [12]. Döş qəfəsinin karkasının travmaları ağciyər toxumasının zədələnməsinə, atelektatik dəyişikliklərə, hemopnevmotoraksa və s. səbəb olmuşdur [13]. Buna görə də müxtəlif ağırlıqda postravmatik pnevmoniyalar daha çox müşahidə edilmişdir. Apardığımız müşahidələr zamanı yaralanan hərbçilərimiz arasında da ağciyər patologiyalarının daha çox rast gəlinməsinin müəyyənləşdirilməsi travmaların visseral aspektlərinin aktuallığından xəbər verir.

## Nəticə

Müasir regional və lokal müharibələrdə tətbiq edilən silahların təsiri nəticəsində baş verən yaralanmalarda orqanizmə bir neçə zədələyici faktor (termiki, kimyəvi, mexaniki, radiasion və s.) birgə təsir göstərdiyi üçün yaralılarda travma ilə yanaşı, daxili orqanlarda silkələnmə, dağılma, əzilmə və digər patoloji proseslərə eyni vaxtda rast gəlinir. Nəticədə posttravmatik pnevmoniyaların klinik təzahürləri arxa plana keçir ki, bu da diaqnostikada özünəməxsus çətinliklər yaradır. Yanaşı patologiyaların inkişafı

ikincili pnevmoniyaların klinikasını ağırlaşdıraraq tənəffüs çatışmazlığının və ağrı sindromunun daha uzun müddət qalmasına səbəb olur.

Dünyada terrorizmin, regional və lokal hərbi konfliktlərin, müharibələrin çoxalması gələcəkdə də yeni silahlı qarşıdurmaların başvermə ehtimalları yaralanmalar zamanı visseral patologiyaların diaqnostika və müalicə prinsiplərinin təkmilləşdirilməsinin vacibliyini ön plana çəkir ki, bu da terapevtlərin qarşısında yeni məqsəd və tapşırıqlar qoyur.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Кириллов М.М. Учение о патологии внутренних органов при травме: история и современность / Актовая речь на торжественном заседании, посвященном 25-летию ВмедФ при СМИ. / М.М. Кириллов – Саратов, – 1990, – 16 с.

2. Басалкевич, Г.Ч. Висцеральные осложнения у раненых / Г.Ч. Басалкевич, А.В. Чернышов, В.Е. Тарасов [и др.] // Воен-мед. журнал, – 1998. №5, – с. 39-42.

3. Гембицкий, Е.В. Классификация изменений внутренних органов при травме и роль терапевта в их распознавании и лечении: методические рекомендации / Е.В. Гембицкий, Л.М. Клячкин, М.М. Кириллов – Москва: – 1989. – с. 22.

4. Гембицкий, Е.В. Патология внутренних органов при травме. Руководства для врачей. / Е.В. Гембицкий, Л.М. Клячкин, М.М. Кириллов – Москва: Медицина, – 1994. –255 с.

5. Вязицкий, П.О. Механизмы развития и клинические предвестники вторичных пневмоний при минно-взрывной травме / П.О. Вязицкий, В.И. Комаров, В. Хабиби, И.П. Минуллин [и др.] // Воен-мед. Журнал, – 1988. №11, – с. 25-28.

6. Гайдук, С.В. Кардио-респираторная патология у раненых в контртеррористической операции в Чеченской Республики / С.В. Гайдук, Ю.В. Овчинников, Ю.Ш. Халимов, В.А. Гайдук [и др.] // Вестник Российской Военно – Медицинской Академии, – 2016. №1 (53), – с. 22-28.

7. Allen G.S., Cox C.S. Pulmanary contusion: diaqnosis and management // South Med. J., – – 1998. vol. 91, №. 12., p. 1099-1106.

8. Morris MJ, Dodson DW, Lucero PF, Haislip GD, Gallup RA, Nicholson KL, Zacher LL. Am Study of active duty military for pulmonary disease related to environmental deployment exposures (STAMPEDE).J Respir Crit Care Med. 2014 Jul 1;190(1):77-84. doi: 10.1164/rccm.201402-0372OC.PMID: 24922562

9. Anthony M Szema 1, Richard J Reeder, Andrea D Harrington, Millicent Schmidt, Jingxuan Liu, Marc Golightly, Todd Rueb, Sayyed A Hamidi // Iraq dust is respirable, sharp, and metal-laden and induces lung inflammation with fibrosis in mice via IL-2 upregulation and depletion of regulatory T cells // J,Occup Environ Med. 2014 Mar;56(3):243-51. doi: 10.1097/JOM.0000000000000119.

10. Nikhil A Huprikar, Steven D Deas, Andrew J Skabelund // Non-traumatic Pulmonary Emergencies in the Deployed Setting // Curr Pulmonol Rep. 2017; 6(2):138-145. doi: 10.1007/s13665-017-0180-1. Epub 2017 May 27.

11. Eric Garshick, Joseph H Abraham, Coleen P Baird, Paul Ciminera, Gregory P Downey, Michael J Falvo, Jaime E Hart, David A Jackson, Michael Jerrett, Ware Kuschner, Drew A Helmer, Kirk D Jones, Silpa D Krefft, Timothy Mallon, Robert F Miller, Michael J Morris, Susan P Proctor, Carrie A Redlich, Cecile S Rose, Rudolph P Rull, Johannes Saers, Aaron I Schneiderman, Nicholas L Smith, Panayiotis Yiallouros, Paul D Blanc // Respiratory Health after Military Service in Southwest Asia and Afghanistan. // An Official American Thoracic Society Workshop Report.Ann Am Thorac Soc/. 2019 Aug;16(8): e1-e16. doi: 10.1513/AnnalsATS.201904-344WS.

12. Abraham JH, Eick-Cost A, Clark LL, Hu Z, Baird CP, DeFraites R, Tobler SK, Richards EE, Sharkey JM, Lipnick RJ, Ludwig SL.A retrospective cohort study of military deployment and postdeployment medical encounters for respiratory conditions.Mil Med. 2014 May;179(5):540-6. doi: 10.7205/MILMED-D-13-00443.PMID: 24806499

13. Falvo MJ, Osinubi OY, Sotolongo AM, Helmer DA.Airborne hazards exposure and respiratory health of Iraq and Afghanistan veterans. Epidemiol Rev. 2015;37:116-30. doi: 10.1093/epirev/mxu009. Epub 2015 Jan 14.

**Аннотация**
**Современный подход к пневмонии, возникающей при травмах**
**Рена Ширванова, Вели Газиев, Бахтияр Алиев**

Боевое оружие, применяемое в современных войнах, вызывает у раненых сочетанные травматические патологии. В ходе боев за освобождение азербайджанских земель от оккупации применение снайперов и минометов приводило к контузиям, травматическим ампутациям, висцеральным патологиям различной степени у раненых. В ходе наших наблюдений среди раненых в ЦКБ было установлено, что у раненых чаще встречаются поражения легких, преимущественно посттравматическая пневмония. Более резкое проявление симптомов интоксикации на фоне травмы приводит к полиморфизму клиники заболевания и фона основных симптомов, что создает своеобразные трудности в диагностике. Одной из характерных особенностей посттравматических пневмоний является то, что они сопровождаются другими патологиями легких (повреждение легочной ткани в результате травмы грудной клетки, ателектатические изменения, гемопневмоторакс и др.), что приводит к более длительному течения болезни и различных осложнений. Рост терроризма, региональных и локальных военных конфликтов, и войн в мире, вероятность новых войн в будущем свидетельствуют о важности совершенствования принципов диагностики и лечения висцеральной патологии при травмах, что ставит перед военной терапией новые цели и задачи.
**Ключевые слова:** война, травма, раненые, пневмония

**Abstract**
**Modern approach to pneumonia occurring during injuries**
**Rana Shirvanova, Veli Gaziyev, Bakhtiyar Aliyev**

Military weapons used in modern wars cause combined traumatic pathologies in the wounded. During the battles for the liberation of Azerbaijani lands from occupation, the use of snipers and mortars led to contusions, traumatic amputations, and visceral pathologies of various degrees among the wounded. During our observations among the wounded in the Central Clinical Hospital, it was determined that lung injuries, mainly post-traumatic pneumonia, are more common in the wounded. A sharper manifestation of intoxication symptoms against the background of trauma leads to the polymorphism of the disease clinic and the background of the main symptoms, which creates unique difficulties in diagnosis. One of the characteristic features of post-traumatic pneumonias is that they are accompanied by other lung pathologies (damage of lung tissue as a result of trauma to the chest frame, atelectatic changes, hemo-pneumothorax, etc.), which leads to a longer course of the disease and various complications. The increase of terrorism, regional and local military conflicts and wars in the world, the likelihood of new wars in the future, indicate the importance of improving the diagnosis and treatment principles of visceral pathologies during injuries, which sets new goals and tasks for military therapy.
**Keywords:** war, trauma, wounded, pneumonia

*Məqalə redaksiyaya daxil olmuşdur: 26.12.22*
*Təkrar işlənməyə göndərilmişdir: 19.01.2023*
*Çapa qəbul edilmişdir: 09.02.2023*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№4/2022, səh. 74-78**
***HƏRBİ TƏBABƏT*** ***MILITARY MEDICINE***

UOT 616.5

# DƏRİ ÖRTÜKLƏRİNİN MÜXTƏLİF GÖBƏLƏK İNFEKSİYALARI VƏ ONLARIN HƏRBİ QULLUQÇULAR ARASINDA YAYILMA XÜSUSİYYƏTLƏRİ

**Ruqiyyə Güliyeva**
*Respublika Klinik Xəstəxanası*
E-mail: nshixali@mail.ru

***Xülasə.*** Hərbi qulluqçular arasında ayaqda göbələk (funqal) infeksiyası ilə bağlı bir neçə tədqiqat aparılmışdır. Bununla yanaşı, müxtəlif regionlarda epidemioloji məlumatların olmaması səbəbindən göbələk infeksiyasının yayılma dərəcəsi bir çox hallarda aşağı səviyyədə qiymətləndirilir. Məqalənin yazılmasının məqsədi hansı coğrafi qurşaqda yerləşməsindən və inkişaf dərəcəsindən asılı olmayaraq, bütün kateqoriyalardan olan ölkələrin ordusunda göbələk infeksiyasının yayılma səviyyəsini müqayisəli formada qiymətləndirmək, habelə problemi milli və beynəlxalq səviyyədə işıqlandırmaqdır.

**Açar sözlər**: hərbi qulluqçu, dəri xəstəlikləri, göbələk, rastgəlmə, profilaktika

Onixomikoz dırnaqların göbələk mənşəli infeksiyası olub, dırnaqların rənginin dəyişməsi, qalınlaşması və öz yatağından aralanması ilə müşayiət edilir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, onixomikozun ümumi əhali arasında rast gəlinməsi 10%, yaşı 60-dan yuxarı olan əhali qrupunda 20% və 70-dən yuxarı yaşlılar arasında isə 50% təşkil edir. Onixomikoza bir sıra göbələk cinsləri və növləri səbəb ola bilər ki, bunlara misal kimi dermatofitləri və Fuzariumları aid etmək olar. Xəstəlik üçün risk amillərinə xəstə olan digər şəxslərdən yoluxma, periferik damar xəstəliyi və immun sisteminin bu və ya digər səbəblərdən zəifləməsi aid edilə bilər. Diaqnoz laborator üsulların yardımı ilə dəqiqləşdirilir. Xəstəliyin əlamətləri ilk dəfə 1853-cü ildə Corc Meysner tərəfindən təsvir edilmişdir [1; 2].

Tinea pedis, yaxud ayaqların göbələk mənşəli infeksion xəstəliyi bir zamanlar idmançılarda daha çox rast gəlindiyi üçün bəzi ədəbiyyatda "atlet ayağı" kimi də təsvir edilmişdir. Onun törədiciləri üçün nəm mühit olduqca münbit şərait yaratdığından burada ortaq istifadə edilən duş kabinələri, dəsmallar və s. kimi şərait və əşyalar yoluxma üçün münbit mühit yaradır. İnfeksiyanın səbəbi *Trichophyton rubrum, T.mentagrophytes* və *Epidermophyton floccosum* kimi dermatofit nümayəndələridir [1]. Normal şəraitlərdə dəri örtüklərində bakteriya və mikrogöbələklər xəstəlik törətmədən yaşaya bilir. Ancaq müəyyən şərtlər daxilində onlar artıb çoxalaraq infeksion proses törədə bilir. Dəridə baş verən göbələk infeksiyalarının bir çoxu məhz normal dəri mikroflorasında adi halda olan növlər tərəfindən törədilir. Bu göbələk növlərindən bəziləri dəridə kiçik yaralardan daxil olduqda, bəziləri isə orqanizmin immun sistemi zəiflədikdə infeksiyanın başlamasına səbəb olur [2]. Bəzi patogen göbələklər, onların inkişafı üçün əlverişli hesab edilən ayağı tərlədən ayaqqabılar, nəm duş kabinələri, geyinib-soyunma otaqları və s. kimi ləvazimat və yerlər infeksion prosesə səbəb ola bilir [1; 2]. Həmçinin mikozlar da adlandırılan göbələk infeksiyaları invazivliyə görə təsnif edilir. Epidermik, saç və dırnaqlarda göbələk mənşəli səthi infeksion proseslərə dəri mikozları (kutaneus), epidermisi keçən və dermaya daxil olmaqla dərinə nüfuz edən göbələk infeksiyaları subkutaneus mikozlar adlanır. Bütün bədənə yayılmış göbələk infeksiyasına isə sistem mikozlar deyilir [2].

"Tinea"-lar dəri, saç və dırnaqlarda rast gəlinən, protein olan keratini tələb edən göbələklər hesab edilən, dermatofitlər tərəfindən törədilən kutanal (dəri) mikozlardır. Dermatofitlərin 3 cinsi vardır ki, onların hər üçünün nümayəndələri dəri mikozlarına səbəb ola bilir. Bunlara *Trichophyton, Epidermophyton* və *Microsporum* cinsləri aiddir [2].

Tədqiq olunan mövzuda bir sıra elmi işləri aparılmışdır. Belə tədqiqatlara bir neçə misal göstərmək olar. Bu baxımdan Əlcəzairdə Mərkəzi Hərbi Hospitalın dermatologiya şöbəsində müalicəyə göndərilən 650 nəfər hərbi qulluqçu üzərində aparılmış dermatoloji müayinələr zamanı ayaqdan dəri və dırnaq

nümunələri götürülərək biohistokimyəvi və morfoloji müayinə edilmişdir. Bu zaman onlardan 147 nəfərində kliniki olaraq ayaqlarda göbələk xəstəliyi (Tinea pedis və Candida interdigitales) əlamətləri qeydə alınsa da, 119 nəfərdən götürülmüş nümunələrdə göbələk törədiciləri mikrobioloji olaraq müşahidə edilməklə öz təsdiqini tapmışdır və bunlar ümumi tədqiqat obyektlərinin 18,3%-ni təşkil edir. Tədqiqat obyektləri hərbi rütbə və xidmət illərinə görə qruplaşdırılmışdır. Hərbi rütbəyə görə qruplaşdırılma zamanı əsgərlər arasında, xidmət illəri üzrə qruplaşdırılma zamanı isə yeni xidmətə cəlb edilənlər arasında müvafiq infeksiyaların rast gəlinməsi daha yüksək olmuşdur. Götürülmüş nümunələrdə ən çox rast gəlinən törədicilər dermatofitlərdən *Trichophyton rubrum* və mikrogöbələklərdən isə *Candida parapsilosis* olmuşdur ki, bunlar da ümumi halların müvafiq olaraq 20,9% və 18,7%-ni təşkil etmişdir. Ümumilikdə, müvafiq tədqiqat zamanı Əlcəzair ordusunda ən çox rast gəlinən göbələk mənşəli dəri infeksiyaları arasında *Tinea pedis* və *Candida interdigitales* infeksiyaları ümumi halların 68%-ni əhatə etməklə üstünlük təşkil etmişdir [3].

İtaliyada aparılmış tədqiqat zamanı hərbi tədris ocaqlarında təlim-təhsil alan dəniz qüvvələrinin kursantları arasında ölkənin digər hərbi birləşmələrində xidmət edən hərbçilərlə müqayisədə daha az dəri göbələyi infeksiyalarına rast gəlinmişdir. Bunun səbəbinin kursantların həyat tərzi və mühit amillərinin ola biləcəyi düşünülmüşdür. Tədqiqat zamanı ən çox rast gəlinən göbələk "xəstəliyi" *T.interdigitale* tərəfindən törədilən *Tinea pedis* olmuşdur ki, öyrənilən risk amillərinin heç biri ilə həmin xəstəlik arasında assosiasiya nəzərəçarpacaq dərəcədə olmamışdır [4].

Yuxarıda qeyd etdiyimiz kimi ayaqların səthi göbələk mənşəli infeksiyaları hərbi qulluqçuları əhatə edən, ən çox rast gəlinən dermatoloji xəstəlikləri ehtiva edir. Tailandda hərbi qulluqçular arasında 2015-ci ildə aparılmış epidemioloji tədqiqatlar zamanı donanmada xidmət edən gənc yaşlı heyət arasında müvafiq infeksiyalardan əziyyət çəkən kifayət qədər şəxslərin olduğu qeydə alınmışdır. Ortalama yaşı 19 olan 788 nəfər üzərində aparılan həmin tədqiqatlarda donanma heyətində müvafiq infeksion proseslərin yayılması, potensial risk amilləri, patogen amillər və digər kliniki korrelyasiya parametrləri öyrənilmişdir. Nəticədə tədqiqat obyektlərindən 406 nəfərdə, yaxud onların 51,5%-də ilkin sorğu zamanı dərinin göbələk xəstəliklərinin olması haqqında fikir formalaşmışdır. Sorğudan sonrakı kliniki müayinələrə keçdikdə isə 303 nəfərdə, yaxud ümumi tədqiqat obyektlərinin 38,5%-də ayaqda dərinin müxtəlif zədələnmə elementləri qeydə alınmışdır. Tədqiqat nəticəsində 57 nəfərdə mikroskopik üsullarla ayaq dərisində göbələk infeksiyası öz təsdiqini tapmışdır ki, bu da ümumi tədqiqat obyektlərinin 7,2%-i deməkdir. Ayaq dərisində göbələk infeksiyası diaqnozu qoyulmuş 57 nəfər donanma qulluqçusundan 54 nəfərində tinea pedis qeydə alınmışdır ki, bu zaman səbəbkar mikroorqanizm Trichophyton mentagrophytes olmuşdur. Digər 3 nəfərə isə dəri kandidozu diaqnozu qoyulmuşdur [5].

Dəri örtüklərinin göbələk mənşəli infeksion proseslərinin meydana gəlməsində təkcə risk amillərinin deyil, endemik amillərin də rolu var. Məsələn: Lobomikoz Amazon tropik meşələrində və onun yaxınlığında rast gəlinən endemik xarakterli dəri və dərialtı toxumaların infeksion göbələk xəstəliyi olub Lacazia loboi tərəfindən törədilir. Törədici mikrogöbələk dimorf göbələklərə aiddir, ona torpaqda, bitkilərin səthində və suda rast gəlinir. Xəstəlik, adətən, fermer, mədənçi, balıqçı və bu bölgədə yaşayan digər peşə sahibləri arasında daha çox yayılsa da, həmin ərazidə xidmət edən hərbi qulluqçular arasında da aşkar olunmuşdur. Kolumbiyada aparılmış bu tədqiqat zamanı müvafiq göbələk infeksiyası olan pasiyentlərdə üz, boyun, gövdə və budlarda düyünşəkilli və keloidşəkilli (keloid – qabarıq, eybəcər çapıq toxuması) zədələnmə elementlərinin meydana gəldiyi müşahidə edilmişdir. Bir sıra hallarda xəstəlik kliniki əlamətlərinə görə leyşmaniozu xatırlatsa da, biopsiyaların mikrobioloji analizləri nəticəsində lobomikoz diaqnozu qoyulmuşdur [6; 7; 8; 9].

İran İslam Respublikasında da 2005 – 2011-ci illər ərzində aparılmış analoji tədqiqatlar nəticəsində 7 il ərzində hərbi qulluqçular arasında 9707 nəfərdə dəri örtüklərinin bu və ya digər formada göbələk infeksiyasının olduğu qeydə alınmışdır. Müvafiq pasiyentlərin yaz və yay aylarında 60%, Hormüz, Gilan, Semnan və Xorasan olmaqla 4 ərazi vahidində ümumilikdə 58%-i, donanma heyətində isə 48%-i qeydə alınmışdır. İran ordusu birləşmələrində yayılmasına görə tədqiqat zamanı aşkar edilən, dərisində göbələk infeksiyası olan hərbi qulluqçuların 11%-i hərbi hava qüvvələrində, 41%-i quru qoşunlarında

və 48%-i donanmada, hansı fəsildə baş verməsinə görə isə infeksiya qışda 14%, payızda 26%, yayda 28% və yazda 32% qeydə alınmışdır [10; 11].

1994-cü ildə keçmiş Yuqoslaviyada 6 aylıq xidmət üçün göndərilmiş 73 nəfər Danimarka əsgəri üzərində xidmətdən əvvəl və sonra olmaqla tinea pedis və onixomikozun baş verməsi üzrə tədqiqat işi aparılmışdır. Müvafiq tədqiqat obyektlərində xaricdə xidmətdən əvvəl adı çəkilən göbələk infeksiyasının rast gəlinməsi 16,4%, sonra isə 32,3% təşkil etmişdir. Tədqiqatın ilk mərhələsində Trichophyton rubrum və T. Mentagrophytes kimi mikroorqanizmlərin üstünlük təşkil etdiyi qeydə alınmış, onixomikoz və tinea pedis halları müşahidə edilmişdir. Bunun əksinə, tədqiqatın ikinci mərhələsində isə Candida albicans mikrogöbələyi üstünlük təşkil edən patogen olmuşdur. Bu hal törədici-mikoorqanizm tarazlığının dəyişikliyə uğraması, yaxud pozulması ilə izah edilə bilər. Tədqiqat nəticəsində 73 nəfər hərbçidən 12 nəfərində, yaxud onların 16,4%-də onixomikoz, tinea pedis, yaxud hər ikisi birlikdə aşkar edilmişdir. Tədqiqatın ilk mərhələsi zamanı müvafiq dəri göbələyi aşkar edilmiş hərbçilərin 1 nəfərində onixomikoz, 7 nəfərində tinea pedis və 4 nəfərində isə onixomikoz və tinea pedis müştərək şəkildə qeydə alınmışdır ki, bu da ümumi tədqiqata cəlb edilən hərbçilərin müvafiq olaraq 1,4%, 9,6% və 5,5%-ni əhatə edir. Tədqiqatın 2-ci mərhələsi isə 1995-ci ildə hərbçilər Yuqoslaviyada xidmətlərini başa vuran zaman həyata keçirilmiş, tədqiqata cəlb edilmiş 65 nəfər hərbçinin 21 nəfərində ayaq dərisi və dırnaqlarında göbələk infeksiyası aşkar edilmişdir ki, bu da ikinci mərhələyə cəlb edilmişlərin 32,3%-ni əhatə etmişdir. Göbələk infeksiyası aşkar edilmiş pasiyentlərdən (n=21) 5 nəfərində onixomikoz, 14 nəfərində tinea pedis və 2 nəfərində hər iki proses birlikdə qeydə alınmışdır ki, bu da tədqiqat obyektlərinin uyğun olaraq 7,6%, 21,5% və 3,1%-ni təşkil etmişdir [3].

Respublikamızda hərbi qulluqçular arasında müxtəlif profilaktika və müalicə tədbirlərinin optimallaşdırılmasını ehtiva edən elmi tədqiqat işləri aparılsa da, göbələk xəstəliklərinin yayılması, profilaktikası və müalicə tədbirlərinin optimallaşdırılmasına dair elmi işlər nisbətən azlıq təşkil edir. Yuxarıda dünya üzrə bu istiqamətdə elmi ədəbiyyat məlumatlarının təhlili göstərir ki, hansı coğrafi qurşaqda yerləşməsindən və inkişaf dərəcəsindən asılı olmayaraq, bütün kateqoriyalardan olan ölkələrin ordusunda dəri örtüklərinin göbələk infeksiyaları bu və ya digər dərəcədə yayılmışdır və bu istiqamətdə bir sıra epidemioloji, kliniki tədqiqatlar aparılmışdır. Respublikamızda bu istiqamətdə aparılacaq elmi tədqiqat işləri dünya tibb ədəbiyyatındakı müvafiq məlumatlar və mövzunun aktuallıq dərəcəsi ilə səsləşə bilər.

## Nəticə

Nəticə olaraq, demək olar ki, hansı coğrafi qurşaqda yerləşməsindən, irqindən, sosial vəziyyətindən asılı olaraq fərqli kateqoriyalardan olan ölkələrin ordusunda hərbi qulluqçular arasında dəri örtüklərinin göbələk infeksiyaları müxtəlif şəkildə yayılmışdır. Bu xəstəliyin geniş yayılmasının əsas səbəbləri sırasında mövsümi və endemik amillər əsas yer tutur. Belə ki, xəstəliyə yoluxmanın pik həddi bahar, minimal həddi isə qış fəslində qeydə alınmışdır. Göbələk xəstəliklərinin yaranması üçün risk qrupu əsasən yeni xidmətə cəlb edilənlər və donanmada xidmət edən kursantlar olmuşdur. Müqayisəli təhlillər göstərir ki, dəridə ən çox rast gəlinən göbələk xəstəlikləri arasında *Tinea pedis* və *Candida interdigitales* üstünlük təşkil etmişdir.

Beləliklə, göbələk xəstəliklərinin hərbi qulluqçular arasında yayılmasının qarşısının alınması üçün əks epidemik və profilaktik tədbirlərin aparılması məqsədilə yuxarıda sadalanan bütün aspektləri nəzərə almaq zəruridir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Katelyn, U., Sherman, C., Christian, S. The global, regional, and national burden of fungal skin diseases in 195 countries and territories: A cross-sectional analysis from the Global Burden of Disease Study: – 2017. JAAD International 2(4):22-27 p. DOI: 10.1016/j.jdin.2020.10.003.

2. Pfavayi, L.T. The Pathogenesis of Fungal-Related Diseases and Allergies in the African Population / The State of the Evidence and Knowledge Gaps. Int Arch Allergy Immunol. [Electronic resource] / 2020. 181:257–269. URL: https://doi.org/10.1159/000506009

3. Khodadadi, H. Prevalence of superficial-cutaneous fungal infections in Shiraz, Iran: A five-year retrospective study (2015–2019) / H. Khodadadi, K. Zomorodian, H. Nouraei [et al.] // Journal of Clinical Laboratory Analysis. vol. 35, – Issue 7: – 2021. – 229, – p. 35.

4. Huseynov, R.M., Javadov S.S., Osmanov A. The burden of serious fungal infections in Azerbaijan. Therapeutic Advances in Infectious Disease. – 2021, Vol. 8: 1–13 doi: 10.1177/20499361211043969.

5. Mazza, M., Refojo, N., Davel G., Lima, N., Dias, N, Passos da Silva CMF, Canteros CE., Mycology Network of the Province of Buenos Aires (MNPBA). Epidemiology of dermatophytoses in 31 municipalities of the province of Buenos Aires, Argentina: A 6-year study. Rev Iberoam Micol. – 2018 Apr - Jun; 35(2):97-102.

6. Arju, R., Kothadia, J.P., Kaminski, M., Abraham, S., Giashuddin., S. Jorge Lobo's disease: a case of keloidal blastomycosis (lobomycosis) in a nonendemic area. Ther Adv Infect Dis. – 2014; 2:91–6.

7. Pagliari, C., Kanashiro-Galo, L., Silva, A.A., Barboza, T.C., Criado, P.R., Duarte, M.I. [et al.] Plasmacytoid dendritic cells in cutaneous lesions of patients with chromoblastomycosis, lacaziosis, and paracoccidioidomycosis: a comparative analysis. Med Mycol. – 2014; 52:397 – 402.

8. Analysis of microvasculature phenotype and endothelial activation markers in skin lesions of lacaziosis (Lobomycosis) / J.A. Quaresma [et al.]. Microb Pathog., – 2015. – 78:29–36 p.

9. Vilela, R., Bossart, G.D., St Leger, J.A., Dalton, L.M., Reif, J.S., Schaefer, A.M. [et al.] Cutaneous granulomas in dolphins caused by novel uncultivated Paracoccidioides brasiliensis. Emerg Infect Dis. – 2016; 22:2063 – 9.

10. Davoudi, S.M., Karimi Zarchi, A.A., Zafariyan, S. Prevalence of cutaneous diseases and related factors in a non-educational military center. Iran J Mil Med. – 2011; 13(1): 31 -5.

11. Kermani, F., Moosazadeh, M., Hosseini, S.A. [et al.] / Tinea gladiatorum and dermatophyte contamination among wrestlers and in wrestling halls: a systematic review and meta-analysis. [Electronic resource] / Curr Microbiol. – 2020. 77:602 – 11. URL: https://doi.org/10.1007/s00284-019-01816-3

## Аннотация

## Грибковая инфекция кожных покровов и особенности его распространенности среди военнослужащих

**Ругия Гюлиева**

Было проведено несколько исследований частоты грибкового поражения стоп у военнослужащих. Однако из-за отсутствия эпидемиологических данных в разных регионах распространенность грибковых инфекций часто недооценивается. Цель написания статьи – оценить распространенность грибковой инфекции в армии всех категорий стран, независимо от географической зоны и уровня развития, в сравнительной форме, а также осветить проблему на национальном и международном уровне.

**Ключевые слова:** военнослужащие, кожные заболевания, грибки, частота встречаемости, профилактика

**Abstract**

**Fungal infection of the skin and especially its prevalence among military personnel**

**Rugiyya Guliyeva**

There have been several studies on the incidence of fungal infections of the feet in military personnel. However, due to the lack of epidemiological data in different regions, the prevalence of fungal infections is often underestimated. The purpose of writing the article is to evaluate the prevalence of fungal infection in the army of all categories of countries, regardless of the geographical zone and level of development, in a comparative form, as well as highlight the problem at the national and international level.

**Keywords:** military personnel, skin diseases, fungi, frequency of occurrence, prevention

*Məqalə redaksiyaya daxil olmuşdur: 13.01.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 27.01.2023*
*Çapa qəbul edilmişdir: 08.02.2023*



## VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI, POLKOVNİK ZAUR İSMAYIL OĞLU NUDİRƏLİYEV

Zaur Nudirəliyev 1978-ci il sentyabrın 1-də Bakı şəhərində anadan olmuşdur. Uşaq yaşlarında atasını itirmişdir.

Z.Nudirəliyev 1985-ci ildə Sabunçu rayonunun Zabrat qəsəbəsində 192 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olmuş və 1992-ci ilə qədər orada təhsil almışdır. 80-ci illərin sonları, 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları Birinci Qarabağ müharibəsinin başlanmasına səbəb olmuşdur. Döyüşlərin yeni-yeni alovlandığı 1992-ci ildə Zaur Nudirəliyev sənədlərini Cəmşid Naxçıvanski adina Hərbi liseyə vermişdir. 1995-ci ildə Hərbi liseydən məzun olan Zaur Nudirəliyev elə həmin ildə Türkiyə Ali Hərbi Hava Qüvvələri Məktəbinə qəbul olunmuş və bu məktəbi 2000-ci ildə “Təyyarəçi” ixtisası üzrə bitirmişdir.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində “Su-25” hücum təyyarələrində yeni üsullardan istifadə olunması tapşırığı verilmişdir və Azərbaycan Ordusunun Komandanlığı bu işi Zaur Nudirəliyevə tapşırmışdır. Nudirəliyev nişangahdan istifadə etmədən, riyazi üsullarla bombaların atılmasının yeni üsulunu icra etmiş, həmçinin “Su-25” hücum təyyarəsindən lazer müşayiətli bombaların birinci atışını reallaşdırmışdır. Cəbrayıl – Füzuli və Ağdərə istiqamətlərində endirilən zərbələr nəticəsində Ermənistan ordusunun dayaq məntəqələri, canlı qüvvələri məhv edilmiş, həmçinin Azərbaycan Ordusunun quruda ciddi üstünlüyə sahib olması təmin olunmuşdur.

Döyüşlər başlanandan 12 uçuşu uğurla başa vuran Zaur Nudirəliyev oktyabrın 4-də Cəbrayıl rayonu istiqamətində hədəfə yaxınlaşan zaman idarə etdiyi "Su-25" hücum təyyarəsi düşmən tərəfindən vurulur. Peşəkar təyyarəçi Nudirəliyev həmin anlarda katapult etmək imkanının olmasına baxmayaraq, düşmənin nəzarəti altında olan ərazidə əsir düşmək ehtimalı böyük olduğundan döyüş təyyarəsini bütün sürəti ilə Ermənistan ordusunun bir qrup canlı qüvvəsinin cəmləşdiyi yerdə zirehli nəqliyyat vasitəsinə çırparaq şəhid olur. Cəsur pilotun bu hərəkəti "Atəş ramı" adlanır. Onu da qeyd edək ki, Zaur Nudirəliyev, 1941-ci ildən sonra "Atəş ramı"nı reallaşdıran ilk pilotdur.




Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidlik və mərdlik nümayiş etdirməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən, polkovnik Zaur Nudirəliyevə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən, polkovnik Zaur Nudirəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən, polkovnik Zaur Nudirəliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən, polkovnik Zaur Nudirəliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən, polkovnik Zaur Nudirəliyev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Şəhid Zaur Nudirəliyev Azərbaycanın Hərbi Hava Qüvvələri tarixində şəhid olan yeganə polkovnikdir.

Qəhrəman təyyarəçinin Pəri adında qızı və Ömər adında oğlu yadigar qalmışdır.

## ELMİ MƏQALƏLƏRİN TƏRTİB EDİLMƏSİNƏ DAİR TƏLƏBLƏR

Təqdim edilən məqalələr jurnalın elmi istiqamətinə (hərbi-nəzəri elmlər, hərbi-xüsusi elmlər, hərbi təbabət, milli təhlükəsizlik) uyğun, aktual elmi problemlərə aid tədqiqatların ilk dəfə dərc olunması üçün nəzərdə tutulmuş materiallara malik olmalıdır. Məqalələr elektron variantda üç dildə (Azərbaycan, rus və ya ingilis) təqdim edilə bilər.

Məqalə MS WORD mətn redaktorunda 12-lik Times New Roman şrifti ilə yığılmalı, sətirlərarası məsafə 1 olmalıdır. Məqalənin birinci səhifəsinin yuxarı sol tərəfində UOT indekslər göstərilməlidir. Mətnin əvvəlində məqalənin adı, müəllif(lər) haqqında məlumat (adı və soyadı tam şəkildə, elmi dərəcəsi, elmi adı və hərbi xidmətdə olanlar üçün hərbi rütbəsi), müəllif(lər)in işlədiyi müəssisə(lər), müəllif(lər)in elektron poçt ünvan(lar)ı (telefon nömrələri) verilməlidir. Bu məlumatlardan sonra məqalənin yazıldığı dildə qısa xülasə (100 sözdən çox olmamaqla) və 5–6 sözdən ibarət açar sözlər göstərilməlidir. Xülasədə tədqiqat işinin mahiyyəti, müəllif(lər)in aldıqları elmi nəticələr, işin elmi cəhətdən yeniliyi, tətbiqi əhəmiyyəti və s. yığcam şəkildə öz əksini tapmalıdır.

Məqalənin mətni 6–10 səhifə (A4 formatında) həcmində olmalı, səhifələrdə isə bütün tərəflərdən 20 mm boş məsafə saxlanmalıdır. Səhifələrin nömrəsi səhifənin aşağı hissəsinin sağ tərəfində qoyulmalıdır. Cədvəllər, qrafiklər, diaqramlar, şəkillər və fotolar mətnin daxilində yerləşdirilməklə məqaləyə daxil edilə bilər.

Elmi məqalədə mövzu üzrə qısa təhlil verilməli, onun aktuallığı əsaslandırılmalı, həll olunmalı məsələlər açıqlanmalı və onların həlli yolları göstərilməli, əldə edilən nəticələr, işin elmi cəhətdən yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

Elmi mənbələrə edilən istinadlar mətndə kvadrat mötərizədə verilməlidir (məsələn, [1] və ya [1, s.119]). Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndəki ardıcıllığı ilə nömrələnməlidir. Ədəbiyyat siyahısında son 10 ildə nəşr edilmiş elmi məqalələrə, monoqrafiyalara və digər etibarlı mənbələrə üstünlük verilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələbləri əsas götürülməlidir.

"İstifadə edilmiş ədəbiyyat siyahısı"ndan sonra məqalənin və müəllifin adı, xülasə və açar sözlər (məqalənin yazıldığı dildən əlavə, yuxarıda qeyd edilmiş daha iki dildə) verilməlidir.

Redaksiyaya daxil olmuş məqalələr anonim rəyçilərin rəyindən (2 müsbət rəydən) sonra ixtisas redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə olunacaq. Təqdim olunan məqalə dərc edilmədikdə jurnalın redaksiyası müəllif(lər)ə imtina cavabı göndərəcəkdir.

## ТРЕБОВАНИЯ К ОФОРМЛЕНИЮ НАУЧНЫХ СТАТЕЙ

Представленные для публикации в журнале статьи должны соответствовать научным направлениям (военно-теоретические науки, военно-специальные науки, военная медицина, национальная безопасность) журнала и содержать материалы отражающие результаты исследований научно-актуальных проблем, предназначенные для первичной публикации. Статьи могут быть представлены в электронном варианте на одном из следующих языков – азербайджанском, русском или английском.

Статья должна быть подготовлена в редакторе MS WORD, шрифт Times New Roman – 12, междустрочный интервал – одинарный. На левой верхней части первой страницы должны быть указаны индексы УДК. В начале статьи должны быть указаны название статьи, сведения об авторе(ах) (полное имя, учёная степень, учёное звание и воинское звание для военнослужащих), место работы, адрес электронный почты (телефонные номера). Далее должны быть приведены краткая аннотация (не более 100 слов) и ключевые слова (состоящих из 5–6 слов) на языке набранной статьи. В аннотации должны кратко отражаться сущность исследования, полученные научные результаты автора(ов), научная новизна работы, ее прикладное значение, и т.д.

Статья должна быть в объеме 6–10 страниц (в формате А4 машинописного текста). Поля страниц со всех сторон 20 мм. В статье могут быть размещены таблицы, графики, диаграммы, рисунки и фотографии.

В статье должен приводиться краткий анализ по содержанию работы, а также обосновываться актуальность темы, раскрываться решаемые задачи и указываться способы ее решения. Кроме этого, должны быть изложены полученные результаты, новизна работы, ее прикладное значение и т.д.

Ссылки на научные источники должны указываться в квадратных скобках (например, [1] или [1, с.119]). Указанный список литературы в конце статьи должен нумероваться в порядке последовательности цитируемой литературы в тексте. В списке литературы предпочтение должно отдаваться научным статьям, монографиям и другим надёжным источникам последних 10 лет.

При составлении библиографического описания должны соблюдаться требования Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

После раздела «Использованная литература», кроме языка, на котором написана статья, пишется название статьи, полное имя автора(ов) и аннотация еще на двух других языках, указанных выше.

Поступившие в редакцию статьи после анонимного рецензирования (2 положительных заключения) по представлению редактора по специальности или одного из членов редакции будут рекомендованы в печать. При отказе печатать статью редакция журнала уведомит об этом автора(ов).

## RULES FOR COMPILING SCIENTIFIC ARTICLES

Articles, submitted to be published in this journal must be appropriate to the norms and standards of researches being covered by its scope (military theoretical sciences, military special sciences, military medicine, and national security). The articles can be submitted in three (Azerbaijan, Russian and English) languages.

An article should be typed in MS WORD text edited in Times New Roman – with 12 shrift, 1 inter-line space. UDC (UOT) indexes are to be put on the left top of the first page. The topic of the article, information about the author(s), (full name, scientific degree, scientific position, military rank for servicemen), the names of the institutions where the authors work for, authors' e-mail account and phone numbers must be given at the beginning of the article. After this information, abstract (no more than 100 words) and keywords consisting of 5–6 words in the language in which the article is produced are to be written. The essence of the study, scientific results achieved by the author(s), scientific novelty of the study, practicality are to be briefly written in the abstract.

The text of the article is to be 6–10 pages (A4 format) and the dimension of the pages must be from all sides 20 mm. Numbering of the pages would be on the right bottom of each page. Schemes, graphics, diagrams, pictures and photos may be included by inserting them in the text of the article.

Brief analysis is to be given, the topicality of the subject is to be proved, the issues which are going to be solved must be clarified and the ways of the solution, the results, scientific innovation of the study, importance of application, economic efficiency and etc. are to be clearly shown in a scientific article.

The references linked to the scientific sources, must be noted in bracket (For example, [1] or [1, p.119]). The list of the reference at the end of the article is to be in the same sequence with the citations in the article. The sources of the late 10 years should be preferred in the reference list. While giving the bibliographic description, the requirements of the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan should be met.

After the list of the references, the names of article and author, the abstract and keywords of the article are to be designed in two more languages besides the language, the article is written are to be written.

Having received by the editorial department the papers will be recommended for publication by the speciality editor or one of the members of the editorial board after anonymous reviews (2 positive). In case the paper is not published the editorial department will send a letter indicating why the paper was rejected.

Çapa imzalanıb 12.05.2023. Ofset çap üsulu.
Formatı 60/84 ⅛. Fiziki ç.v.10.5. Sifariş 234.

Hərbi Nəşriyyatın mətbəəsində çap olunmuşdur.
Bakı, akad. Ş.Mehdiyev 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

